RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 209 (10229) 13 noyabr 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Avropa Azərbaycanla əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır



Prezident İlham Əliyev İrlandiyada səfərdədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın Baş naziri Mixol Martinin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısında iştirak etmək üçün İrlandiyada səfərdədir.

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dublində Ukrayna Prezidenti Volodimir Zelenski və Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın paytaxtı Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısının açılış plenar sessiyasında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün İrlandiyanın paytaxtı Dublində Bolqarıstan Respublikasının Baş naziri Rumen Radev ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində keçirilmiş "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" ("Building a competitive Europe - innovation, connectivity and affordable energy") mövzusunda "dəyirmi masa"-da iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın Dublin şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan, Yunanıstan Respublikasının Baş naziri Kiriakos Miçotakis, Çex Respublikasının Baş naziri Andrey Babiş, Rumıniya Prezidenti Nikuşor Dan, Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, Litva Respublikasının Prezidenti Gitanas Nauseda və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem ilə görüşüb.

2-3



44 günün unudulmaz anları

Ulu Öndər Heydər Əliyevin və möhtərəm Prezident İlham Əliyevin Azərbaycanın kimsəyə bir qarış torpağını belə güzəştə getməyəcəyi, torpaqlarını işğaldan tamamilə azad edəcəyini və lazım gələrsə, münaqişənin hərbi yolla həllinə nail olunacağı barədə xəbərdarlıqları nə Ermənistana, nə də onların müdafiəçilərinə və havadarlarına əsər edirdi.

ÇÜNKİ:

- BMT-nin qətnamələri yerinə yetirilmir;
- AŞPA və Avropa İttifaqı PA vaxtaşırı Azərbaycana təzyiq məqsədilə yalana əsaslanan qərəzli sənəd və bəyanatlar qəbul edir;
- ATƏT-in Minsk qrupu mənasız və nəticəsiz danışıqları uzatdıqca uzadır;
- ATƏT-in həmsədr dövlətləri işğalçı ilə işğala məruz qalan tərəflər arasında heç bir fərq qoymayaraq "siz aranızda hansı razılığa gəlsəniz, biz onu dəstəkləyəcəyik" kimi absurd fikirlər səsləndirir;
- Beynəlxalq hüquq ayaqlar altında tapdalanırdı.

Bütün bunlardan ruhlanan Ermənistanın yeni rəhbərliyi isə "Qarabağ Ermənistandır - nöqtə", "yeni müharibə, yeni ərazilər olacaqdır" söyləməklə nəinki torpaqları könüllü şəkildə geri qaytarmayacağını bildirir, üstəlik, bizi yeni işğalla hədələyirdi.

Bütün tərəflərin mövqeləri açıq və bəlli görünürdü:

- ATƏT-in Minsk qrupu münaqişəni sülh danışıqları yolu ilə həll etmək niyyətində deyil;
- Həmsədr dövlətlər erməni mövqeyini müdafiə edir;
- Ermənistan artıq Qarabağı və işğal etdiyi digər əraziləri özününkü sayır;
- Azərbaycan isə heç bir təsir, təhdid qarşısında geri çəkilməyərək öz torpaqlarını son qarışınadək azad edəcəyini qətiyyətlə söyləyirdi!

Həm də təkcə söyləmirdi...

2016-cı ilin dördgünlük Aprel döyüşlərində qüdrətli ordu qurduğunu və onun vasitəsilə uğurlu hərbi əməliyyatlar aparacağını əyani şəkildə nümayiş etdirdi!

Ağlını itirmiş Ermənistan rəhbərliyi isə baş verənlərdən düzgün nəticə çıxarmaq əvəzinə Tovuz bölgəsində dalbadal təxribatlar törətməyə, Azərbaycanın ixrac boru kəmərlərini dağıdacağı ilə hədələməyə başladı.

Həm də hədəsini təxribatlarla gerçəkləşdirdi.

Artıq müharibə labüd görünürdü.

Belə də oldu.

27 sentyabr 2020-ci ildə Prezident İlham Əliyevin televiziya vasitəsilə xalqa ilk müraciəti səsləndi:

"Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb".

Cənab İlham Əliyev həmişə dediyini edib!

Hərbi əməliyyatların başladığı ilk gündə şəhid olanlarımız barəsində "Onların qanı yerdə qalmayacaqdır" söyləməsi 44 gün ərzində həyata keçirildi!

Təkcə torpaqlarımız azad edilmədi, hərb meydanında düşməndən qisasımız alındı, üstəlik, ərazilərimiz terrorçulardan və separatçılardan tamamilə təmizləndi!

7

Zəfər yolları



Zəfər yolunun təməli 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli rayonuna səfəri zamanı qoyulub. Dövlət başçısı həmin gün yolun strateji və mənəvi əhəmiyyətindən danışaraq demişdi: "Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır".

Prezident İlham Əliyevin Zəfər yolu adlandırdığı magistral yolun tikintisi mürəkkəb dağlıq relyef şəraitində, sərt qayaların yarılması və müasir mühəndislik texnologiyalarının tətbiqi ilə həyata keçirilib. Dövlət başçısının daimi nəzarətində olan bu layihə qısa müddətdə tamamlanıb və 2021-ci il noyabrın 7-də, tarixi Zəfərimizin birinci ildönümü ərəfəsində istifadəyə verilib. Füzuli, Xocavənd və Xocalı rayonlarının ərazilərindən keçərək Şuşaya uzanan yol onlarca yaşayış məntəqəsinin nəqliyyat imkanlarının genişlənməsinə xidmət edir. Bu magistral həm də Azərbaycanın azad edilmiş torpaqlarda qısa müddətdə böyük layihələri reallaşdırmaq gücünü nümayiş etdirir.

9

Avropa məkanında artan nüfuz



Rəsmi Bakının yürütdüyü diplomatik siyasətin diqqətçəkən əsas cəhətlərindən biri də qlobal miqyasda bir-biri ilə rəqabət aparan böyük güclərlə eyni vaxtda qarşılıqlı hörmətə əsaslanan münasibətlər qura bilməsidir. Ötən il Çinlə Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması, bu ilin fevralında isə ABŞ vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri zamanı iki ölkə arasında "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın qəbul edilməsi balanslaşdırılmış xarici siyasətin bariz nümunəsidir.

8

◆ Prezident İlham Əliyevin İrlandiyaya səfəri

Avropa Azərbaycanla əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır

Azərbaycan və Ukrayna prezidentlərinin görüşü



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın Baş naziri Mixol Martinin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısında iştirak etmək üçün İrlandiyada səfərdədir.

AZƏRTAC xəbər verir ki, noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dublində Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.

Ukrayna Prezidenti dövlətimizin başçısını Zəfər Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik etdi.

Görüşdə Prezident Volodimir Zelenskinin Azərbaycana səfəri və səfər zamanı aparılmış müzakirələr məmnunluqla xatırlandı.

Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, eyni zamanda özəl sektorun xətti ilə iqtisadi əlaqələrin inkişaf perspektivləri müzakirə olundu, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri məsələsi barədə fikir mübadiləsi aparıldı.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara, xüsusilə elektrik avadanlıqlarının təchizatı məsələsində dəstəyə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində apardığı bərpa və quruculuq işlərinin Ukrayna tərəfindən də böyük maraqla izlənildiyi qeyd olundu, bu xüsusda ölkəmizin təcrübəsinin Ukrayna üçün də əhəmiyyətli olacağı bildirildi.

Görüşdə Azərbaycan və Ukrayna prezidentləri qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi apardılar.

Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısının açılış plenar sessiyasında iştirak edib





Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın paytaxtı Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısının açılış plenar sessiyasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev sessiyada iştirak etmək üçün Dublindəki Konqres Mərkəzinə gəldi. İrlandiyanın Baş naziri Mixol Martin dövlətimizin başçısını qarşıladı. Azərbaycan Prezidenti Zirvə toplantısının açılış plenar sessiyasında iştirak etdi.

Sonda toplantı iştirakçıları birgə foto çəkdirdilər.

❖ ❖ ❖

"Avropa - güclü, təhlükəsiz və əlaqəli" mövzusuna həsr olunan budəfəki Zirvə toplantısının gündəliyində rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, innovasiyaların təşviqi, nəqliyyat bağlantılarının inkişafı, əlçatan enerji, həmçinin Avropanın təhlükəsizliyi və müdafiəsi məsələləri yer alıb. Builki toplantıda 50-yə yaxın dövlət və hökumət başçısı iştirak edir.

Prezident İlham Əliyevin Dublində Moldova Prezidenti ilə görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Maya Sandu ilə görüşləri, həmçinin yüksəksəviyyəli qarşılıqlı səfərlər məmnunluqla xatırlandı.

Prezident Maya Sandu Moldovanın Azərbaycanla enerji sahəsində əməkdaşlığına toxundu və bunu inkişaf etdirməkdə maraqlı olduqlarını bildirdi.

Moldova Prezidenti ölkəsinin enerji təhlükəsizliyinə göstərilən dəstəyə görə təşəkkürünü ifadə etdi.

Azərbaycan və Moldova prezidentləri münasibətlərimizin perspektivlərinə, iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə, həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardılar.

Prezident İlham Əliyev Dublində Bolqarıstanın Baş naziri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində Bolqarıstan Respublikasının Baş naziri Rumen Radev ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bir neçə gün əvvəl Bolqarıstanda baş vermiş ağır yol-nəqliyyat hadisəsi nəticəsində insanların həlak olması ilə bağlı Baş nazir Rumen Radevə bir daha başsağlığı verdi.

Bolqarıstanın Baş naziri başsağlığına və ifadə olunmuş həmrəyliyə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanla Bolqarıstan arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu vurğulandı, dostluq və strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edildi.

Görüşdə enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edilərək, bu istiqamətdə tərəfdaşlığı möhkəmləndirmək üçün yaxşı perspektivlərin olduğu vurğulandı, ölkələrimiz arasında elektrik enerjisi dəhlizi layihəsinin yaradılması, həmçinin bağlantılarla bağlı fikir mübadiləsi aparıldı. Azərbaycan Prezidenti və Bolqarıstanın Baş naziri müxtəlif sahələrdə əlaqələrimizin inkişafı ilə bağlı məsələləri müzakirə etdilər.

Azərbaycan Prezidenti İlham Əliyevin Dublində Ermənistanın Baş naziri ilə görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İrlandiyanın Dublin şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşüb.





AZƏRTAC xəbər verir ki, liderlər 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə və həmin tədbirdə imzalanmış Vaşinqton Birgə Bəyannaməsinə əsaslanaraq, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə iki ölkə arasında sülhün daha da möhkəmləndirilməsinə yönəlmiş praktiki addımlara, o cümlədən nəqliyyat və tranzit əlaqələrinin inkişafına, iqtisadi-ticari münasibətlərə, sərhədlərin delimitasiyasına və etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinə dair müzakirələr aparılıb. Liderlər bu kontekstdə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) inkişafı istiqamətində əldə olunmuş irəliləyişləri, o cümlədən onun dəmir yolu və avtomobil yolu komponentlərinin planlaşdırılması və layihələndirilməsini, həmçinin TRIPP marşrutu boyunca tranzit əlaqələrinin perspektivlərini müzakirə ediblər.

Yüklərin Azərbaycan ərazisindən keçməklə Ermənistana və Ermənistandan tranziti müsbət hal kimi qeyd olunub. Ötən ilin noyabr ayından etibarən Azərbaycan ərazisindən Ermənistana ümumilikdə 105 min ton yük daşınıb.

Tərəflər həmçinin Azərbaycan ilə Ermənistan arasında iqtisadi və ticari əlaqələrin daha da inkişaf etdirilməsi imkanları, o cümlədən gələcəkdə elektrik şəbəkələrinin birləşdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Liderlər ətraf mühit və transsərhəd su əməkdaşlığının əhəmiyyətini vurğulayıb, transsərhəd çayların idarə olunması üzrə işçi qrupların yaradılmasını alqışlayıblar.

Liderlər sülh prosesində müsbət dinamikanın qorunub saxlanılmasının, regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə yönəlmiş dialoqun davam etdirilməsinin vacibliyini bir daha təsdiqləyiblər.

◆ Prezident İlham Əliyevin İrlandiyaya səfəri

Avropa Azərbaycanla əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır



Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində "dəyirmi masa"da iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində keçirilmiş "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" ("Building a competitive Europe - innovation, connectivity and affordable energy") mövzusunda "dəyirmi masa"da iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Prezident İlham Əliyev gələcəkdə alternativ enerjinin rolunun daha da artacağını dedi. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin roluna toxunan dövlətimizin başçısı bu xüsusda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair 2022-ci ildə imzalanmış Anlaşma Memorandumunu qeyd etdi. Bildirdi ki, o vaxtdan bəri ölkəmiz Avropa İttifaqına qaz təchizatını 8 milyard kubmetrdən 13 milyard kubmetrə qədər artırıb. Dövlətimizin başçısı bunun Azərbaycanın ixracının demək olar ki, yarısını təşkil etdiyini dedi. Prezident İlham Əliyev qaz təchizatını artırmağı planlaşdırdığımızı bildirdi, bu xüsusda yeni yataqların kəşf edildiyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, bu gün yeddi ölkənin ərazisindən keçən və Bolqarıstandakı interkonnektorlar vasitəsilə Avropa İttifaqının on ölkəsini təchiz edən, Bakıdan İtaliyaya qədər uzanan boru kəməri tamamilə doludur. Prezident İlham Əliyev onu genişləndirməyin vacibliyinə toxundu, Yunanıstana və İtaliyaya gedən kəmərin ötürmə gücünün 10 milyard kubmetrdən 11,2 milyard kubmetrə qədər artırdığımızı bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın emal müəssisələrinin ümumi istehsal həcminin 30 milyon ton olduğunu diqqətə çatdırdı.

Yunanıstanın Baş naziri ilə görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 12-də Dublində Yunanıstan Respublikasının Baş naziri Kiriakos Miçotakis ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Yunanıstan ikitərəfli əlaqələri nəzərdən keçirildi.

Ölkəmizin Avropanın, həmçinin Yunanıstanın enerji təhlükəsizliyində oynadığı rol və bu məsələyə verdiyi töhfə vurğulandı. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanın Avropaya enerji, xüsusilə qaz ixracının artırılması üçün əlavə imkanların olduğu bildirildi, bu baxımdan Avropa İttifaqının maliyyə və prosedur mexanizmlərinə yenidən baxılmasının vacibliyi vurğulandı.



Çexiyanın Baş naziri ilə görüş

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dublində Çex Respublikasının Baş naziri Andrey Babişlə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Baş nazir Andrey Babiş bu ilin aprelində ölkəmizə rəsmi səfərini və Qəbələdə dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırladı. Həmin səfər çərçivəsində müzakirə olunmuş məsələlərin icrasında yaxşı nəticələrin əldə olunduğu vurğulandı.

Görüşdə iqtisadi-ticari əlaqələrin inkişafı, investisiya layihələrinin həyata keçirilməsi, iki ölkənin biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili məsələləri müzakirə olundu.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı mühüm rola toxunularaq, ölkəmizin Çexiyanın ən iri neft təchizatçısı olduğu qeyd edildi.



Rumıniya Prezidenti ilə görüş

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dublində Rumıniya Prezidenti Nikuşor Dan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ilə görüşdən məmnunluğunu bildirən Prezident Nikuşor Dan ölkələrimiz arasında dostluq əlaqələrinin olduğunu vurğulayaraq, Azərbaycan Prezidentini Rumıniyada səfərdə görməkdən məmnun olacağını bildirdi.

Prezident İlham Əliyev münasibətlərimizin strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini dedi və əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı.

Dövlət başçıları ikitərəfli müzakirələrə əsaslanaraq, strateji tərəfdaşlığımızın dərinləşdirilməsinə, əsas enerji və bağlantı layihələrinin irəlilədilməsinə, həmçinin ortaq siyasi və iqtisadi gündəliyin həyata keçirilməsinə dair fikir mübadiləsi apardılar.

Azərbaycanın Rumıniya üçün və Avropanın enerji təhlükəsizliyi baxımından mühüm tərəfdaş olduğu vurğulandı. Enerji sahəsində mövcud əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirildi. Xəzər dənizini və Qara dənizi birləşdirən əməkdaşlığımızın inkişafı üçün böyük potensialın mövcudluğu qeyd edildi.



Görüşdə ölkələrimiz arasında bağlantılar, şəhərlərarası və elm-təhsil sahəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, müdafiə sənayesi sahəsində əlaqələrin perspektivləri qeyd edildi.

Son dövrlərdə ölkələrimiz arasında müxtəlif səviyyələrdə həyata keçirilən səfərlərin əhəmiyyəti vurğulandı. Rumıniya Prezidenti əlaqələrimizin humanitar-mədəni aspektinin vacib hissəsi kimi paytaxt Buxarestdə Heydər Əliyev parkının mövcudluğunu qeyd etdi və hazırda parkda təmir işlərinin uğurla aparıldığını bildirdi.

Avropa İttifaqı Şurasının prezidenti ilə görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 12-də Dublində Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi, ölkəmizə səfərini xatırladı. O, Azərbaycan-Avropa İttifaqı dialoqunun və əməkdaşlıq məsələlərinin müzakirəsini davam etdirmək üçün Prezident İlham Əliyevi Avropa İttifaqına səfərə dəvət etdi.

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın ölkəmizə səfərini xatırladı və qeyd etdi ki, bu, əlaqələrimizin inkişafına yaxşı imkanlar açır.

Prezident İlham Əliyev ölkəmizin etibarlı tərəfdaş kimi Avropanın enerji təchizatı və enerji təhlükəsizliyində oynadığı rola toxunaraq vurğuladı ki, Azərbaycan hazırda Avropa İttifaqının 10 üzv ölkəsinə qaz ixrac edir. Ölkəmizlə Avropa İttifaqı arasında qaz təchizatı sahəsində uğurlu əməkdaşlığın davam etdirilməsi baxımından uzunmüddətli enerji müqavilələrinin və maliyyə mexanizmlərinin yenidən nəzərdən keçirilməsinin vacibliyi qeyd olundu.



Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji, o cümlədən bərpaolunan enerji sahəsində əməkdaşlığa toxunularaq, bu xüsusda Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında bərpaolunan enerjinin Avropa bazarına ixracı üçün əldə olunmuş razılaşma vurğulandı.

Avropa İttifaqı tərəfindən Naxçıvan dəmir yolu layihəsi üzrə qiymətləndirmənin tezliklə yekunlaşdırılacağı bildirildi.

Orta dəhlizin əhəmiyyəti qeyd edildi, nəqliyyat və bağlantıların inkişafı məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Litva Prezidenti ilə görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 12-də Dublində Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu vurğulandı, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlığın inkişafı üçün daha böyük potensialın mövcudluğu qeyd edildi.

Azərbaycanın və Litvanın dövlət başçıları regional sülh gündəliyi, ikitərəfli münasibətlər və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişləndirilməsi barədə fikir mübadiləsi apardılar.



Böyük Britaniyanın Baş naziri ilə görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" mübadilə olundu.

Söhbət zamanı bu bəyannamənin qəbul edilməsinin əlaqələrimizin rəsmi olaraq keyfiyyətcə yeni səviyyəyə qalxmasına xidmət etdiyi vurğulandı. Hətta bu sənədin qəbulundan əvvəl də Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bir daha qeyd edildi.

Dövlətimizin başçısı ölkələrimiz arasında enerji sahəsində 30 ildən artıq davam edən uğurlu əməkdaşlığa toxunaraq, Böyük Britaniyanın Azərbaycanda Avropanın ən böyük investoru olduğunu dedi.

Hazırda bərpaolunan enerji, yüksək texnologiyalar, süni intellekt sahələrində də əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı. Bu xüsusda son aylarda Britaniyadan Azərbaycana həyata keçirilən yüksəksəviyyəli rəsmi səfərlərin və aparılmış müzakirələrin əhəmiyyətinə toxunuldu.

Görüşdə həmçinin beynəlxalq gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi aparıldı.



Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə

Azərbaycan Respublikası və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı (bundan sonra "İştirakçılar" adlandırılacaq)

İki ölkə arasında uzunmüddətli münasibətlərə əsaslanaraq və 1994-cü il 23 fevral tarixli Dostluq və Əməkdaşlıq haqqında Birgə Bəyannaməni və 1998-ci il 21 iyul tarixli Dostluq Münasibətləri və Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni xatırlayaraq, ikitərəfli əlaqələrin gücünü, dərinliyini və dinamizmini qəbul edərək, qarşılıqlı hörmətə, ortaq maraqlara və praktik əməkdaşlığa əsaslanan münasibətləri Strateji Tərəfdaşlıq səviyyəsinə qaldırmaq üçün ortaq qətiyyətlərini ifadə edirlər.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, beynəlxalq hüququn prinsiplərinə və normalarına, xüsusən də beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, eləcə də suverenliyə, müstəqilliyə və ərazi bütövlüyünə hörmətlə bağlı prinsiplərə sadiqliklərini bir daha təsdiqləyərək.

2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvəsi Bəyannaməsinin əhəmiyyətini vurğulayaraq və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı sülh addımlarını alqışlayaraq, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ikitərəfli dialoq yolu ilə regionda davamlı sülhə nail olmaq məqsədi daşıyan iki ölkənin səylərinə davamlı dəstəyini bir daha təsdiqləyir.

Güclü, dayanıqlı və şaxələndirilmiş iqtisadi artımın, açıq ticarətin, investisiyaların və innovasiyanın hər iki İştirakçı üçün uzunmüddətli sabitlik və rifahın vacib təməlləri olduğunu qəbul edərək.

Hər iki tərəf davamlı tərəfdaşlıqların etimad, açıqlıq və güclü insanlararası əlaqələr üzərində qurulduğunu tanıyaraq, uzunmüddətli artım və rəqəmsal transformasiya üçün təməl kimi təhsil, elm, innovasiya və bacarıqlar sahəsində praktik əməkdaşlığın vacibliyini təsdiqləyir. İştirakçılar, həmçinin icmalarla birbaşa əlaqənin qarşılıqlı faydasını tanıyır və bu Tərəfdaşlığın məqsədinə çatan layihə və proqramları dəstəkləməyi öhdələrinə götürürlər.

İştirakçılar aşağıdakı anlaşmaya gəldilər:

I. Müdafiə və Təhlükəsizlik

İştirakçılar regional sülh və sabitliyi dəstəkləmək üçün müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi və ümumi təhdidləri yayındırmaq, qarşısını almaq və onlara cavab vermək qabiliyyətlərini artırmaq üçün uzunmüddətli öhdəlikləri ortaq qəbul edirlər.

Onlar yüksəksəviyyəli qarşılıqlı fəaliyyətin davamlı impulsuna sadiq qalacaq və qarşılıqlı maraq doğuran ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə koordinasiyanı dərinləşdirəcəklər.

İştirakçılar təlim, potensialın artırılması və qarşılıqlı fəaliyyətə yönəlmiş müdafiə əməkdaşlığını inkişaf etdirəcək və qarşılıqlı maraq doğuran sahələrdə birgə təşəbbüslər də daxil olmaqla, müdafiə sənayesi əməkdaşlığını gücləndirmək imkanlarını araşdıracaqlar.

Onlar artan təhlükəsizlik çağırışlarına və təhdidlərinə cavab olaraq genişspektrli təhlükəsizlik prioritetləri üzrə əməkdaşlığı gücləndirəcəklər.

Bundan əlavə, İştirakçılar qanunun aliliyini və institusional dayanıqlılığı gücləndirmək üçün hüquq-mühafizə orqanları arasında gücləndirilmiş tərəfdaşlıq və sərhəd idarəçiliyi, eləcə də məhkəmə və hüquqi əməkdaşlığı formalaşdıracaqlar.

Onlar, həmçinin maraqların uzlaşdığı çoxtərəfli platformalarda beynəlxalq sülhə və təhlükəsizliyə birgə töhfə verərək əməkdaşlıq etmək niyyətlərini təsdiqləyirlər.

II. Ticarət, İnvestisiya və Artım

İştirakçılar ikitərəfli ticarət və investisiya əlaqələrini genişləndirmək və dərinləşdirmək, eləcə də davamlı, inklüziv və şaxələndirilmiş iqtisadi artımı təşviq etmək ambisiyalarını ortaq qəbul edirlər.

Onlar, bərpaolunan enerji, infrastruktur və xidmətlər də daxil olmaqla, prioritet sektorlar üzrə uzunmüddətli kommersiya tərəfdaşlıqlarını, bilik mübadiləsini və qarşılıqlı fəaliyyəti asanlaşdırmaqla, eləcə də hər iki iqtisadiyyatda iş yerləri, bacarıqlar və dəyər yaradan bizneslərarası əlaqələri təşviq etməklə iqtisadiyyat, ticarət və investisiya sahələrində əməkdaşlığı gücləndirəcəklər.

İştirakçılar regional və beynəlxalq bağlantıların vacibliyini vurğulayır və sərhədyanı ticarət və investisiyaları asanlaşdıran nəqliyyat, logistika və infrastruktur layihələri ilə yanaşı, Orta dəhlizin inkişafını da dəstəkləyəcəklər.

Onlar iqlim dəyişikliyinə davamlılığı, dayanıqlığı və sıfır hədəflərinə doğru irəliləyişi, eləcə də enerji təhlükəsizliyini dəstəkləmək məqsədilə bərpaolunan enerjinin inkişafı, yaşıl maliyyələşdirmə və aşağıkarbonlu texnologiyalar da daxil olmaqla, təmiz enerji keçidi üzrə əməkdaşlıq edəcəklər.

İştirakçılar davamlı investisiya, ticarət maliyyəsi, KOB-ların artımı və yaşıl maliyyələşdirməni dəstəkləmək məqsədilə müvafiq orqanlar və maliyyə qurumları arasında dialoq vasitəsilə maliyyə və kapital bazarlarında əməkdaşlığı dərinləşdirmək imkanlarını araşdıracaqlar. Onlar müvafiq qanunlarına və qaydalarına uyğun olaraq, maliyyə sektorunun dayanıqlığını, şəffaflığını və beynəlxalq bazarlara çıxışını gücləndirən bilik mübadiləsini və institusional əməkdaşlığı asanlaşdıracaqlar.

İştirakçılar iqtisadi, ticarət və investisiya əməkdaşlığını, həmçinin texniki dialoqu stimullaşdıran mexanizmi kimi Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın roluna xüsusi əhəmiyyət verirlər. Onlar bundan investisiya, iqtisadi şaxələndirmə, Orta dəhlizin inkişafı və enerji əməkdaşlığı üzrə birgə təşəbbüsləri irəlilətmək üçün əsas platforma kimi istifadə edəcəklər.

III. Təhsil və İnnovasiya

İştirakçılar təhsilin, elmin, tədqiqatın və innovasiyanın uzunmüddətli rifahın, məhsuldarlığın və sosial dayanıqlığın vacib amilləri, eləcə də müasir, rəqabətə davamlı və inklüziv iqtisadiyyatların təməli olduğunu qəbul edirlər.

Onlar artan əmək bazarı və idarəetmə ehtiyaclarına cavab olaraq, ali təhsil, peşə təhsili və təlim, rəqəmsal və texniki bacarıqlar, eləcə də icraedici və dövlət sektorunda təlim də daxil olmaqla, təhsil və bacarıqların inkişafı sahəsində əməkdaşlığı dərinləşdirəcəklər.

İştirakçılar bacarıqların inkişafı, şəffaflıq və inklüziv artıma diqqət yetirərək, süni intellekt, rəqəmsal idarəetmə və innovasiya mühiti üzrə təcrübə mübadiləsi vasitəsilə də rəqəmsallaşdırma, inkişafda olan texnologiyalar və həyat elmləri sahələrində əməkdaşlıq edən universitetlər, tədqiqat institutları və sənayeləri arasında tərəfdaşlıq da daxil olmaqla, tədqiqat, innovasiya və texnoloji əməkdaşlığı təşviq edəcəklər.

İştirakçılar iki vətəndaş cəmiyyəti arasında qarşılıqlı anlaşmanı, mədəni əlaqələri və uzunmüddətli əməkdaşlığı təşviq edən insanlararası mübadilələri və peşəkar şəbəkələri həvəsləndirəcəklər.

Yekun müddəalar

İştirakçılar bu Bəyannamənin üç istiqaməti üzrə irəliləyişi nəzərdən keçirmək, gələcək əməkdaşlıq üçün prioritetləri müəyyən etmək və gedişatın praktiki izlənilməsi üzrə razılığa gəlmək məqsədilə illik Strateji Tərəfdaşlıq görüşləri keçirmək barədə anlaşmaya gəldilər.

Bu Bəyannamə çərçivəsində əməkdaşlıq resursların mövcudluğuna tabe və İştirakçıların müvafiq qanun və qaydalarına uyğun olacaqdır.

Dublin şəhərində 2026-cı il noyabrın 12-də hər iki mətn bərabər autentik olmaqla, Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə qəbul olunmuşdur.

İLHAM ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

ENDİ BÖRNHEM,
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri

"Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 308 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 377 **Bakı şəhəri, 11 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 308 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1641 (Cild I); 2025, № 9, maddə 861) 1-ci hissəsində "Əli Əhmədov" sözləri "Teymur Musayev" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Üç komitənin birgə iclasında gələn ilin dövlət büdcəsi müzakirə olunub



Noyabrın 12-də Milli Məclisin Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Mədəniyyət komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin verdiyi məlumata görə, iclası açan Milli Məclisin Sədr müavini Rafael Hüseynov tədbirin ölkəmiz üçün əlamətdar günlər ərəfəsində keçirilməsinə diqqət çəkib. O, müzakirə olunan dövlət büdcəsini də Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu yüksəliş və inkişaf yolunun cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin bəhrələrindən biri kimi dəyərləndirib. Vurğulanıb ki, gələn ilin dövlət büdcəsi Azərbaycanın tarixi nailiyyətlərinin möhkəmləndirilməsi, inkişafının davamlılığının təmin edilməsi və gələcək hədəflərinin reallaşdırılması üçün etibarlı maliyyə zəmini yaradır.

Rafael Hüseynov mədəniyyət, idman, gənclər siyasəti, ictimai birliklər, dini qurumlar və digər əlaqədar sahələr üzrə növbəti ilin dövlət büdcəsində müvafiq maliyyə təminatının nəzərdə tutulduğunu və bu sahələrin daim dövlətin diqqət mərkəzində olduğunu bildirib. Vitse-spiker büdcə göstəricilərinin artım dinamikasına toxunaraq, gələn ilin maliyyə sənədinin ölkəmizin strateji vəzifə və prioritetlərini, təhlükəsizlik məsələlərini əhatə etdiyini, dövrün çağırışlarına, gələcək inkişafa, dövlətin, xalqın mənafeyinə cavab verdiyini vurğulayıb.

Sonra maliyyə nazirinin müavini Himalay Məmişov "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib. O bildirib ki, büdcə layihəsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun hazırlanıb. Büdcə siyasətinin əsas istiqamətlərini isə dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin qorunması, əhalinin rifahının yüksəldilməsi, sosial tədbirlərin maliyyələşdirilməsi, ölkənin təhlükəsizliyinin gücləndirilməsi, rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi və real sektorun inkişafının sürətləndirilməsi təşkil edir. Qeyd olunub ki, büdcə layihəsi neftdən asılılığın azaldılması, qeyri-neft gəlirlərinin artırılması və ortamüddətli dövrdə fiskal dayanıqlığın gücləndirilməsi istiqamətində müsbət meyilləri əks etdirir.

Növbəti ilin dövlət büdcəsinin xərcləri barədə məlumat verərkən nazir müavini mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin maliyyələşdirilməsi tədbirlərinə ayrıca toxunub. Bildirilib ki, bu məqsədlə 643 milyon manat vəsait proqnozlaşdırılıb. Bu isə 2025-ci ilin icra göstəricisi ilə müqayisədə 116 milyon manat və ya 22 faiz çoxdur. Həmin vəsaitin 239 milyon manatı mədəniyyət və incəsənət sahəsində fəaliyyətin, 68,4 milyon manatı televiziya, radio və nəşriyyat sahələrinin, 49 milyon manatı bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinin, 22,8 milyon manatı yaradıcı ittifaqların, cəmiyyətlərin və dini tədbirlərin, 264 milyon manatı isə bu sahələrdə digər müəssisə və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək. Azərbaycanın xarici ölkələrdəki mədəniyyət mərkəzlərinin saxlanılması üçün 13,7 milyon manat, ölkədəki mədəniyyət müəssisələrinin saxlanılması üçün 49,7 milyon manat vəsait ayrılıb. Növbəti ildə Azərbaycan həqiqətlərinin, tarixi və mədəni irsinin təbliği və digər tədbirlərə 7,1 milyon manat vəsait, Mədəniyyət Nazirliyinin mərkəzləşdirilmiş mədəniyyət tədbirləri üzrə isə 26,8 milyon manat ayrılıb.

İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Azər Bayramov vurğulayıb ki, 2027-ci ilin dövlət büdcəsi iki strateji mərhələ arasında keçid dövründə müzakirə olunur. Belə ki, 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasının icra müddəti yekunlaşır, 2027-2030-cu illəri əhatə edən yeni strateji mərhələ başlayır. O bildirib ki, möhtərəm Prezident İlham Əliyevin müəyyən etdiyi strateji kursa uyğun olaraq, qarşıdakı dövrün əsas vəzifəsi əldə olunmuş makroiqtisadi sabitliyi və yaradılmış imkanları daha yüksək əlavə dəyərə, məhsuldar məşğulluğa və artan rifaha çevirməkdir.

Nazir müavini gələn ilin dövlət büdcəsinin əsas iqtisadi göstəriciləri, makroiqtisadi proqnozları, sahibkarlığa dövlət dəstəyi tədbirləri barədə məlumat verib.Vurğulanıb ki, növbəti il və ortamüddətli dövr üçün iqtisadi siyasətin məqsədi ixraca yönəlmiş, özəl investisiyaya söykənən dayanıqlı artımdır.

Sonra iclasda Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov 2027-ci ilin dövlət büdcəsinə dair Palatanın rəyini təqdim edib. O bildirib ki, layihə qanunvericiliyə uyğun hazırlanıb, Hesablama Palatasının əvvəlki rəylərində göstərilmiş məsələlər büdcə zərfində tam və ya qismən nəzərə alınıb.

O, büdcə sənədlərində məlumatların genişləndirilməsini müsbət qiymətləndirib, gəlir və xərclərin dəqiq müəyyənləşdirilməsi, hesabatlılığın artırılması ilə bağlı Palatanın qeydlərini, bəzi məsələlər üzrə isə Palatanın təkliflərini diqqətə çatdırıb.

İclasda Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxış ediblər.

Çıxışlarda gənclər siyasətinin inkişafına, gənclər evlərinin fəaliyyətinin genişləndirilməsinə və Gənclər Fonduna ayrılan vəsaitin bu sahəyə mühüm töhfə verəcəyi vurğulanıb. Gənclərin təşəbbüslərinin dəstəklənməsinin, eləcə də sosial, mədəni və ictimai sahələrdə davamlılığın təmin edilməsinin vacibliyi qeyd olunub.

Bununla yanaşı, vətəndaş cəmiyyəti institutlarının, siyasi partiyaların və regionlarda fəaliyyət göstərən ictimai birliklərin dəstəklənməsinin əhəmiyyətinə diqqət çəkilib, bu istiqamətlərə ayrılan vəsaitin ictimai fəallığın və təşəbbüslərin artırılmasına xidmət etdiyi bildirilib.

Məlumat verilib ki, "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası ölkənin mədəni inkişafı üzrə əsas hədəfləri müəyyən edir. İşğaldan azad edilmiş ərazilərdə mədəniyyət müəssisələrinin bərpası, yeni mədəniyyət ocaqlarının inşası və bölgələrin mədəni həyatının canlandırılması istiqamətində işlərin davam etdirildiyi diqqətə çatdırılıb.

Müzakirələrdə Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, deputatlar Ceyhun Məmmədov, Tənzilə Rüstəmxanlı, Əlibala Məhərrəmzadə, Azər Allahverənov çıxış edərək məsələ ilə bağlı fikirlərini bildiriblər, qeyd və suallarını səsləndiriblər.

Maliyyə nazirinin müavini Himalay Məmişov və Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Sonda "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

"Azərbaycan"

COP-da Azərbaycan standartı

Bu standart beynəlxalq iqlim əməkdaşlığı üçün mühüm təcrübə nümunəsidir

İqlim dəyişmələri hazırda dünyanın qarşısında dayanan ən ciddi problemlərdəndir. Yaranmış çətinliklərin aradan qaldırılması dövlətlərin birgə səylərini və sıx əməkdaşlığını tələb edir. Məhz bu məqsədlə 1995-ci ildən bəri hər il BMT çərçivəsində keçirilən Tərəflər Konfranslarında (COP) dünya ölkələri iqlim problemlərini müzakirəyə çıxarır, ortaq qərarlar qəbul edir və gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirirlər.

Bu mənada 2024-cü ildə Azərbaycanın evsahibliyi etdiyi COP29 böyükmiqyaslı beynəlxalq görüşlərin təşkili, diplomatik əlaqələrin inkişafı və Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsindən dolayı geniş təcrübə qazandı. Bu, həm də ölkəmizin beynəlxalq aləmdəki rolunu və genişmiqyaslı tədbirləri təşkil etmək imkanlarını nümayiş etdirmək üçün fürsət idi. Tədbirə hazırlıq çərçivəsində zəruri infrastrukturun yaradılması, nəqliyyat və logistika məsələlərinin təşkili, təhlükəsizlik tədbirlərinin təmin edilməsi, eləcə də müxtəlif dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətində xeyli iş görüldü. Konfransın yüksək səviyyədə təşkili Azərbaycanın idarəçilik təcrübəsini, təşkilati imkanlarını və beynəlxalq tədbirlərin keçirilməsi sahəsində potensialını nümayiş etdirdi.

Bakıda keçirilən qlobal tədbirin əhəmiyyəti, sadəcə, təşkilati məsələlərlə bitmədi. Dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət nümayəndələrinin, beynəlxalq təşkilatların, ekspertlərin və vətəndaş cəmiyyəti təmsilçilərinin Bakıda bir araya gəlməsi qlobal problemlərin müzakirəsi və dialoqun inkişafı üçün geniş imkanlar yaratdı. Fərqli maraqların toqquşduğu iqlim danışıqlarında ortaq mövqelərin tapılması Azərbaycanın dialoq və əməkdaşlıq üçün yaratdığı şəraitin nəticəsi idi.

Tədbirin mühüm nəticələrindən biri iqlim maliyyələşməsi ilə bağlı yeni hədəfin müəyyənləşdirilməsi oldu. Danışıqlar nəticəsində inkişaf etməkdə olan ölkələrə 2035-ci ilədək hər il ən azı 300 milyard dollar iqlim maliyyəsinin ayrılması barədə razılıq əldə edildi. Eyni zamanda bütün mənbələr hesabına iqlim maliyyəsinin illik 1,3 trilyon dollara çatdırılması istiqamətində səylərin artırılması razılaşdırıldı. Bununla yanaşı, Paris Sazişinin 6-cı maddəsi üzrə razılaşmanın əldə olunması karbon bazarlarının fəaliyyətinin tənzimlənməsi baxımından mühüm irəliləyiş kimi dünyanın diqqətini çəkdi. Bu qərarlar COP29-un beynəlxalq iqlim siyasətində önəmli nəticələrlə yadda qalmasını təmin etdi.

COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq tədbirlərin təşkili sahəsində təcrübəsinin genişlənməsinə, dövlət qurumları arasında koordinasiyanın və idarəçilik imkanlarının inkişafına şərait yaratdı. Eyni zamanda tədbir Azərbaycanın qlobal məsələlərin müzakirəsində fəal iştirakını və beynəlxalq təşəbbüslərdə rolunu nümayiş etdirdi. Əldə olunan təcrübənin əhəmiyyəti isə COP29-un nəticələrini ortaya qoymaqla yanaşı, sonrakı iqlim konfransları üçün də vacib zəmin yaratdı.

Bu kontekstdə 2025-ci ildə Braziliyada keçirilən COP30-un əhəmiyyətini qeyd etməsək olmaz. COP29-da əldə olunan iqlim maliyyələşməsi razılaşmasının davamı olaraq, Azərbaycan və Braziliya sədrliklərinin birgə hazırladığı "Bakıdan Belləmə 1,3 trilyon dollar" yol xəritəsi təqdim edildi. Sənəd inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyəsinin 2035-ci ilədək illik 1,3 trilyon dollara çatdırılması istiqamətində konkret fəaliyyət yollarını müəyyənləşdirdi. Beləliklə də Bakıda müəyyənləşdirilən hədəflər Beləmdə daha geniş fəaliyyət gündəliyinə çevrildi. COP30-da diqqətin əldə olunan razılaşmaların icrasına və maliyyə imkanlarının səfərbər edilməsinə yönəldilməsi prosesin davamlılığını göstərdi.

Hazırda Türkiyənin evsahibliyi etdiyi COP31 isə bu ardıcıllığın növbəti mərhələsidir. Tədbirin diqqətçəkən xüsusiyyətlərindən biri onun fərqli idarəçilik və əməkdaşlıq modeli ilə keçirilməsidir. Belə ki, Türkiyə konfransa evsahibliyi və sədrlik edir, Avstraliya isə hökumətlərarası rəsmi iqlim danışıqlarını həyata keçirir. Bu yanaşma beynəlxalq əməkdaşlığın yeni forması kimi diqqət çəkir. Eyni zamanda COP31-ə hazırlıq prosesində Azərbaycan, Braziliya və Türkiyənin əvvəlki sədrliklər dövründə qazandıqları təcrübəni birləşdirərək əməkdaşlıq etməsi COP-lar arasında əməkdaşlığın davamına xidmət edir.

Ötən il olduğu kimi, bu gün də ölkəmiz əvvəlki COP sədrliklərinin təcrübəsini birləşdirən əməkdaşlıq mexanizminin iştirakçısı olaraq, qlobal iqlim gündəliyinin reallaşmasına dəstək göstərir. COP29 zamanı müəyyənləşdirilən prioritetlərin, xüsusilə iqlim maliyyələşməsi üzrə hədəflərin sonrakı konfranslarda da diqqət mərkəzində saxlanılması Azərbaycanın başladığı təşəbbüslərin davam etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Göründüyü kimi, COP29-un ən əhəmiyyətli tərəflərindən biri sonrakı konfranslar üçün yaratdığı təcrübə, əməkdaşlıq imkanları və davamlılıq modelidir. Bakıdan Belləmə, oradan isə Antalyaya uzanan bu proses göstərir ki, beynəlxalq iqlim əməkdaşlığı ayrı-ayrı tədbirlərlə sona çatmır, ardıcıl fəaliyyət və ortaq məsuliyyət əsasında inkişaf edir. Bu baxımdan, COP29 Azərbaycanın təşkilatçılıq və diplomatik potensialını nümayiş etdirməklə yanaşı, gələcək beynəlxalq iqlim prosesləri üçün də mühüm təcrübə nümunəsi kimi qiymətləndirilə bilər.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Ukrayna mediası Azərbaycan və Ukrayna prezidentlərinin görüşünə geniş yer ayırıb

Ukraynanın aparıcı kütləvi informasiya vasitələri Dublində Avropa Siyasi Sammiti çərçivəsində Azərbaycan və Ukrayna prezidentləri İlham Əliyev ilə Volodimir Zelenski arasında keçirilən görüşə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, "Ukrinform", "RBK-Ukrayna", "İnterfaks-Ukrayna", "Tsensor", "Korespondent", "Tribuna" və digər informasiya agentlikləri, xəbər portallarında dərc edilən məqalələrdə Azərbaycan və Ukrayna əməkdaşlığının əhəmiyyəti vurğulanıb. Qeyd edilib ki, görüşdə Ukraynanın vacib infrastruktur və logistika sahələrinin dəstəklənməsi imkanları müzakirə edilib. Ukraynada Azərbaycan biznəslərinin mövcudluğu, Rusiyanın hücumlarına baxmayaraq, Azərbaycan şirkətlərinin fəaliyyəti yüksək qiymətləndirilib. Məqalələrdə həmçinin qeyd edilib ki, görüşdə müharibə dönəmində Ukraynanın enerji və nəqliyyat sistemlərində üzləşdiyi çətinliklər müzakirə edilib. Zelenskinin göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkürü vurğulanıb.

Leyla Əliyeva COP31 çərçivəsində şəhərlərdə havanın keyfiyyətinin yaxşılaşdırılmasına dair müzakirələrdə iştirak edib





IDEA İctimai Birliyi və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) tərəfdaşlığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində "Təmiz hava, sağlam şəhərlər: Şəhərsalmadan iqlim fəaliyyətinə" mövzusunda tədbir təşkil edilib.



AZƏRTAC xəbər verir ki, ilk olaraq iştirakçılara şəhər mühitində təmiz havanın vacibliyinə həsr olunmuş IDEA tərəfindən hazırlanmış qısametrajlı sənədli film nümayiş olunub.

Tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva hava çirklənməsinin insan sağlamlığına təsirlərindən bəhs edərək, daha sağlam və dayanıqlı şəhərlərin formalaşdırılmasında ekoloji amillərin nəzərə alınmasının vacibliyini vurğulayıb.

Leyla Əliyeva Azərbaycanın dayanıqlı şəhərsalma təcrübəsi, eləcə də yaşıllıq sahələrinin genişləndirilməsi və ekoloji cəhətdən təmiz nəqliyyatın təşviqi istiqamətində həyata keçirilən tədbirlərə toxunub. O, həmçinin IDEA İctimai Birliyinin "Bizim həyət" layihəsi, ağacəkmə aksiyaları və şəhər mühitinin yaşıllaşdırılmasına yönəlmiş digər təşəbbüslərinin rolunu qeyd edib.

COP29-un Prezidenti, Azərbaycan Respublikasının Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev tədbirdə çıxış edərək, havanın keyfiyyətinin yaxşılaşdırılması ilə iqlim dəyişmələrinə qarşı mübarizə tədbirlərinin qarşılıqlı əlaqəsini vurğulayıb. O, şəhərlərdə zərərli tullantıların azaldılması, dayanıqlı nəqliyyat sistemlərinin inkişafı və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib.

Tədbirin rəsmi hissəsində çıxış edən BMT-nin Məskunlaşma Proqramının Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisinin direktoru Erfan Ali havanın keyfiyyətinin monitorinqi, atmosferə zərərli tullantıların azaldılması, şəhərlərin ekoloji idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq təcrübənin tətbiqi məsələlərinə xüsusi diqqət yetirib.

Daha sonra tədbir panel müzakirəsi ilə davam edib. Böyük Britaniyanın Lordlar Palatasının və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Patricia Scotlandın moderatorluğu ilə keçirilən paneldə Kopenhagen Universitetinin nümayəndəsi, iqlim və sağlamlıq məsələləri üzrə ekspert Robb Butler, Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişmələri Nazirliyi yanında İqlim Dəyişmələri üzrə Milli Mərkəzin direktor müavini Timur Sabitov, eləcə də BMT-nin Ətraf Mühit Proqramının (UNEP) hava keyfiyyətinin tənzimlənməsi və idarə olunması üzrə hüquq mütəxəssisi Renee Gift iştirak ediblər.

Panel çərçivəsində hava çirklənməsinin azaldılması, ekoloji cəhətdən təmiz nəqliyyat sistemlərinin inkişafı, "yaşıl infrastruktur"un şəhərsalma proseslərinə inteqrasiyası və iqlim dəyişmələri ilə mübarizə tədbirlərinin insan sağlamlığına müsbət təsirləri ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə havanın keyfiyyətinin yaxşılaşdırılması və daha sağlam şəhər mühitinin yaradılması üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsinin, dayanıqlı şəhərsalma prinsiplərinin tətbiqinin və iqlim siyasəti ilə ictimai sağlamlıq tədbirlərinin əlaqələndirilməsinin vacibliyi vurğulanıb.

COP31 çərçivəsində Sıfır Tullantı Muzeyinin açılışı olub













Türkiyənin Antalya şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində noyabrın 12-də Sıfır Tullantı Muzeyinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alyona Əliyeva, COP31-də iştirak edən dövlət və hökumət başçılarının xanımları, beynəlxalq təşkilatların nümayəndələri, eləcə də BMT-nin Sıfır Tullantı üzrə Yüksək Səviyyəli Şəxslər Məsləhət Şurasının üzvləri açılış mərasimində iştirak ediblər.

Muzeyin açılışını bildirən lent tədbir iştirakçılarının iştirakı ilə kəsilib.

Türkiyənin Sıfır Tullantı Fondu tərəfindən COP31 çərçivəsində yaradılan muzey 2017-ci ildə əsası qoyulan Sıfır Tullantı Layihəsinin milli və beynəlxalq miqyasda inkişaf yolunu əks etdirir. Muzeyin əsas məqsədi gündəlik həyatda istifadə olunan əşyaların ömrünün uzadılması, təbii ehtiyatların qorunması və tullantıların azaldılması istiqamətlərində ictimai maarifləndirməni gücləndirməkdir.

Qeyd edək ki, muzeydə təqdim olunan təcrübənin beynəlxalq miqyasda təbliği və müxtəlif ölkələrdə sıfır tullantı yanaşmasının təşviqinə töhfə verməsi nəzərdə tutulur.

Bakı Media Mərkəzinin "Sükut içində addımlar" filminin təqdimatı olub

Filmin təqdimatında Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva iştirak edib

Noyabrın 12-də Nizami Kino Mərkəzində Bakı Media Mərkəzinin istehsalı olan "Sükut içində addımlar" tammetrajlı sənədli filminin təqdimat mərasimi keçirilib.











AZƏRTAC xəbər verir ki, tədbirdə Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, dövlət və hökumət rəsmiləri, mədəniyyət xadimləri və filmin yaradıcı heyəti iştirak ediblər.

Qonaqlar əvvəlcə filmin mövzusunu, minatəmizləmə fəaliyyətini və bu sahədə çalışan qadınların gündəlik həyatını əks etdirən sərgi ilə tanış olublar.

Filmin nümayişindən əvvəl çıxış edən hərbi jurnalist Heydər Mirzə mina təhlükəsinin Azərbaycanın üzləşdiyi ən ciddi humanitar problemlərdən biri olduğunu vurğulayıb. O, işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinin əhəmiyyətindən, bu prosesdə iştirak edən insanların həyata keçirdikləri missiyadan danışıb.

Qeyd olunub ki, 2021-ci ildə AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və Azərbaycan Televiziyasının (AzTV) operatoru Sirac Abışov Kəlbəcərdə xidməti vəzifələrini yerinə yetirərkən mina partlayışı nəticəsində şəhid olublar. Bu faciə mina təhlükəsinin hərbçilər, mülki şəxslər və jurnalistlər üçün nə dərəcədə ciddi təhdid yaratdığını bir daha nümayiş etdirib.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov çıxışında bildirib ki, 2020-ci ilin noyabrından indiyədək Azərbaycanda 444 nəfər mina qurbanı olub, onlardan 73-ü həyatını itirib. O qeyd edib ki, aparılan təhlillərə əsasən, mina hadisələrinin təxminən 60 faizi keçmiş təmas xəttindən içəridə baş verib. Bu fakt işğaldan azad edilmiş ərazilərin nizamsız şəkildə minalandığını göstərir.

Vüqar Süleymanovun sözlərinə görə, hazırda azad edilmiş ərazilərin 11 min 667 kvadratkilometri mina və digər partlayıcı sursatlarla çirklənmə baxımından şübhəli ərazilər kateqoriyasına daxildir. Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Umud Mirzəyev çıxışında filmin mina probleminin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından əhəmiyyətini vurğulayıb. O diqqətə çatdırıb ki, işğaldan azad edilmiş ərazilərdəki mövcud mina təhlükəsi yalnız Azərbaycanın deyil, bütövlükdə beynəlxalq ictimaiyyətin diqqətində qalmalı olan ciddi humanitar problemdir. Belə ekran əsərləri həm bu təhlükənin miqyasını göstərir, həm də mina təmizləyən insanların, xüsusilə qadınların fədakarlığını və gündəlik mübarizəsini geniş auditoriyaya çatdırır. Sonra qonaqlar "Sükut içində addımlar" tammetrajlı sənədli filmini izləyiblər.

Filmin qəhrəmanları tamamilə qadınlardan ibarət xüsusi minaaxtaran qrupdur. Kamera davamlı olaraq bu qadınların həyatını izləyir və göstərir ki, onlar nə qədər təhlükəli, riskli bir işlə məşğul olsalar da, evdə hər şeyi unudub bir ana, bir həyat yoldaşı kimi sevdiklərinin yanında olurlar.

Ekran əsərinin artıq ilk uğurları da var. Avropanın ən qədim kino tədbirlərindən biri sayılan 66-cı Krakov Film Festivalının müsabiqəsində filmin ilk dünya premyerası keçirilib. Burada film "Ən yaxşı təsvir həlli" mükafatına layiq görülüb.

Film sənədli filmlər və kitablar üzrə ixtisaslaşmış, Avropa mərkəzli rəqəmsal və çap jurnalı "Modern Times Review" platformasında da yer alıb. Xarici auditoriya bu beynəlxalq platformadan da film haqqında ətraflı məlumat ala bilər. Bununla yanaşı, ekran əsəri Polşanın Qdınya şəhərində keçirilən və Avropanın nüfuzlu kino platformalarından biri olan NNW Beynəlxalq Film Festivalında "Münsiflər heyətinin xüsusi qeydi" mükafatı ilə təltif edilib, Rumıniyada keçirilmiş "Astra Film Festivalı"nda beynəlxalq ictimaiyyətə təqdim olunub.

Bu uğurlar "Sükut içində addımlar"ın ("Steps in Silence") davamlı şəkildə beynəlxalq auditoriya qarşısına çıxmasına və filmdə əks olunan mühüm hekayənin daha geniş coğrafiyada izləyicilərə çatmasına yeni imkanlar yaradır. Nizami Kino Mərkəzindəki təqdimat zamanı film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Sonda filmin yaradıcı heyəti səhnəyə dəvət olunub. Filmin ssenari müəllifi Fariz Əhmədov və quruluşçu operatoru Mateuş Çuxnovski çıxışlarında ekran əsərinin ərsəyə gəlməsinə göstərdiyi dəstəyə görə baş prodüser, Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva başda olmaqla, layihənin reallaşmasında əməyi keçən hər kəsə təşəkkürlərini bildiriblər. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, ARKA və Polşa Kino İnstitutunun maliyyə dəstəyi ilə Bakı Media Mərkəzi, "Drygas Film Production" və Polşa Televiziyası (TVP) tərəfindən birgə istehsal olunan filmin baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, həmprodüseri Vita Jelakeviçut (Polşa), prodüseri Orman Əliyev, ssenari müəllifləri Fariz Əhmədov və İsmayıl İman, quruluşçu operatoru Mateuş Çuxnovski, redaktoru Rasim İsmayılov, kreativ prodüserləri isə Maçey Driqas (Polşa) və Tahir Əliyevdir.

Xatırladaq ki, Azərbaycan tarixini yaşatmaq, həqiqətləri olduğu kimi çatdırmaq yarandığı ilk gündən Bakı Media Mərkəzi üçün böyük önəm daşıyır. Mərkəz bu müddət ərzində ölkəmizin ən müxtəlif tarixi dövrlərini özündə əks etdirən "Hədəf Bakıdır", "Miras", "Son iclas", "Əbədi ezamiyyət", "Biz" və "Şuşa, sən azadsan!", "Tağıyev" kimi ictimaiyyət tərəfindən geniş marağa səbəb olan filmlər istehsal edib.

"Sükut içində addımlar" filminin treylerini aşağıdakı linkdən izləmək olar: https://www.youtube.com/watch?v=EE9l5z_QahQ

"Azərbaycan COP29-a sədrliyi dövründə inklüziv prosesin irəliləməsini təmin edib"

"Azərbaycan COP29-a sədrliyi dövründə inklüziv prosesin irəliləməsini təmin edib, qəbul olunmuş tarixi Bakı Maliyyə Hədəfi isə qlobal iqlim fəaliyyəti üçün mühüm təməl yaradıb. Ölkəmizin bu istiqamətdəki fəaliyyəti COP29-dan sonra da davam edib. Belə ki, Braziliya ilə birgə 2035-ci ilədək iqlim maliyyələşdirilməsinin illik 1,3 trilyon ABŞ dollarına çatdırılması yollarını müəyyən edən "Bakıdan Belemə 1,3 trilyonluq Yol Xəritəsi" hazırlanıb. Eyni zamanda COP Sədrlikləri Üçlüyü çərçivəsində Birləşmiş Ərəb Əmirlikləri və Braziliya ilə "1,5C Missiyasına doğru Yol Xəritəsi", Avstraliya, Braziliya və Türkiyə ilə birlikdə isə "Belem 1,5C Missiyası" həyata keçirilib. Bundan əlavə, Bakıda təşkil olunan 13-cü Ümumdünya Şəhərsalma Forumu və 140-dan çox ölkədən nümayəndələrin qatıldığı BMT-nin İqlim Həftəsi Azərbaycanın çoxtərəfli əməkdaşlığa və qlobal iqlim gündəliyinə sadiqliyini bir daha nümayiş etdirib".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyədə keçirilən COP31 sessiyasında çıxışı zamanı **Azərbaycan Respublikası Baş nazirinin müavini Teymur MUSAYEV** səsləndirib.

Baş nazirin müavini qardaş ölkənin dialoq, konsensus və qərarların icrasına yönəlmiş sədrliyini yüksək qiymətləndirib. Teymur Musayev Azərbaycanın ölkə daxilində atdığı konkret addımlara da diqqət çəkib. Qeyd olunub ki, üçüncü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr çərçivəsində istixana qazı emissiyalarının 40 faiz azaldılması hədəfinin icra müddəti 15 il irəli çəkilərək 2035-ci ilə müəyyən edilib. Bu yaxınlarda təqdim olunan Uzunmüddətli Aşağı Emissiyalı İnkişaf Strategiyası isə 2060-cı ilədək xalis sıfır emissiya səviyyəsinə çatmağı hədəfləyir. Hazırda ölkəmiz Paris Sazişinin şəffaflıq prinsiplərinə uyğun olaraq ikinci Şəffaflıq Hesabatını müəyyən edilmiş vaxtdan əvvəl təqdim etməyə hazırlaşır.

Enerji keçidinin Azərbaycanın iqlim siyasətinin əsas istiqaməti olduğunu deyən Teymur Musayev ölkədə bərpaolunan enerji üzrə quraşdırılan istehsal gücünün 2,17 giqavata - ümumi elektrik enerjisi gücünün 21,5 faizə çatdığını bildirib. İmzalanmış sazişlərə əsasən, 2030-cu ilədək əlavə olaraq 6 giqavat günəş və külək enerjisi gücünün yaradılması nəzərdə tutulur ki, bu da qlobal bərpaolunan enerji hədəflərinin üstələnməsi istiqamətində mühüm irəliləyişdir. Paralel olaraq metan emissiyalarının azaldılması, sənayedə enerji səmərəliliyi, ekoloji təmiz nəqliyyat və tullantıların dayanıqlı idarə olunması üzrə tədbirlər davam etdirilir.

Son dövrlərdə baş verən iqlim fəlakətlərinin insanların həyatına birbaşa təsir göstərdiyini xatırladan Baş nazirin müavini inkişaf etməkdə olan ölkələrin maliyyə resurslarına və texnologiyalara çıxışının vacibliyinə toxunub. Vurğulayıb ki, mövcud öhdəliklər yerinə yetirilmədən daha iddialı hədəflərə çağırışların edilməsi çoxtərəfli iqlim prosesinə olan etimadı zəiflədə bilər. Buna görə də əsas prioritet Bakı Maliyyə Hədəfi başda olmaqla, qəbul edilmiş qərarların tam həcmdə icrası olmalıdır.

Çıxışının sonunda Teymur Musayev Türkiyənin COP31 Sədrliyinin öhdəliklərdən real nəticələrə keçid üçün mühüm imkan yaratdığını bildirib, Azərbaycanın Bakı və Belem proseslərinin irsinə əsaslanaraq qardaş Türkiyə və bütün tərəflərlə sıx əməkdaşlığa hazır olduğunu bəyan edib.

Nazir Vilayət Eyvazov Gəncə şəhərində növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri Vilayət Eyvazov noyabrın 11-də və 12-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.





Nazir əvvəlcə Gəncə şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib. Sonra Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Naftalan, Samux, Göygöl, Goranboy, Daşkəsən, Kəlbəcər şəhər və rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 379 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində nazir V.Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib. Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 461 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

"Azərbaycan"

"Buzlaqların əriməsi milyardlarla insanın su təhlükəsizliyini təhdid edir"

"Qlobal iqlim dəyişmələrinin dağ ekosistemlərinə və buzlaqlara təsiri məsələləri beynəlxalq müstəvidə diqqət mərkəzində qalmaqdadır. Buzlaqların sürətlə əriməsi milyardlarla insanın su təhlükəsizliyini birbaşa təhdid edir."

Bu barədə "Buzlaqlarla əlaqədar uyğunlaşma, azaltma, itki və zərər, onların monitorinqinin maliyyələşdirilməsi" mövzusundakı yüksəksəviyyəli tədbirdə çıxış edən **Baş nazirin müavini Teymur MUSAYEV** deyib.

O qeyd edib ki, əsrlər boyu dağ icmaları təbiətlə tarazlıq şəraitində yaşayaraq aşağı axınlarda məskunlaşan milyardlarla insanın su təminatında mühüm rol oynayıb. Lakin hazırda bu tarazlıq pozulur, permafrostun əriməsi, torpaq sürüşmələri və dağıdıcı daşqınlar daha tez-tez baş verir. Azərbaycan da məhz bu reallığı nəzərə alaraq, COP29-a sədrliyi dövründə dağlıq regionların üzləşdiyi problemləri əsas prioritetlərindən birinə çevirib. Bakıda keçirilən Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində Qırğızıstan və Monqolustanla birgə dağ gündəliyinin irəli aparılması istiqamətində mühüm addımlar atılıb, UNFCCC çərçivəsində dağ ekosistemlərinin qorunması məsələsi qlobal müzakirələr müstəvisinə çıxarılıb.

Teymur Musayev çıxışında elmi müşahidələrin nəticələrinə və statistik göstəricilərə də diqqət çəkib. Qeyd edib ki, Qafqaz dağları Azərbaycan üçün həyati əhəmiyyət daşıyan su mənbələridir. Qusarçay hövzəsində buzlaqlarla bağlı ilk rəsmi məlumatlar 1890-cı ilə aiddir. Son illərdə aparılan sahə müşahidələri isə buzlaqların əriмə prosesinin əhəmiyyətli dərəcədə sürətləndiyini göstərir. "Azərkosmos"un peyk müşahidələrinin nəticələrinə əsasən, 2017-2025-ci illərdə Böyük Qafqazın Azərbaycan hissəsində buzlaqların sahəsi 9 faiz azalıb. Bundan əlavə, Qusarçay hövzəsində son 19 il ərzində aparılan ardıcıl tədqiqatlar qar örtüyünün su ehtiyatlarının formalaşmasındakı payının azalma tendensiyasını üzə çıxarıb. Bu göstəricilər iqlim dəyişmələrinin yaratdığı fəsadları aydın şəkildə nümayiş etdirir.

Azərbaycanın COP29 çərçivəsində həyata keçirdiyi təşəbbüslərə toxunan Baş nazirin müavini 70-dən çox ölkənin və təqribən 100 maraqlı tərəfin dəstəyi ilə qəbul edilmiş "İqlim Fəaliyyəti üçün Su üzrə COP29 Bəyannaməsi"nin və "Su üzrə Bakı Dialoqu"nun əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, bu platformalar dağ ekosistemlərinin və buzlaqların qorunması istiqamətində davamlı və əlaqələndirilmiş addımların atılmasına şərait yaradır.

Sonda Teymur Musayev yalnız elmi biliklərin və monitorinqlərin kifayət etmədiyini, bu proseslərin adekvat və uzunmüddətli iqlim maliyyələşməsi ilə dəstəklənməli olduğunu diqqətə çatdırıb. Bakı Maliyyə Məqsədinin icrasının, erkən xəbərdarlıq sistemlərinin və peyk texnologiyalarının tətbiqinin vacibliyini vurğulayan Baş nazirin müavini beynəlxalq birliyi dağ ekosistemlərinin qorunması və gələcək nəsillər üçün ekoloji dayanıqlılığın təmin edilməsi naminə sıx əməkdaşlığa çağırıb.

TÜRKPA-nın gənc parlamentariləri Ankarada toplaşıblar



Noyabrın 12-də Türkiyənin paytaxtı Ankarada TÜRKPA Gənc Parlamentarilərinin toplantısı keçirilib. TÜRKPA-dan AZƏRTAC-a bildirilib ki, tədbir Türkiyə Böyük Millət Məclisinin evsahibliyi, Xaricdəki Türklər və Qohum İcmalar Baş İdarəsinin dəstəyi ilə təşkil edilib.

Açılış mərasimində çıxış edən **Türkiyə Böyük Millət Məclisinin sədri Numan KURTULMUŞ** TÜRKPA-nın təsis edilməsinin 18-ci ildönümü ərəfəsində belə mühüm bir tədbirin keçirilməsinin əhəmiyyətinə toxunub. O, türk dövlətlərinin parlamentləri arasında əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoymasında, qardaş ölkələr arasındakı münasibətlərin dinamik şəkildə möhkəmləndirilməsində və müxtəlif istiqamətlərdə birgə fəaliyyətin həyata keçirilməsində TÜRKPA-nın mühüm rolunu qeyd edib.

TÜRKPA-nın baş katibi Ramil Həsən rəhbərlik etdiyi qurumun müxtəlif sahələrdə həyata keçirdiyi işlərdən danışıb. Baş katib Gənc Parlamentarilər Qrupu, Qadın Parlamentarilər Qrupu və Daimi Komissiyalar çərçivəsində müxtəlif tədbirlərin keçirilməsinin qardaş ölkələr arasındakı əlaqələrin möhkəmləndirilməsinə, eləcə də qanunvericilik bazalarının yaxınlaşdırılmasına töhfə verdiyini deyib. Xaricdəki Türklər və Qohum İcmalar Baş İdarəsinin sədri Abdulhadi Turus Türkiyənin bir çox sahədə olduğu kimi, qardaş türk dövlətlər arasındakı əlaqələrin inkişafına xidmət edən layihələrə də hərtərəfli dəstək göstərdiyini diqqətə çatdırıb. Eyni zamanda TÜRKPA-nın Gənc Parlamentarilər Qrupunun fəaliyyətinə də dəstək verməkdən böyük məmnuniyyət duyduğunu ifadə edib.

Dublindən Bakıya uzanan siyasi-diplomatik xətt



Müasir beynəlxalq münasibətlər sistemi fundamental transformasiya mərhələsindən keçir. Qlobal güc mərkəzləri arasında rəqabətin kəskinləşməsi, mövcud təhlükəsizlik mexanizmlərinin effektivliyinin azalması, beynəlxalq iqtisadi münasibətlərdə yeni qarşılıqlı asılılıq modellərinin formalaşması, enerji və nəqliyyat-kommunikasiya marşrutlarının geosiyasi əhəmiyyətinin artması dövlətlərin beynəlxalq sistemdəki mövqeyinə yenidən baxılmasını şərtləndirir. Bu proseslər fonunda Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan roluna xüsusi diqqət yetirmək zəruridir. Ölkəmizin son illərdə əldə etdiyi diplomatik nailiyyətlər, müxtəlif beynəlxalq təşkilatlarda və çoxtərəfli əməkdaşlıq platformalarında mövqelərinin möhkəmlənməsi, strateji tərəfdaşlıqlarının coğrafiyasının genişlənməsi, enerji və nəqliyyat təhlükəsizliyində artan əhəmiyyətli rolu bir-birindən təcrid olunmuş hadisələr deyil. Bunlar Azərbaycanın müstəqillik prinsiplərinə, milli maraqlara, qarşılıqlı faydalı əməkdaşlığa və geosiyasi reallıqların düzgün qiymətləndirilməsinə əsaslanan xarici siyasət strategiyasının müxtəlif istiqamətlərdə əldə etdiyi nəticələrdir.

Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ qəzetimizə açıqlamasında dedi ki, Azərbaycan beynəlxalq münasibətlər sistemində öz mövqeyini yalnız coğrafi yerləşməsi, enerji resursları və ya regional imkanları hesabına möhkəmləndirməyib. Ölkəmiz bu üstünlükləri ardıcıl siyasi fəaliyyət, iqtisadi investisiyalar, infrastruktur layihələri və fəal diplomatiya vasitəsilə real geosiyasi təsir imkanlarına çevirə bilib. "Bu baxımdan bu il Dublində keçirilən "Avropa Siyasi Birliyi"nin doqquzuncu sammiti və Azərbaycanın 2028-ci ildə bu platformanın on ikinci sammitinə evsahibliyi edəcək olması daha geniş geosiyasi kontekstdə nəzərdən keçirilməlidir. Avropa ilə əməkdaşlıq, türk dünyasında inteqrasiya proseslərində fəal iştirak, Asiya dövlətləri ilə siyasi və iqtisadi əlaqələrin genişləndirilməsi, islam dünyası ilə həmrəyliyin möhkəmləndirilməsi, ABŞ, Çin və digər qlobal güc mərkəzləri ilə strateji tərəfdaşlıq münasibətlərinin inkişafı vahid xarici siyasət konsepsiyasının müxtəlif istiqamətləridir. Bu yanaşmanın mahiyyəti hər hansı geosiyasi güc mərkəzinin təsir dairəsinə daxil olmaq deyil, müxtəlif tərəfdaşlarla münasibətləri milli maraqlar əsasında inkişaf etdirmək və müstəqil qərarvermə imkanlarını qorumaqdır. Müasir beynəlxalq münasibətlərdə belə siyasətin əhəmiyyəti xüsusilə artır. Çünki qlobal rəqabətin dərinləşdiyi şəraitdə dövlətlərin xarici siyasət imkanları onların yalnız ayrı-ayrı güc mərkəzləri ilə münasibətlərindən deyil, alternativ əməkdaşlıq imkanlarının genişliyindən də asılıdır", - deyə o bildirdi.

Deputat qeyd etdi ki, Azərbaycanın bu istiqamətdə əldə etdiyi nəticələr diqqətəlayiqdir. 2025-ci ildə Çinlə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin, ABŞ ilə isə Strateji Xartiyanın imzalanması ölkəmizin iki qlobal güc mərkəzi ilə münasibətlərində yeni mərhələnin başlanğıcını ifadə edir. Avropa İttifaqının on üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamə və ya sazişlərin mövcudluğu Azərbaycanın Avropa istiqamətində əməkdaşlığının geniş coğrafiyasını nümayiş etdirir və burada mühüm məqam ondan ibarətdir ki, çoxvektorlu siyasət, sadəcə, coğrafi diversifikasiya deyil, bu, Azərbaycanın beynəlxalq münasibətlərdə öz siyasi iradəsini qorumaq və müxtəlif tərəfdaşlarla münasibətlərini bərabərhüquqlu əməkdaşlıq prinsipləri əsasında qurmaq imkanlarının genişlənməsidir.

Elçin Mirzəbəyli dedi ki, 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin sammiti Bakıda keçiriləcək. Bu, Azərbaycanın diplomatik fəaliyyətinin coğrafi əhatəsini daha aydın nümayiş etdirir: "Azərbaycan bu platformalarda təşəbbüslərlə çıxış edir, gündəliyin formalaşmasında iştirak edir, siyasi dialoqun təşkilinə töhfə verir və öz milli maraqlarını beynəlxalq müzakirələrə çıxarır. Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolunun mühüm istiqamətlərindən biri də ölkəmizin enerji diplomatiyasıdır. Son illərdə enerji təhlükəsizliyi məsələsi Avropanın siyasi və iqtisadi gündəliyində fundamental yer tutmağa başlayıb. Enerji təchizatının etibarlılığı, mənbələrin və marşrutların diversifikasiyası, qiymət sabitliyi və infrastrukturun təhlükəsizliyi artıq yalnız iqtisadi məsələlər deyil, dövlətlərin milli təhlükəsizlik strategiyalarının tərkib hissəsidir. Azərbaycan bu proseslərdə mühüm tərəfdaşlardan biri kimi çıxış edir. Bu xüsusda, "Cənub qaz dəhlizi"nin yaradılmasını ölkəmizin enerji siyasətində strateji dönüş nöqtəsi hesab etmək olar. Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələrini birləşdirən, təxminən 3500 kilometr uzunluğunda olan bu infrastruktur Xəzər hövzəsinin enerji resurslarının Avropa bazarlarına çatdırılması üçün alternativ və təhlükəsiz marşrut formalaşdırıb. "Cənub qaz dəhlizi" Azərbaycanın beynəlxalq enerji sistemində iştirakını keyfiyyətcə dəyişdirərək, ölkəmizi Avropanın enerji təchizatının diversifikasiyasında nəzərə alınan strateji tərəfdaşa çevirib".

E.Mirzəbəyli qeyd etdi ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyinin getdikcə möhkəmlənməsini şərtləndirən əsas amillərdən biri də Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqlardır: "Uzun illər ərzində regionda mövcud olmuş münaqişə vəziyyəti Azərbaycanın iqtisadi və nəqliyyat potensialının tam reallaşdırılmasına maneələr yaradırdı. Ölkənin beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal altında saxlanılması regional təhlükəsizlik sisteminin formalaşmasına da ciddi təsir göstərirdi. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi isə regionda siyasi münasibətlərin əvvəlki məzmununu dəyişdirdi. Yeni reallıq Azərbaycanın regional təhlükəsizlik, kommunikasiya və iqtisadi əməkdaşlıq məsələlərində daha geniş təşəbbüslərlə çıxış etməsi üçün ciddi siyasi zəmin formalaşdırıb. Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəlilədilməsi istiqamətində fəaliyyəti də məhz bu kontekstdə qiymətləndirilməlidir. 2026-cı ilin mayında İrəvanda keçirilmiş "Avropa Siyasi Birliyi"nin səkkizinci sammitində Azərbaycan Prezidentinin videobağlantı vasitəsilə iştirakı və həmin platformada 2028-ci il sammitinin Bakıda keçirilməsi barədə dəvətin elan olunması xüsusi siyasi məna daşıyır. Bu qərarın qəbulunda Ermənistanın da Azərbaycanın namizədliyini dəstəkləməsi regional münasibətlərdə formalaşan yeni siyasi vəziyyətin əlamətdar göstəricilərindən biri kimi diqqət çəkir".

E.Mirzəbəyli hesab edir ki, Azərbaycanın qlobal müstəvidə mövqelərinin getdikcə gücləndiyini və dövlətimizin orta güc statusuna sahiblənməsi istiqamətində mühüm uğurlara imza atdığını daha aydın təsəvvür etmək üçün ölkəmizin 2026-2028-ci illərdə evsahibliyi edəcəyi beynəlxalq tədbirlərin siyasi əhəmiyyətini ayrıca nəzərdən keçirmək lazımdır. Çünki bu tədbirlər müxtəlif coğrafi və siyasi məkanları təmsil edən dövlətləri bir araya gətirir. 2026-cı ildə AQEM sammitinin keçirilməsi və təşkilata sədrliyin 2028-ci ilədək uzadılması, 2027-ci ildə İslam Əməkdaşlıq Təşkilatının XVI Zirvə Görüşünün Bakıda təşkili, 2028-ci ildə isə "Avropa Siyasi Birliyi"nin sammitinin ölkəmizdə keçirilməsi qərarı Azərbaycanın beynəlxalq diplomatik fəaliyyətinin genişliyini nümayiş etdirir. Bu ardıcıllığın xüsusi geosiyasi məntiqi var. Azərbaycan, eyni zamanda Avropa, Asiya və islam dünyasının siyasi dialoq məkanlarında təmsilçilik imkanlarını genişləndirir.

Deputat bildirdi ki, Azərbaycanın xarici siyasətinin mühüm və unikal bir xüsusiyyəti də diqqəti cəlb edir. Ölkəmiz müxtəlif geosiyasi mərkəzlər arasında seçim etmək məcburiyyətində qalmadan, öz milli maraqlarını əsas götürərək onların hər biri ilə əməkdaşlığı inkişaf etdirir. Bu, müasir beynəlxalq münasibətlərdə dövlətin strateji müstəqilliyini qoruması baxımından mühüm əhəmiyyət daşıyan bir siyasətdir.

E.Mirzəbəyli qeyd etdi ki, Azərbaycanın bugünkü geosiyasi mövqeyi əlverişli şəraitin deyil, uzunmüddətli strateji planlaşdırmanın, müstəqil siyasi iradənin, milli maraqlara əsaslanan xarici siyasətin və ardıcıl, sistemli, nəticəyönümlü diplomatik fəaliyyətin nəticəsidir: "Dublindən Bakıya uzanan siyasi-diplomatik xətt də bu reallığın mühüm təzahürlərindən biri sayıla bilər. 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin sammitinin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolunun, müxtəlif geosiyasi məkanlarla qurduğu əməkdaşlığın və qlobal siyasi dialoqda genişlənən iştirakının növbəti mərhələsini təşkil edəcək. Azərbaycanın son illərdə əldə etdiyi uğurların əsas siyasi mahiyyəti ölkəmizin öz coğrafiyasını geosiyasi üstünlüyə, iqtisadi potensialını beynəlxalq tərəfdaşlıq resursuna, diplomatik fəallığını siyasi nüfuza, müstəqil xarici siyasətini isə beynəlxalq münasibətlər sistemində real təsir imkanlarına çevirə bilmək bacarığındadır. Bu, ölkəmizin müasir dünya siyasətində tutduğu mövqenin yeni məzmununu və seçilmiş strateji kursun nəticələrini xarakterizə edən əsas göstərici kimi dəyərləndirilə bilər".

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

44 günün unudulmaz anları



Müzəffər Ali Baş Komandan İlham Əliyev uzun-uzadı müharibə aparmağı sevmir!

Biz bunu dördgünlük Aprel döyüşlərində də gördük, 44 günlük Vətən müharibəsində də!

İlham Əliyev müharibəyə məsuliyyətlə, hərtərəfli və tələsmədən hazırlaşır, bütün diqqəti və vəsaiti ordunun yüksəksəviyyəli hazırlığına, ən müasir silah-sursatla təminatına, şəxsi heyətin yüksək peşəkarlıq səviyyəsinə çatdırılmasına, əsgər və zabitlərin vətənpərvərlik ruhunda, yüksək mənəvi keyfiyyətlər əsasında tərbiyələndirilməsinə yönəldir.

Əsas diqqəti təlimlərə, gələcək döyüş məkanlarına uyğun şəraiti olan yerlərdə məşqlərə cəmləyir, taktiki gedişlərə üstünlük verir.

Bir neçə misal.

44 günlük Zəfər müharibəsindən sonra düşmən üçtərəfli Bəyanatda üzərinə götürdüyü bir neçə vacib bəndi yerinə yetirmək istəmədi.

İmzalanmış kapitulyasiya aktının sonadək icrasına sənədin zəmanətçisi olan Rusiya da soyuq yanaşdı.

Cənab İlham Əliyev isə öz mövqeyində qəti idi!

Sonrakı dövrlərdə ildırım sürətli əməliyyatlarla düşməni qoyulan şərtləri yerinə yetirməyə vadar etdi!

- Ermənistan Laçın dəhlizini öz nəzarətində saxlayaraq bu yolla silahlı qüvvələrinin tör-töküntülərini və terrorçu dəstələrini silah-sursatla və ərzaqla təmin edirdi.

Dəqiqələr ərzində həyata keçirilən unikal əməliyyat nəticəsində Həkəri çayı üzərindəki körpüdə yerləşən düşmən postu ələ keçirildi.

Rusiya sülhməramlılarının müdaxiləsinə imkan verilmədi, Laçın dəhlizinə nəzarət ələ alınaraq ölkənin ərazi bütövlüyü təmin edildi!

2023-cü ilin digər əməliyyatı da bir sutka çəkmədi.

- Cəmi 23 saat ərzində erməni terrorçuları və silahlıları ağ bayraq qaldıraraq təslim olduqlarını bildirdilər.

Beləliklə, ölkənin Dövlət suverenliyinə və Konstitusiya əsaslarının təmininə də nail olundu.

Dostlarının və havadarlarının köməyinə arxalanan və dəstəyindən istifadə edən haylar işğal müddətində yerli relyefin yaratdığı imkanlardan istifadə etməklə altıqat müdafiə xətti qurmuş, gücləndirilmiş atəş nöqtələri yaratmış, beton bunkerlər tikmişdilər.

Belə bir vəziyyətdə və dağlıq şəraitdə hərbi əməliyyatların aylarla və ya illərlə davam etməsi bizə böyük itkilərlə başa gələrdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün bunları yüksək dəqiqliyi ilə hesablamışdı.

Ən böyük əraziyə malik, ən güclü müdafiə istehkamları qurulmuş və dağlıq ərazidə əlverişli mövqedə olan Ağdam, Laçın və Kəlbəcər rayonları qış ayları başlamamış və bircə güllə belə atılmadan geri qaytarıldı!

Nəticədə yüzlərlə əsgərin həyatı qorunmuş oldu.

İlham Əliyevin sərkərdəliyi və hərbi məharəti sayəsində cəmi 44 gündə otuzillik işğala son qoyuldu, müharibələr tarixinə yeni səhifə yazan Azərbaycan Ordusunun tətbiq etdiyi yeni taktika və strategiya sayəsində Ermənistanın havadarlarının istəyi əleyhinə olaraq hərbi əməliyyatlar ildırım sürətilə yekunlaşdı!

XXI əsrin ən yeni müharibəsi həm də unudulmaz anlarla, əsrlər boyu xatirələrdə yaşayacaq məqamlarla hərb tarixinə düşdü.

❖ ❖ ❖

Ulu Öndər Heydər Əliyevin və möhtərəm Prezident İlham Əliyevin Azərbaycanın kimsəyə bir qarış torpağını belə güzəştə getməyəcəyi, torpaqlarını işğaldan tamamilə azad edəcəyini və lazım gələrsə, münaqişənin hərbi yolla həllinə nail olunacağı barədə xəbərdarlıqları nə Ermənistana, nə də onların müdafiəçilərinə və havadarlarına əsər edirdi.

ÇÜNKİ:

- BMT-nin qətnamələri yerinə yetirilmir;
- ATŞPA və Avropa İttifaqı PA vaxtaşırı Azərbaycana təzyiq məqsədilə yalana əsaslanan qərəzli sənəd və bəyanatlar qəbul edir;
- ATƏT-in Minsk qrupu mənasız və nəticəsiz danışıqları uzatdıqca uzadır;
- ATƏT-in həmsədr dövlətləri işğalçı ilə işğala məruz qalan tərəflər arasında heç bir fərq qoymayaraq "siz aranızda hansı razılığa gəlsəniz, biz onu dəstəkləyəcəyik" kimi absurd fikirlər səsləndirir;
- Beynəlxalq hüquq ayaqlar altında tapdalanırdı.

Bütün bunlardan ruhlanan Ermənistanın yeni rəhbərliyi isə "Qarabağ Ermənistandır - nöqtə", "Yeni müharibə, yeni ərazilər olacaqdır" söyləməklə nəinki torpaqları könüllü geri qaytarmayacağını bildirir, üstəlik, bizi yeni işğalla hədələyirdi.

Bütün tərəflərin mövqeləri açıq və bəlli görünürdü:

- ATƏT-in Minsk qrupu münaqişəni sülh danışıqları yolu ilə həll etmək niyyətində deyil;
- Həmsədr dövlətlər erməni mövqeyini müdafiə edir;
- Ermənistan artıq Qarabağı və işğal etdiyi digər əraziləri özününkü sayır;
- Azərbaycan isə heç bir təsir, təhdid qarşısında geri çəkilməyərək öz torpaqlarını son qarışınadək azad edəcəyini qətiyyətlə söyləyirdi!

Həm də təkcə söyləmirdi...

2016-cı ilin dördgünlük Aprel döyüşlərində qüdrətli ordu qurduğunu və onun vasitəsilə uğurlu hərbi əməliyyatlar aparacağını əyani nümayiş etdirdi!

Ağlını itirmiş Ermənistan rəhbərliyi isə baş verənlərdən düzgün nəticə çıxarmaq əvəzinə Tovuz bölgəsində dalbadal təxribatlar törətməyə, Azərbaycanın ixrac boru kəmərlərini dağıdacağı ilə hədələməyə başladı.

Həm də hədəsini təxribatlarla gerçəkləşdirdi.

Artıq müharibə labüd görünürdü.

Belə də oldu.

27 sentyabr 2020-ci ildə Prezident İlham Əliyevin televiziya vasitəsilə xalqa ilk müraciəti səsləndi:

"Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb".

Cənab İlham Əliyev həmişə dediyini edib!

Hərbi əməliyyatların başladığı ilk gündə şəhid olanlarımız barəsində "Onların qanı yerdə qalmayacaqdır" söyləməsi 44 gün ərzində həyata keçirildi!

Təkcə torpaqlarımız azad edilmədi, hərb meydanında düşməndən qisasımız alındı, üstəlik, ərazilərimiz terrorçulardan və separatçılardan tamamilə təmizləndi!

❖ ❖ ❖

II Qarabağ müharibəsi əvvəldən axıradək üç cəbhədə davam etdi:

- Hərb meydanında;
- Diplomatiya sahəsində;
- İnformasiya savaşında.

Diplomatiya sahəsində baş verənlərdən yalnız dövlət başçısının söylədikləri əsasında xəbər tuturduqsa, hərb və informasiya meydanında gedən prosesləri KİV vasitəsilə aşkar izləyirdik.

Söz meydanında ilk müsahibəni cənab İlham Əliyev sentyabrın 29-da "Rossiya -1 " telekanalının "60 dəqiqə" proqramına verdi.

Maraqlı məqam o idi ki, həmin verilişdə aparıcının suallarını paralel şəkildə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri N.Paşinyan cavablandırırdılar.

Qarabağ münaqişəsinin yaradıcısı olan Rusiya daim Ermənistanın yanında olub, onu ruhlandırıb, siyasi cəhətdən müdafiə edib, hətta dəfələrlə milyardlarla dollar həcmində pulsuz silah-sursat verib.

Müharibənin ilk günlərindən isə ona informasiya dəstəyi verməyə başlamışdı.

Təkcə İranın hava məkanı vasitəsilə hərbi əməliyyatlar dövründə Ermənistana silah-sursat daşımaqla ürəyi soyumurdu.

Dünya erməniliyinin maliyyəsindən və seçkilər zamanı erməni diasporlarının verdikləri "erməni səsi"ndən istifadə edən dövlətlər, beynəlxalq qurumlar Azərbaycanın silaha əl atmasını heç vəchlə istəmirdilər.

Onlar işğalın on illərlə davam edəcəyini və Azərbaycanın torpaq itkisi ilə haçansa barışacağını düşünürdülər.

Nəyi nə vaxt və necə etməyi məharətlə bacaran İlham Əliyev isə tamam başqa fikirdə idi.

O, tam məxfi şəkildə qüdrətli ordu yaradaraq onu ən yeni texnologiyalara əsaslanan silah-sursatla təmin etmişdi.

Hətta qonşu Rusiya da Azərbaycanın belə bir ordu qurmasından xəbərsiz idi.

Moskvadakılar belə düşünürdülər ki, Azərbaycan müharibəyə başlasa belə, onların köməyi ilə yaradılan altıqat müdafiə xətlərini keçə bilməyərək böyük itkilər verəcək, sonra Rusiyaya yalvararaq torpaqların bir qisminin qaytarılmasına yardım göstərmək üçün ondan kömək diləyəcəkdir.

Rusiya isə istədiklərini alacaq, sonra "ədalətli münsif" kimi bölgədə "sülh yaradaraq" buradakı hökmranlığını davam etdirəcəkdir!

Əvvəldən isə münaqişənin həllində Türkiyənin hansı formadasa iştirakına qətiyyən razı deyildi.

"Rossiya - 1" telekanalının aparıcısının hər iki tərəfə verdiyi suallarda bu mövqe aşkar şəkildə sezilirdi.

N.Paşinyan da imicinə sadiq qalmışdı.

Əvvəlki kimi yalan danışmaq, şərləmək yolunu tutmuşdu.

Bu vasitə ilə - Türkiyənin yeni başlayan hərbi əməliyyatlarda iştirakını göstərməklə əvvəla Rusiyanı şantaj edir, ikincisi, münaqişənin "beynəlmiləl" xarakter daşıdığını sübut etməyə çalışır, ən nəhayət, bu yolla KTMT-ni (beynəlmiləl hərbi qurumu) müharibəyə cəlb etməklə torpaqları əldə saxlamaq niyyətini güdürdü.

Amma nədənsə "muzdlu"lardan danışanda II Qarabağ müharibəsində Ermənistan tərəfindən döyüşən rus əsgərlərini və özlərinin gətirdikləri muzdluları, habelə işğal etdikləri Azərbaycan ərazilərini məskunlaşdırmaq üçün Qarabağa yığdıqları Livan ermənilərini "unudurdu".

İndi isə həmin müsahibədən bir neçə məqama diqqət yetirək:

"Aparıcı: *İlham Heydər oğlu, xahiş edirəm Türkiyənin rolunu izah edin. Ankara Prezidentin və Xarici İşlər nazirinin şəxsində rəsmən bəyan edib ki, döyüş meydanında Sizə kömək edəcək".*

. . .

"Prezident İlham ƏLİYEV: *...Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək, bu, feyk-nyusdur. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır".*

. . .

"Aparıcı: *İlham Heydər oğlu, beləliklə, Siz belə bir informasiyanı təsdiq etmirsiniz, üstəlik, onu təkzib edirsiniz ki, bir saat bundan əvvəl Türkiyə Hərbi Hava Qüvvələri Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarəni vurub. Söhbət F-16 və SU-25 təyyarələrindən gedir.*

"Prezident İlham ƏLİYEV: *Bizim bu barədə məlumatımız yoxdur. Lap yaxın vaxtda mənə məruzə ediblər ki, informasiya məkanında belə bir xəbər yayılıb. O, heç nə ilə təsdiq edilməyib. Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Bilirsiniz ki, bu gün müasir texnologiyaları nəzərə alsaq, nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır".*

. . .

"Aparıcı: *Sizin mövqeyiniz aydındır. Çox sağ olun. Mümkündürsə lap qısa cavab verin: indi cəbhədə Suriyadan olan muzdlular varmı?*

Prezident İlham ƏLİYEV: *Yoxdur. Bu, növbəti feyk-nyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var".*

. . .

"Aparıcı: *İndi biz Yerevanda əlaqəyə çıxırıq. Ermənistanın lideri, Ermənistanın baş naziri Nikol Paşinyan bizə qoşulur. Salam, Nikol Vovayeviç. İlk növbədə, biz istərdik ki, indi nələr baş verdiyini şərh edəsiniz. Çox həyəcanlı xəbərlər gəlir".*

. . .

"Nikol PAŞİNYAN: *Çox mühüm məqam ondan ibarətdir ki, Türkiyə faktiki olaraq bu prosesə cəlb edilib. Bizdə olan mötəbər informasiyaya görə, hərbi təlimatçılar və yüksəkvəzifəli hərbçilər indi Azərbaycanın komanda məntəqələrindədirlər və bəzi yerlərdə hətta hərbi əməliyyatlara rəhbərlik edirlər. Daha bir mühüm məqam. Artıq beynəlxalq mətbuatda çoxsaylı materiallar dərc edilib ki, Türkiyə Suriya ərazisindən muzdluları cəlb edir, onları Dağlıq Qarabağa və Ermənistan Respublikasına qarşı müharibədə iştirak etmək üçün Azərbaycana aparır".*

N. Paşinyan əsl istəyini açıq şəkildə bildirir:

"Nikol PAŞİNYAN: *Tələb etmək lazımdır ki, Türkiyə, ümumiyyətlə, bu regiondan çıxsın. Ona görə ki, Türkiyənin Cənubi Qafqazda hərbi iştirakı heç bir yaxşı şey vəd etmir. Bu, münaqişənin daha da genişlənməsinə və bu hərbi əməliyyatların, bu müharibənin miqyasının artmasına gətirib çıxara bilər. İndi beynəlxalq birlik Türkiyəni Cənubi Qafqazdan çıxmağa məcbur etmək və Azərbaycanı təcavüzü, təcavüzkar hərəkətlərini, hərbi əməliyyatları dayandırmağa məcbur etmək üçün konkret səy göstərməlidir".*

Sonda deyilənlərə doğruçuluğu və obyektivliyi ilə seçilən rusiyalı siyasi və hərbi ekspert İqor Korotçenko yekun vurdu:

"Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim. İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ doğrudan da böyük kadrlar yetişdirir. İndi isə deyilənlərin mahiyyətinə gələk. Prezident Əliyev haqlıdır və tamamilə ədalətli olaraq dedi ki, peyk, elektron, kəşfiyyat texnologiyalarının müasir inkişaf səviyyəsini nəzərə alsaq, Azərbaycan ərazisinə doğrudan da türk qırıcıları göndərilsəydi, bu faktı gizlətmək mümkün deyildi. Bunu peyk kəşfiyyatı olan istənilən ölkə aşkar edə bilər. Bu gün isə Dağlıq Qarabağ bölgəsi dünyanın bütün aparıcı ölkələrinin sıx müşahidəsi altındadır. Həmkarlarımın diqqətini bir məqama çəkmək istərdim. Biz hamımız beynəlxalq hüququn tərəfdarıyıq. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, döyüş əməliyyatları Azərbaycanın ərazisində, Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparılır".

Onu da qeyd edək ki, hadisələrin qiymətləndirilməsində sonadək Rusiyanın və Ermənistanın mövqeləri dəyişməz qaldı.

44 günlük müharibə dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyev 30-dan çox qəzetə, telekanala və informasiya agentliklərinə müsahibə verdi, ona ünvanlanan bütün sualları cavablandırdı.

❖ ❖ ❖

Cənab İlham Əliyevin daha iki müsahibəsindən bir neçə məqamı yenidən diqqətə çəkirik.

Əvvəlcə bir maraqlı faktı qeyd edək.

Türkiyənin və bir neçə dost ölkənin KİV nümayəndələri istisna olunmaqla, müsahibə üçün Azərbaycana gələnlərin əksəriyyəti hərbi əməliyyatlara qərəzli və birtərəfli mövqedən yanaşır, Azərbaycanı nədəsə ittiham etməyə cəhd göstərir, feyk xəbərləri özümüzə təsdiq etdirərək dünya ictimaiyyətinə həqiqət kimi təqdim etməyə can atırdılar.

Bununla bağlı iki fakt.

31 oktyabr 2020-ci ildə cənab İlham Əliyev Almaniyanın ARD televiziya kanalına müsahibə verdi.

Müxbirin ilk suallarından Azərbaycana qarşı aqressiv notda kökləndiyi hiss olunurdu.

Əvvəlcə Azərbaycanı hərbi əməliyyatlara birinci başlamaqda, qadağan olunmuş kassetli raketlərdən istifadə etməkdə suçlamağa çalışdı və bu iddialarında "Amnesty İnternational" və "Human Rights Watch" kimi Azərbaycana daim qərəzli münasibətilə seçilən qurumlara istinad etdi.

Sonra Qarabağda qədimdən əsasən ermənilərin yaşadığını tarixçilərin adından söylədi və s.

İlham Əliyev səbir və təmkinlə bütün bu yalanları faktlarla təkzib etdi.

Çıxılmaz duruma düşən müxbir:

"Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa, bu, bir rəmzi məna daşıyır?" - deyə sual verdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu suala cavabı isə sonralar dillər əzbərinə çevrilərək məşhurlaşdı:

"Elzas və Lotaringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

Prezidentimizin 2020-ci il noyabrın 9-da "BBC News"ə müsahibəsində də eyni cəhdin, eyni yalanların bizə sırınması üçün canfəşanlığın və yenə də yalançı və bizə qarşı qərəzli "Human Rights Watch"a istinadın şahidinə çevrildik.

Özünü "prokuror" kimi aparmağa çalışan xanım müxbir ucuz yalanları ünvanımıza yapışdırmağa cəhdlər göstərirdi.

Azərbaycanın öz ərazilərini işğaldan azad etdikdən sonra Dağlıq Qarabağdakı ermənilərin hüquqlarının pozulacağından ehtiyat edən müxbir soruşdu:

"Onların Azərbaycanda insanların eşitdiyi, lakin malik olmadığı bütün insan haqları olacaqmı? Onların tamamilə azad mediası olacaqmı? Onların səsini qaldırmağa icazəsi olan müxalifəti olacaqmı? Onlar burada, Azərbaycanda insanların malik olmadığı şeylərə malik olacaqmı?

Söylədiyi feyklərin heç birini sübuta yetirə bilməyən "BBC News"in müxbiri bu dəfə Azərbaycanda insan haqlarının, söz və mətbuat azadlığının pozulduğunu, jurnalistlərin guya sıxışdırıldığını iddia etməyə başladı.

Müsahibənin həmin hissəsini təqdim edirik:

İlham ƏLİYEV: *"Bizim müxalifətimiz var, bizim QHT-lərimiz var. Bizdə azad siyasi fəaliyyət var. Bizdə azad media var. Bizdə söz azadlığı var. Əgər siz bu sualı qaldırdınızsa, mən də sizə bir sual verə biləmmi? Siz cənab Assanjla baş verənləri necə qiymətləndirirsiniz? Bu, sizin ölkədə azad mətbuatın təzahürüdür?*

- Biz burada mənim ölkəmi müzakirə etmək üçün deyilik.

- Xeyr, gəlin müzakirə edək. Gəlin müzakirə edək.

- Yox, Prezident Əliyev.

- Ermənilərin burada azad mətbuatın olmayacağı ilə bağlı məni ittiham etmək əvəzinə, gəlin, Assanj barədə danışaq. Bağışlayın, o, Ekvador səfirliyində neçə il keçirdi və nəyə görə? O, indi hardadır? Jurnalist fəaliyyətinə görə siz həmin şəxsi girov saxladınız, əslində, mənəvi və fiziki olaraq onu öldürdünüz. Bunu siz etmisiniz, biz yox. İndi o həbsxanadadır. Siz bu işlərlə məşğul olduğunuz halda, sizin azad mətbuat haqqında danışmağa mənəvi haqqınız yoxdur.

- Münaqişəyə qayıdaraq...

- Bəli, yaxşı olardı ki, münaqişəyə qayıdasınız, çünki bu, sizin xoşunuza gəlmir. Sizin xoşunuza yalnız ittiham etmək, hücum etmək gəlir. Amma güzgüyə baxın. Mən dəfələrlə demişəm, buraya gəlməmişdən və bizə mühazirə oxumaqdan əvvəl baxın. Siz sualınızla məni ittiham edirsiniz. Bu, sual deyil, bu, ittihamdır. Siz prokuror kimi danışırsınız. Niyə? Əgər siz bu qədər demokratik və obyektivsinizsə, nəyə görə Assanjı həbsxanada saxlayırsınız? Nə üçün? Siz onu jurnalist fəaliyyətinə görə həbsxanada saxlayırsınız.

- Mən onu həbsxanada saxlamıram, Prezident Əliyev.

- Bu, sizin xoşunuza gəlmir.

- Bu, xoşa gəlmək məsələsi deyil.

- Siz buna öyrəşməmisiniz.

- Bu, bizim müsahibənin mövzusu deyil.

- Çünki siz ancaq hücum etməyə adət etmisiniz.

- Bu, bizim müsahibənin mövzusu deyil.

- Bu, müsahibənin mövzusu deyil, amma siz bunu qaldırırsınız".

Onu da qeyd edək ki, bu parça "Youtube"yə qoyulandan sonra çox qısa müddətdə beş milyondan çox "baxış" qazanmışdı.

❖ ❖ ❖

Müzəffər Ali Baş Komandan İlham Əliyevin televiziya ilə xalqa müraciətlərinin zirvəsi isə Şuşanın işğaldan azad edilməsi münasibətilə oldu!

Müraciət üçün seçilən məkan da qeyri-adi, müqəddəs sayılırdı: Şəhidlər xiyabanı!

İlham Əliyev Azərbaycan xalqının həsrətlə gözlədiyi şad xəbəri 8 noyabr 2020-ci ildə sonsuz sevinc hissilə bəyan etdi:

"Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"

Bu qələbənin Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunacağını da sevinclə bildirdi:

"28 il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaqdır".

Tarixi müraciətin ən təsirli hissəsi isə belə idi:

"Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözün aydın olsun, dünya azərbaycanlıları!"

İlham Əliyevin dillər əzbərinə çevrilmiş bu sözləri həm də işğal altındakı torpaqları azad etmiş xalqımızın qəhrəmanlığının publisistik tərənnümüdür:

"Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi başlayarkən xalqa ilk müraciətini bu sözlərlə bitirmişdi:

"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Sevimli rəhbərimiz bu vədini yaratdığı qüdrətli ordusu, "dəmir yumru"ğu sayəsində şərəflə yerinə yetirdi!

- Xalqına arxalanaraq qələbə çaldı!
- Düşmənin başını əzərək qələbə çaldı!
- Azərbaycanı separatçılardan, murdar ləpirlilərdən təmizləyərək qələbə çaldı!
- Xalqımızı qalib xalqa, ordumuzu şanlı orduya, dövlətimizi müzəffər dövlətə çevirərək qələbə çaldı!

Bu gün isə xalq-iqtidar, xalq-rəhbər birliyi daha möhkəm "dəmir yumruğ"u xatırladır!

Bəxtiyar SADIQOV



Avropa məkanında artan nüfuz

Bu gün Cənubi Qafqazda tamamilə yeni siyasi-iqtisadi mənzərə formalaşıb. Müstəqil xarici siyasət kursu və milli maraqlara söykənən prinsipial mövqe tutan Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlar artıq dünya gücləri və aparıcı beynəlxalq təşkilatlar tərəfindən birmənalı şəkildə qəbul edilir. Ölkəmizin müəllifi olduğu ədalətli sülh modeli, beynəlxalq münasibətlərdə etibarlı imici və Şərqlə Qərbi birləşdirən əvəzsiz coğrafi mövqeyi, enerji, nəqliyyat qovşağı olması Azərbaycanı təkcə Cənubi Qafqazın lider dövlətinə deyil, həm də geniş Avrasiya məkanının aparıcı geosiyasi və iqtisadi mərkəzlərindən birinə çevirib.

Uğurlu diplomatiyanın təzahürü

İrlandiyanın paytaxtı Dublində keçirilən "Avropa Siyasi Birliyi"nin (ASB) 9-cu sammitinə Prezident İlham Əliyevin dəvət edilməsi Azərbaycanın Avropa məkanındakı artan nüfuzunun növbəti göstəricisidir. "Avropa - güclü, təhlükəsiz və əlaqəli" devizi altında baş tutan sammitin gündəliyi iqtisadi rəqabətqabiliyyətlilik, nəqliyyat bağlantıları, əlçatan enerji və təhlükəsizlik kimi aktual mövzuları əhatə edir. Azərbaycanın bu platformada fəal təmsil olunması rəsmi Bakının öz milli maraqlarını və regional sülh gündəliyini birbaşa Avropa liderləri səviyyəsində çatdırmasına geniş imkan yaradır. Bu uğurlu diplomatik xəttin arxasında son illərdə atılan ardıcıl, sistemli və uzaqgörən addımlar dayanır. Belə ki, beynəlxalq müstəvidə əldə olunan bu etimad təsadüfi xarakter daşımır. Rəsmi Bakı uzun illər ərzində həm qlobal enerji layihələrinin icrası, həm də regionda davamlı sabitliyin təmin edilməsi istiqamətində verdiyi bütün vədlərə sadiq qalaraq özünü etibarlı tərəfdaş kimi təsdiqləyib. Məhz bu ardıcıllıq və prinsipial mövqe Avropa paytaxtlarında Azərbaycana olan siyasi marağı və strateji ehtiyacı daha da artırıb. Hələ 2025-ci ilin oktyabrında Danimarkanın paytaxtı Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında bir çox dövlət və hökumət başçıları Prezident İlham Əliyevlə görüşərək regionda sülhün bərqərar olması istiqamətində əldə olunan nailiyyətləri təqdir etmişdilər. Cari ilin mayında "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısına videobağlantı formatında qoşulan dövlətimizin başçısı Vaşinqtonda imzalanmış Birgə Bəyannaməni və paraflanmış sülh sazişi mətnini xatırladaraq, Bakının sülh gündəliyinə sadiqliyini bir daha bəyan etmişdi: "Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı. Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub".

Rəsmi Bakının yürütdüyü diplomatik siyasətin diqqətçəkən əsas cəhətlərindən biri də qlobal miqyasda bir-biri ilə rəqabət aparan böyük güclərlə eyni vaxtda qarşılıqlı hörmətə əsaslanan münasibətlər qura bilməsidir. Ötən il Çinlə Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması, bu ilin fevralında isə ABŞ vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri zamanı iki ölkə arasında "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın qəbul edilməsi balanslaşdırılmış xarici siyasətin bariz nümunəsidir.

Qlobal həmrəylik mərkəzi

Eyni dinamika Avropa İttifaqı (Aİ) ilə münasibətlərdə də müşahidə olunur. Hazırda Azərbaycan qazını alan 16 ölkədən 10-u Aİ üzvüdür. Lakin tərəfdaşlıq təkcə ənənəvi enerji ilə məhdudlaşmır. "Yaşıl enerji", rəqəmsal transformasiya və Trans-Xəzər nəqliyyat dəhlizi əməkdaşlığın əsas istiqamətlərinə çevrilib.

Azərbaycan-Avropa İttifaqı münasibətlərinin tamamilə yeni, strateji mərhələyə qədəm qoymasını Aİ-nin ali nümayəndələrinin bu il ölkəmizə həyata keçirdikləri ardıcıl səfərləri də bir daha təsdiqləyir.

Cari ilin martında Aİ Şurasının Prezidenti Antonio Koştanın ölkəmizə səfəri zamanı Brüsselin Bakı ilə münasibətlərə yüksək qiymətinin göstəricisi oldu. Prezident İlham Əliyevlə Aİ Şurasının Prezidenti Antonio Koştanın birgə mətbuat bəyanatında prezidentlər Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqliklərini ifadə ediblər. Liderlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təhcizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər. Yüklərin sürətli və təhlükəsiz daşınması, həmçinin logistik şaxələndirmə baxımından Aİ-nin Azərbaycana olan ehtiyacı qaçılmazdır. Bu gerçəklik mayın 5-də Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Bakıya səfəri zamanı da etiraf olunub. Kaya Kallas, Prezident İlham Əliyevlə görüşündə Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirərək, münasibətləri yeni səviyyəyə qaldırmaqda maraqlı olduqlarını bəyan edib. İyulun 1-də Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin ölkəmizə səfəri də Azərbaycan Aİ əlaqələrinin dinamik inkişafına nümunə idi. Prezident İlham Əliyevlə geniş tərkibdə görüş zamanı Azərbaycanın bu gün Avropa İttifaqının strateji tərəfdaşı olduğunu deyən Ursula fon der Lyayen bildirib ki, Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlər möhkəm təməllər üzərində inkişaf edir.

Həmçinin iyun ayında 2026-2030-cu illəri əhatə edən Tərəfdaşlıq Prioritetləri layihəsinin razılaşdırılması Brüsselin Azərbaycana etibarlı strateji tərəfdaş kimi baxdığını təsdiqləyir.

Bu yüksəksəviyyəli təmasların məntiqi davamı kimi Prezident İlham Əliyevin Dublin sammitində iştirakı təkcə diplomatik protokol tədbiri deyil, həm də qoca qitənin gələcək arxitekturasında Azərbaycanın yerini və rolunu rəsmiləşdirən mühüm siyasi hadisədir. Avropanın enerji xəritəsini yenidən cızan və qitəyə alternativ nəqliyyat marşrutları təqdim edən Azərbaycan liderinin bu zirvədə yer alması, əslində, Avropa dövlətlərinin rəsmi Bakının təşəbbüslərinə verdiyi ali qiymətin göstəricisidir. Bütün bunlar Azərbaycanın təkcə enerji tədarükçüsü kimi deyil, həm də regional təhlükəsizliyin qarantı və qlobal dialoq təşəbbüskarı kimi qəbul olunduğunu bir daha nümayiş etdirir.

Prezident İlham Əliyevin sammitdəki fəal iştirakı Azərbaycanın Avropa ilə münasibətlərində yeni səhifə açmaqla yanaşı, qarşılıqlı faydalı əməkdaşlığın daha geniş coğrafiyanı əhatə etməsinə güclü təkan verir.

Bütün bu diplomatik uğurların məntiqi zirvəsi kimi 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin 12-ci Zirvə toplantısına evsahibliyi etmək hüququnun yekdilliklə Bakıya həvalə olunması xüsusi diqqət çəkir.

Göründüyü kimi, Azərbaycan artıq təkcə iqtisadi və enerji layihələrinin deyil, həm də qitələrarası siyasi etimadın və qlobal həmrəyliyin formalaşdığı əsas mərkəz kimi tarix yazmağa davam edir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Təhsil və milli kimlik fenomeninin konseptual əsasları

Milli kimlik anlayışı müasir sosial və siyasi nəzəriyyələrdə çoxqatlı və dəyişkən bir kateqoriya kimi qəbul edilir. Bu anlayışın mahiyyətində həm obyektiv göstəricilər - dil, ərazi və etnik mənsubiyyət, həm də subyektiv təcrübələr, kollektiv yaddaş və simvolik mənalar sistemi dayanır. Başqa sözlə, milli kimlik verilmiş bir struktur olmaqla eyni zamanda formalaşan və yenidən qurulan sosial prosesdir. Sosioloji və siyasi nəzəriyyələrdə bu məsələ geniş şəkildə araşdırılmışdır.



Fransız sosioloq, sosiologiyanın klassik nəzəriyyəsinin əsas nümayəndələrindən biri Emile Durkheim təhsili "cəmiyyətin özünü yenidən istehsal etmə mexanizmi" kimi xarakterizə edərək deyib: "Təhsil sistemi hər bir cəmiyyətin özünü yenidən istehsal etmə mexanizmidir, o, cəmiyyətin mövcud dəyərlərini, normalarını və sosial qaydalarını yeni nəsillərə ötürür". Bu yanaşma təhsilin ümumilikdə sosial funksiyasını izah etsə də, fikrimcə, burada əsas boşluq kimliyin passiv şəkildə ötürülməsi ilə aktiv şəkildə yenidən istehsalı arasındakı fərqin zəif vurğulanmasıdır. Başqa bir mühüm nəzəri istiqamət isə müasir sosiologiyanın ən nüfuzlu nümayəndələrindən biri Pyer Burdieu tərəfindən irəli sürülmüşdür. O, təhsil sistemini "mədəni kapitalın ötürülməsi və legitimləşdirilməsi mexanizmi" kimi təhlil edərək belə bir fikir söyləyib: "Təhsil sistemi mədəni kapitalın paylanma strukturunu təkrar istehsal etməklə sosial siniflər arasındakı mədəni fərqləri qoruyur və onları legitimləşdirir". Bu fikrə görə, milli kimlik, təhsil vasitəsilə normallaşdırılan və "təbii" kimi təqdim olunan sosial konstruksiyaya çevrilir.

Milli kimliyin "təsəvvür edilmiş" xarakterini vurğulayan amerikalı politoloq və siyasi antropoloq Benedikt Anderson isə bildirirdi ki, millət üzvləri birbirini şəxsən tanımasalar belə, özlərini eyni təsəvvür edilmiş siyasi və mədəni birlik daxilində dərk edirlər. Andersonun yanaşmasına görə, təhsil milli zaman və məkan anlayışını standartlaşdıraraq fərdlərin eyni tarixi mənalar daxilində düşünməsini izah edir.

Bu yanaşma göstərir ki, təhsil bilik verməklə, eyni zamanda həmin "təsəvvürün" formalaşdığı əsas sosial mexanizmə çevrilir.

Bu kontekstdə britaniyalı filosof Ernest Qellner (Gellner) də sənayeləşmə dövründə milli kimliyin formalaşmasını təhsilin kütləviləşməsi ilə əlaqələndirərək yazır: "Sənaye cəmiyyəti yalnız standartlaşdırılmış kütləvi təhsil sistemi vasitəsilə vahid mədəni və kommunikativ struktur yarada bilər". Onun fikirlərində təhsil milli kimliyin funksional əsaslarını formalaşdırır.

Tədqiqatlar göstərir ki, təhsil sistemi milli kimliyin formalaşması və inkişafında mühüm rol oynayır. Təhsil vasitəsilə cəmiyyətin tarixi yaddaşı, mənəvi dəyərləri və mədəni ənənələri nəsildən-nəslə ötürülür. Deməli, kimlik təbii yox, idarə olunan və öyrədilən bir strukturdur. Bununla yanaşı, dəyişən sosial və siyasi şərait yeni kimlik təsəvvürlərinin yaranmasına da təsir göstərir. Xüsusilə siyasi dəyişikliklər yaşayan və ya müstəqillikdən sonra yeni dövlətçilik istiqaməti müəyyənləşdirən cəmiyyətlərdə təhsil kimliyin yenidən düşünülməsi və formalaşdırılması prosesində önəmli funksiyaya malik olur. Tarix, ədəbiyyat, incəsənət və digər humanitar sahələr vasitəsilə vətənə bağlılıq, kollektiv yaddaşa hörmət, ortaq keçmişin dərk olunması və milli qürur hissi şagirdlərin düşüncə sisteminə daxil edilərək fərdin özünü müəyyən sosial və mədəni bütövlüyün tərkib hissəsi kimi qəbul etməsinə şərait yaradır.

Müasir qloballaşma dövründə milli kimlik anlayışı əvvəlki mərhələlərlə müqayisədə daha mürəkkəb məzmun daşıyır. İnformasiya texnologiyalarının inkişafı, müxtəlif mədəni təsirlərin sərhədləri aşması və rəqəmsal ünsiyyət imkanlarının genişlənməsi fərqli identiklik formalarının bir-biri ilə daha sıx əlaqəyə girməsinə şərait yaradır. Belə bir mühitdə təhsil sistemi eyni zamanda, iki istiqamətdə funksionallıq nümayiş etdirməlidir: bir tərəfdən, qlobal mühitə inteqrasiyanı təmin etməli, digər tərəfdən isə milli-mədəni dəyərlərin davamlılığını qoruyub saxlamalıdır. Məhz bu balans fərdin beynəlxalq bilik və bacarıqlara yiyələnməsi ilə yanaşı, öz milli-mədəni kimliyini itirmədən inkişaf etməsinə şərait yaradır.

Ümumi yanaşmalar göstərir ki, təhsil fərdi şüuru kollektiv identikliklə əlaqələndirən, tarixi təcrübəni müasir reallıqla uzlaşdıran və milli davamlılığı təmin edən əsas sosial institut kimi çıxış edir.

Bu baxımdan müxtəlif ölkə modelləri üzərindən təhlilə keçmək məqsədəuyğundur.

Alman təhsil modeli

Almaniya təcrübəsi milli kimliyin formalaşmasında təhsilin rolunu ən sistemli şəkildə nümayiş etdirən modellərdən biri kimi dəyərləndirilə bilər. Bu modelin özəlliyi ondadır ki, təhsil yalnız bilik verən institut kimi yox, eyni zamanda sosial şüuru formalaşdıran və kollektiv yaddaşı istiqamətləndirən bir mexanizm kimi çıxış edir. XIX əsrdə Almaniyada milli kimliyin formalaşması prosesi təhsil sisteminin məqsədyönlü şəkildə təşkili ilə sıx bağlı olmuşdur. Alman filosofu Johann Gottlieb Fichte tərəfindən irəli sürülən ideyalar bu prosesin nəzəri əsasını təşkil edirdi. O, millətin gələcəyini yeni nəslin tərbiyə olunması ilə əlaqələndirərək yazıb: "Millətin gələcəyi onun təhsil sistemində formalaşan yeni nəslin mənəvi ruhundan asılıdır". Bununla da onun düşüncəsindəki formula təhsili milli ideyanın sistemli şəkildə formalaşdırıldığı məkan kimi təqdim edir.

Bu nəzəri çərçivə alman dövlətçiliyinin praktik siyasəti ilə uzlaşaraq daha geniş məzmun qazandı. Xüsusi ilə Almaniyanın siyasi birləşməsinin əsas memarı və Almaniya imperiyasının ilk kansleri Otto fon Bismark tərəfindən həyata keçirilən siyasi kurs milli birliyin möhkəmləndirilməsində təhsilin rolunu strateji səviyyəyə yüksəltdi. Bismarkın yanaşmasında dövlətin davamlılığı və gücü vətəndaşların şüur səviyyəsi, intizamı və ortaq dəyərlərə bağlılığı ilə birbaşa əlaqələndirilirdi. Bu baxımdan məktəb sistemi idarəetmə mexanizminin ayrılmaz hissəsi kimi çıxış edərək milli inteqrasiyanı təmin edən əsas vasitələrdən birinə çevrildi.

Eyni istiqamətdə alman filosofu, dilçi və dövlət xadimi Vilhelm fon Humbolt tərəfindən formalaşdırılan təhsil konsepsiyası xüsusi əhəmiyyət kəsb edir. Humboltun fikrincə, təhsilin məqsədi insanın bütün potensialını azad şəkildə inkişaf etdirmək və onu mənəvi bütövlüyə çatdırmaqdır. Onun bu modeli elmi azadlıq və akademik müstəqillik prinsiplərinə əsaslanaraq Almaniyada ali təhsilin keyfiyyətini yüksəltmiş, eyni zamanda milli düşüncənin dərinləşməsinə zəmin yaratmışdır.

Bu ideyalar fonunda Prussiya təhsil sistemi konkret institusional formaya çevrildi. Dövlət nəzarətində olan məktəblər vahid proqram əsasında fəaliyyət göstərdi. Dil, tarix və vətəndaşlıq şüurunu eyni xətt üzrə inkişaf etdirdi. Bu sistemdə müəllim şəxsiyyəti xüsusi əhəmiyyət daşıyırdı. O, bilik verən fərd olmaqla yanaşı, milli dəyərlərin daşıyıcısı kimi çıxış edirdi. Bu yanaşmanın simvolik ifadəsi kimi tarixə düşən fikir məşhurdu. "Sadova döyüşünü Prussiya müəllimi qazandı". Bu fikir Oskar Peşel (Peschel) ilə əlaqələndirilir. O bu ifadə ilə təhsilin milli gücün formalaşmasında oynadığı rolu metaforik şəkildə möhtəşəm ümumiləşdirib.

XX əsrin əvvəllərində Almaniya dərin siyasi və sosial sarsıntılarla üzləşdi. Birinci Dünya müharibəsindən sonra, xüsusilə Versal müqaviləsi nəticəsində formalaşan yeni reallıq cəmiyyət daxilində identiklik böhranını dərinləşdirdi. Bu mərhələdə təhsil sistemi milli ruhun bərpasına yönəldildi. Həmçinin mövcud siyasi mühitin təsiri altında müxtəlif ideoloji istiqamətlər yaranmağa başladı. Elə bu fakt özü göstərir ki, təhsil sisteminin məzmunu və istiqaməti siyasi kontekstlə qarşılıqlı təsir şəraitində formalaşır. Sonrakı dövrdə baş verən proseslər təhsilin təsir gücünü daha aydın şəkildə üzə çıxardı. Totalitar ideologiyanın hakim olduğu mərhələdə məktəblər və universitetlər ideoloji təsirin əsas kanallarından birinə çevrildi. Bu vəziyyət milli kimliyin istiqamətinin təhsil məzmunu ilə sıx bağlı olduğunu açıq şəkildə nümayiş etdirdi.

İkinci Dünya müharibəsindən sonra Almaniya cəmiyyətinin qarşısında duran əsas vəzifələrdən biri mənəvi və ideoloji yenilənmə idi. Bu mərhələdə təhsil sistemi cəmiyyətin özünü yenidən dərk etməsində həlledici rol oynadı. Müttəfiq qüvvələrin nəzarəti altında həyata keçirilən islahatlar nəticəsində təhsil proqramları köklü şəkildə dəyişdirildi, müəllim heyəti yenidən formalaşdırıldı və yeni kurikulum demokratik və humanist dəyərlər üzərində quruldu.

Bu prosesin fəlsəfi əsaslandırılması alman filosofu və sosioloqu, Teodor V. Adorno tərəfindən verilmişdir. Onun "Oşvitsdən (Auschwitz) sonra təhsil" mövzusunda çıxışlarında irəli sürdüyü yanaşmaya görə, təhsil tənqidi düşüncəni inkişaf etdirməli, eyni zamanda cəmiyyətin etik məsuliyyət hissini gücləndirməlidir. Bu baxış təhsili bilik sistemi ilə yanaşı, mənəvi şüurun formalaşdırıldığı mühit kimi təqdim edir.

Müharibədən sonrakı dövrdə Almaniyanın iki fərqli siyasi sistem çərçivəsində inkişafı təhsil modellərində də öz əksini tapdı. Qərbi Almaniyada demokratik dəyərlərə əsaslanan, açıq və plüralist təhsil sistemi formalaşdı. Şərqi Almaniyada isə sosialist ideologiyası çərçivəsində qurulan təhsil modeli mövcud idi. Hər iki halda təhsil milli kimliyin yenidən müəyyənləşdirilməsi prosesində əsas alət kimi çıxış etdi. Bu mərhələdə alman kimliyi hüquqi dövlət prinsipləri, insan hüquqları və demokratik dəyərlərlə əlaqələndirilərək yeni məzmun qazandı.

Almaniya təcrübəsində təhsilə milli kimliyin formalaşmasında zamanla dəyişən, lakin əhəmiyyətini qoruyan əsas mexanizm kimi baxmaq olar. Bu modeldə intizamın önə çıxması təsadüfi deyil, dövlətin mərkəzləşmiş tarixi strukturunun təhsilə transferidir. Düşünmək olar ki, alman modelinin əsas məhdudiyyəti milli kimliyi daha çox dövlət intizamı ilə eyniləşdirməsidir və bu fərdin subyektiv kimlik təcrübəsini arxa plana keçirir.

Fransız təhsil modeli

Fransız təhsil modelində isə milli kimliyin formalaşmasına fərqli yanaşılır. Bu sistemdə əsas məqsəd daha çox vətəndaşlıq şüuruna, siyasi birlik ideyasına əsaslanır və ümumi mənsubiyyət hissinin yaradılmasına yönəlir. Fransız milli kimlik konsepsiyasının nəzəri əsaslarını filosof və tarixçi, millətin formalaşmasında ortaq tarixi yaddaşın, kollektiv iradənin və mənəvi həmrəyliyin rolunu üstün tutan nəzəriyyəçi Ernest Renan sistemləşdirmişdir. Onun 1882-ci ildə Sorbonna Universitetində səsləndirdiyi "Millət nədir?" mühazirəsində irəli sürdüyü "Millət gündəlik plebisitdir, o, ortaq yaddaş və birlikdə yaşamaq iradəsi üzərində formalaşır" fikrinə görə, millət ortaq xatirələr və birgə yaşamaq iradəsi üzərində qurulan mənəvi birlikdir. Bu yanaşma təhsil sistemində konkret məzmun kəsb edərək şagirdlərin kollektiv yaddaş çərçivəsində formalaşdırılmasına, eyni zamanda onların vətəndaşlıq məsuliyyətinin inkişafına xidmət etmişdir.

XIX əsrin sonlarında, xüsusilə III Respublika dövründə Fransada həyata keçirilən təhsil islahatları bu ideyaların praktik tətbiqini təmin etdi. Fransız dövlət xadimi Jül Ferri (Ferry) qanunları əsasında qurulan yeni təhsil sistemi pulsuz, icbari və dünyəvi xarakter daşıyırdı. Bu sistemin əsas məqsədi dini təsirləri məhdudlaşdırmaqla yanaşı, respublika dəyərlərinə sadiq vətəndaş formalaşdırmaq idi. Məktəblər dövlətin ideoloji dayaqlarından birinə çevrilərək fərdin siyasi identifikasiyasını formalaşdıran əsas mühit rolunu oynadı. Bu modeldə müəllim fiquru xüsusi əhəmiyyət daşıyan respublika dəyərlərini - azadlıq, bərabərlik və qardaşlıq prinsiplərini şagirdlərin şüuruna inteqrasiya edirdi. Bu baxımdan müəllim institutu milli kimliyin formalaşdırılmasında ideoloji vasitə rolunu oynayırdı.

Fransız təhsil modelində dil siyasəti də mühüm yer tutur. XIX əsrin sonlarında ölkə daxilində müxtəlif regional dillər və dialektlər geniş yayılmışdı. Təhsil sistemi vasitəsilə standart fransız dilinin təşviqi milli kommunikasiya məkanının formalaşmasına səbəb oldu. Bu proses mədəni inteqrasiya ilə yanaşı, vətəndaşlıq şüurunun vahid dil üzərində qurulmasına şərait yaratdı. Bu yanaşmada fərdlər lokal identiklikdən ümummilli identikliyə doğru istiqamətlənmişdir.

Bu istiqamətdə amerikalı tarixçi Eujen Veber (Eugen Weber) tərəfindən aparılan tədqiqatlar da xüsusi əhəmiyyət daşıyır. Onun "Kəndlilərdən fransızlara" əsərində göstərilir ki, XIX əsrin sonlarında Fransa əhalisinin böyük hissəsi özünü milli çərçivədə deyil, regional kimliklər daxilində dərk edirdi. Təhsil sistemi, hərbi xidmət və nəqliyyat infrastrukturu bu vəziyyəti dəyişdirərək fərdlərin milli identifikasiya prosesini sürətləndirmişdir. Bu yanaşma təhsilin milli kimliyin formalaşdırılmasında aktiv və transformativ rolunu empirik şəkildə təsdiq edir.

Fransız modelində tarix tədrisi də xüsusi ideoloji məna daşıyırdı. Məktəblərdə təqdim olunan tarix sistemi Fransa dövlətinin davamlılığı, inqilabi ənənələri və respublika dəyərlərinin inkişafı üzərində qurulurdu. Bu yanaşma kollektiv yaddaşın formalaşdırılması ilə yanaşı, vətəndaşların ortaq keçmişə bağlılıq hissini gücləndirirdi.

XX əsrdə Fransız təhsil modeli müxtəlif siyasi və sosial dəyişikliklərə uyğun olaraq transformasiya olunmuşdur. Xüsusilə dünya müharibələri dövründə və sonrasında təhsil sistemi milli birliyin qorunması və vətəndaşlıq şüurunun möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərmişdir. Bu mərhələdə məktəblər milli həmrəyliyin təmin edildiyi sosial institut kimi çıxış etmişdir.

Müasir dövrdə isə Fransız təhsil modeli yeni çağırışlarla üzləşir. Qloballaşma, miqrasiya və multikulturalizm kimi faktorlar milli kimlik məsələsini daha mürəkkəb hala gətirmişdir. Bu şəraitdə təhsil sistemi həm respublika dəyərlərinin qorunmasını, həm də müxtəlif mədəni kimliklərin inteqrasiyasını təmin etməyə çalışır. Bu balans Fransız modelinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir.

Fransız təhsil modeli milli kimliyin formalaşmasında vətəndaşlıq ideyasını mərkəzə yerləşdirən sistem kimi xarakterizə olunur və bu modeldə fərd dövlətin aktiv və məsuliyyətli vətəndaşı kimi formalaşdırılır. Təhsil bu prosesdə kollektiv yaddaşı, ortaq dəyərləri və siyasi şüuru inteqrasiya edən əsas mexanizm kimi çıxış edir və milli kimliyin davamlılığını təmin edən strateji institut rolunu oynayır. Fransız təhsil modeli göstərir ki, milli kimlik daha çox siyasi birlik, vətəndaşlıq məsuliyyəti və ortaq dəyərlər sistemi üzərində formalaşan institusional mexanizm kimi qurulur. Bu modeldə təhsil konkret olaraq respublika ideyasının daşıyıcısına çevrilən əsas sosial institut kimi çıxış edir.

Müqayisəli baxımdan yanaşdıqda, alman modelində ön plana daha çox intizam, mərkəzləşmiş dövlətçilik və tarixi-mədəni davamlılıq çıxırsa, Fransız modelində isə siyasi birlik, vətəndaşlıq şüuru və respublika dəyərləri üstünlük təşkil edir. Hər iki yanaşma fərqli ideoloji əsaslara söykənsə də, təhsil vasitəsilə fərdin kollektiv kimliyə inteqrasiyasını təmin edir. Bu fərq milli kimliyin formalaşmasında vahid universal yanaşmanın mövcud olmadığını, əksinə, tarixi və siyasi kontekstdən asılı olaraq müxtəlif modellərin formalaşdığını göstərir. Bu fərqliliklərin səbəbləri tarixi-siyasi inkişafın daxili məntiqi ilə izah olunur. Almaniyada milli birliyin formalaşması uzun müddət parçalanmış siyasi struktur daxilində getdiyi üçün təhsil sistemi mədəni və dil vahidliyinin yaradılmasına xidmət edən əsas inteqrasiya vasitəsinə çevrilmişdir. Fransada isə mərkəzləşmiş dövlətin artıq formalaşmış olması təhsilin əsas funksiyasını fərqli istiqamətə yönəltmişdir. Əsas məqsədi mövcud siyasi sistem daxilində vətəndaşlıq şüurunun möhkəmləndirilməsi və sosial-mədəni davranışların vahid normativ çərçivəyə salınması olmuşdur.

Beləliklə, hər iki təcrübə təhsilin cəmiyyətin özünü dərk etmə prosesini formalaşdıran strateji institut olduğunu təsdiqləyir. Bu baxımdan təhsil milli kimliyin davamlılığını təmin edən əsas dayaqlardan biri kimi çıxış edir və fərdin cəmiyyətlə münasibətini müəyyən edən fundamental sosial struktur rolunu oynayır.

(ardı var)

Sadiq QURBANOV,
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri



Zəfər yolları

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bu gün böyük quruculuq məkanına çevrilib. Otuz ilə yaxın müddətdə dağıntılara məruz qalmış şəhər və kəndlərimiz yenidən dirçəlir, müasir yaşayış məntəqələri salınır, sosial və iqtisadi infrastruktur yaradılır. Həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərinin mühüm istiqamətlərindən birini yol-nəqliyyat infrastrukturunun formalaşdırılması təşkil edir. Çünki doğma torpaqlarına qayıdan insanların rahat və təhlükəsiz yaşayışının təmin olunması, bölgənin iqtisadi potensialının hərəkətə gətirilməsi, kənd təsərrüfatının, sənayenin və turizmin inkişafı ilk növbədə müasir nəqliyyat şəbəkəsinin mövcudluğundan asılıdır. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzurda çəkilən yollar yalnız yaşayış məntəqələrini birləşdirən nəqliyyat xətləri deyil, həm də regionun gələcək inkişafının mühüm təminatıdır.

İşğaldan azad edilmiş ərazilərdə yol tikintisinin əsası hələ Vətən müharibəsinin davam etdiyi günlərdə qoyulub. Azərbaycan Ordusunun qəhrəman hərbçiləri düşmənin möhkəmləndirilmiş mövqelərini yararaq Şuşaya doğru irəliləyərkən keçilməz hesab edilən dağlardan, sıx meşələrdən və dərin dərələrdən keçmiş, tarixi Qələbəyə aparan cığırlar açmışdılar. Bu gün həmin qəhrəmanlıq yollarının üzərində müasir avtomobil magistralı uzanır. Şuşaya aparan 101 kilometrlik Zəfər yolu da xalqımızın hərbi qüdrətini, yenilməz iradəsini və quruculuq əzmini özündə birləşdirən rəmzə çevrilib.

Zəfər yolunun təməli 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli rayonuna səfəri zamanı qoyulub. Dövlət başçısı həmin gün yolun strateji və mənəvi əhəmiyyətindən danışaraq demişdi: "Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır".

Prezident İlham Əliyevin Zəfər yolu adlandırdığı magistral yolun tikintisi mürəkkəb dağlıq relyef şəraitində, sərt qayaların yarılması və müasir mühəndislik texnologiyalarının tətbiqi ilə həyata keçirilib. Dövlət başçısının daimi nəzarətində olan bu layihə qısa müddətdə tamamlanıb və 2021-ci il noyabrın 7-də, tarixi Zəfərimizin birinci ildönümü ərəfəsində istifadəyə verilib. Füzuli, Xocavənd və Xocalı rayonlarının ərazilərindən keçərək Şuşaya uzanan yol onlarca yaşayış məntəqəsinin nəqliyyat imkanlarının genişlənməsinə xidmət edir. Bu magistral həm də Azərbaycanın azad edilmiş torpaqlarda qısa müddətdə böyük layihələri reallaşdırmaq gücünü nümayiş etdirir.

Qarabağda həyata keçirilən ilk yol layihələrindən biri də Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yolunun yenidən qurulmasıdır. Ümumi uzunluğu 28,5 kilometr, eni 9 metr olan ikizolaqlı yolun 21 kilometri Tərtər şəhərindən Suqovuşana, 7,5 kilometri isə Suqovuşandan Talış kəndinə qədər uzanır. 2021-ci il oktyabrın 3-də Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən avtomobil yolu müasir standartlara uyğun inşa olunub. Yolboyu avtobus dayanacaqları yaradılıb, təhlükəsiz və rahat hərəkətin təşkili üçün zəruri infrastruktur qurulub. Bu layihə yaşayış məntəqələri arasında əlaqələrin bərpası, əhalinin gündəlik hərəkət imkanlarının yaxşılaşdırılması və bölgənin iqtisadi fəallığının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Qarabağ və Şərqi Zəngəzurda yol infrastrukturunun inkişafı yalnız ayrı-ayrı yaşayış məntəqələrinin birləşdirilməsi ilə məhdudlaşmır. Burada ölkənin ümumi nəqliyyat sisteminə inteqrasiya olunan, beynəlxalq logistika imkanlarını genişləndirən kompleks layihələr həyata keçirilir. Prezident İlham Əliyev oktyabrın 14-də 6-cı Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" - "Rebuild Garabagh" sərgisinin iştirakçılarına müraciətində bu sahədə görülən işlərin miqyasını xüsusi vurğulayıb: "Qarabağ və Şərqi Zəngəzurda qurulan nəqliyyat infrastrukturu yaşayış məntəqələrini bir-biri ilə və ölkənin vahid iqtisadi məkanı ilə birləşdirir. İndiyədək 1500 kilometrə yaxın yol tikilmiş, 11,7 kilometr uzunluğunda Murovdağ tuneli dünyada mürəkkəb dağlıq şəraitdə həyata keçirilən quruculuq işlərinin mühüm mühəndislik nümunəsinə çevrilmişdir. Füzuli, Zəngilan və Laçın beynəlxalq Hava limanları istifadəyə verilmişdir. Dəmir yollarının inşası davam etdirilir. Horadiz-Ağbənd dəmir yolu xətti Zəngəzur dəhlizinin mühüm tərkib hissəsi kimi Azərbaycanın beynəlxalq nəqliyyat və logistika əlaqələrinin genişlənməsində strateji əhəmiyyət daşıyır".

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ən mürəkkəb mühəndislik layihələrindən biri Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Ümumi uzunluğu 82 kilometr olan bu magistral Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq, Kəlbəcərdən keçir və məşhur İstisu istirahət zonasına qədər uzanır. Layihənin icrasında işlərin 90 faizindən çoxunun tamamlanması dağlıq ərazilərdə aparılan tikintinin miqyasını göstərir. Yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir. Dəniz səviyyəsindən yüksəkliyin 3250 metrədək çatdığı bu ərazidə sərt iqlim şəraiti və mürəkkəb relyef avtomobil hərəkəti üçün ciddi çətinliklər yaradır. Məhz buna görə təhlükəsiz və fasiləsiz nəqliyyat əlaqəsinin təmin edilməsi məqsədilə Murovdağ silsiləsinin altından 11,7 kilometr uzunluğunda tunel inşa edilir. Yolun 13,5-ci kilometrində yerləşən bu mühəndislik qurğusunda asfaltlanma işləri aparılır.

Murovdağ tuneli uzunluğuna görə dünyanın ən iri avtomobil tunellərindən biri hesab olunur. Bu tunel uzunluğuna görə dünyada 18-ci, Avropada 5-ci, MDB ölkələri arasında isə birinci yerdədir. Burada fövqəladə hallar zamanı təhlükəsizliyin təmin edilməsi üçün sağ və sol hissələri birləşdirən 38 keçid tuneli də tikilib. Bundan başqa, layihə çərçivəsində ümumi uzunluğu 2636 metr olan daha dörd tunel inşa olunub. Bu nəhəng mühəndislik qurğuları Kəlbəcərin nəqliyyat əlçatanlığını artırmaqla yanaşı, rayonun turizm, kənd təsərrüfatı və digər iqtisadi sahələrinin inkişafına geniş imkanlar yaradacaq.

Bu gün azad edilmiş torpaqlarda salınan hər yeni yol həm də gələcəyə açılan yeni imkan deməkdir. Bir vaxtlar hərbçilərimizin qəhrəmanlıqla keçdiyi dağlardan indi müasir magistrallar uzanır, uzun illər bir-birindən ayrı düşmüş yaşayış məntəqələri yenidən birləşir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yol layihələri Azərbaycanın iqtisadi qüdrətinin, mühəndislik potensialının və quruculuq siyasətinin bariz nümunəsidir. Bu yollar yalnız məsafələri qısaltmır, həm də insanları doğma yurdlarına, bölgəni isə yeni inkişaf mərhələsinə yaxınlaşdırır.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

Gələn il sosial müavinətlərdə artımlar olacaq

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, növbəti ildən etibarən pensiya, əməkhaqqı, eləcə də sosial müavinətlərdə artımlar həyata keçiriləcək. Əmək pensiyaları 2026-cı ildə orta aylıq əməkhaqqındakı artan faizə uyğun olaraq indeksləşdiriləcək. Belə ki, növbəti ildən etibarən əmək pensiyalarının indeksləşdirilərək artırılması mexanizmi dəyişir.

Milli Məclisin deputatı Vüqar BAYRAMOV qəzetimizə açıqlamasında dedi ki, orta aylıq əməkhaqqı məbləğinə qədər olan pensiyalar tam indeksləşdiriləcək, yəni təxminən 1200 manata qədər olan pensiyalar tam indeksləşdirilərək artırılacaq. 1200 manatdan 5 min manata qədər olan pensiyalar 0,5, 5 min manatdan çox olan pensiyalar isə 0,2 əmsalına vurularaq artırılacaq. Artımlar növbəti il 1 milyon 100 min vətəndaşımızı əhatə edəcək və bütün



əmək pensiyalarına şamil ediləcək. "Həm yaşa, həm əlilliyə görə, həm də ailə başçısını itirməyə görə əmək pensiyası alan vətəndaşlarımızın pensiya məbləğlərində gələn ildən etibarən artımlar olacaq. Növbəti il, eyni zamanda minimum əməkhaqqında artımlar proqnozlaşdırılır. Bununla bağlı da dövlət başçısı tərəfindən göstəriş verilib. 2026-cı ilin fevral ayında Əmək Məcəlləsində olan dəyişikliklər Prezident tərəfindən təsdiq olunub və həmin dəyişikliklərə əsasən, minimum əməkhaqqı məbləğinə ildə ən azı bir dəfə baxılacaq. Bu, o deməkdir ki, artıq növbəti ildən etibarən hər il minimum əməkhaqqı məbləğinin artırılmasını müşahidə edəcəyik. Minimum əməkhaqqı məbləğindəki artımlar yalnız az maaş alan vətəndaşlarımıza deyil, eyni zamanda dövlət idarələrində çalışan, amma dövlət qulluqçusu olmayan və vahid tarif cədvəlinə uyğun olaraq vəzifə maaşları müəyyənləşdirilənlərin əməkhaqlarına təsir göstərəcək. Belə ki, minimum əməkhaqqının artırılması ilə bağlı ölkə rəhbəri tərəfindən sənəd imzalandıqdan sonra Nazirlər Kabineti dövlət müəssisələrində çalışan və dövlət qulluqçusu olmayan vətəndaşlarımızın vəzifə maaşlarının uyğunlaşdırılması ilə bağlı qərar qəbul edəcək. Bu artımlar təxminən 700 min nəfərə şamil olunacaq", - deyə o əlavə etdi.

Deputat sosial müavinətlərdə də artımlar gözlənildiyini vurğuladı. Həm sosial müavinət, həm də təqaüdlərin artırılması və bununla bağlı büdcədə vəsaitin ayrılması nəzərdə tutulub.

V.Bayramov bildirdi ki, yaşa görə sosial müavinətin də artırılması təklif olunub: "Hazırda 220 manat olan yaşa görə sosial müavinət 2025-ci ildə sosial müavinətlər artırılanda qalxmadı. Ona görə də ötən dövrdəki inflyasiya səviyyəsini nəzərə almaqla, yaşa görə müavinətin də artırılması məqsədəuyğundur və bununla bağlı da profil dövlət qurumu tərəfindən qiymətləndirmə aparıldıqdan sonra qərarların veriləcəyi gözlənilir".

Deputat qeyd etdi ki, bütövlükdə sosial müavinətlərdəki artımlar daxil olmaqla, növbəti ilin sosial paketi 3 milyon vətəndaşı əhatə edəcək. 2027-ci ilin dövlət büdcəsindən sosial istiqamətə 18,7 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub ki, bu da bütövlükdə büdcə xərclərinin 44 faizini təşkil edir. Bu, o deməkdir ki, 2027-ci ildə büdcədən ayrılan hər 100 manatın 44 manatı sosial istiqamətə yönəldiləcək.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Orta dəhliz üzərindən avtomobillə yükdaşımaları artırmaq üçün tədbirlər görülür

Məlumdur ki, bu gün məhsul istehsalında konveyer üsulundan və robortlaşmadan geniş istifadə olunur. Yüksək texnologiyaların istehsalata tətbiqi daha çox və daha ucuz məhsul istehsal etməyə imkan verir. Məhsul bolluğu isə onun bazarda sürətlə satılmasını tələb edir. Bu mümkün olmadıqda məhsul yığılıb anbarlarda qalır, istehsalı dayandırmaq məcburiyyəti yaranır.

İndiki iqtisadi prosesləri əvvəlki dövrlə müqayisə etmək olmaz. Məsələn, əvvəllər bütün dünyada ildə 1 milyon avtomobil istehsal olunurdusa, indi təkcə Çində hər il bundan çox avtomobil buraxılır. Belə olan halda əsas məsələ məhsulu dünya bazarına tez çıxarmaq olur. Bunun üçünsə vaxt və vəsait sarıdan səmərəli logistika lazımdır.

Dünyada baş verən müharibələr üzündən isə ənənəvi logistika - qlobal marşrutlar iflic vəziyyətinə düşüb və nəticədə Şərqlə Qərb arasında olan ticarət və təchizat zəncirində böyük qırılmalar baş verib. İndi bu boşluğu doldurmaq üçün hamı ümid yeri kimi üzünü Orta dəhlizə tutub. Orta dəhlizdə isə dəmir yolu ilə yükdaşıma imkanları lazım olan tələbə cavab vermir, yəni texniki imkanlar məhduddur. Buna görə də iki əsas məsələ həll olunmalıdır. Birincisi, Xəzər dənizində yükdaşımaları artırmaq üçün iritutumlu bərə gəmilərin istismara verilməsi lazımdır. Yeri gəlmişkən, qeyd edək ki, artıq iritutumlu bərə və konteynerdaşıyıcı gəmilər istehsal olunur və onların gələn il istismara verilməsi gözlənilir. İkinci əsas məsələ dəmir yolu ilə yanaşı, yüklərin avtomobillə daşınması artırılmalıdır. Bu məqsədlə Azərbaycandan Gürcüstan sərhədinə qədər müasir standartlara cavab verən avtomobil yolu tikilib. Ancaq bununla iş bitmir, Mərkəzi Asiyada da belə yolların olması zəruridir.

Prezident İlham Əliyevin apardığı logistika siyasəti Orta dəhlizin qlobal ticarət marşrutuna çevrilməsində önəmli rol oynayır. Məlum olduğu kimi, Türkmənistan Orta dəhlizlə bağlı proseslərdən bir qədər kənarda qalırdı. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana, Prezident İlham Əliyevin Türkmənistana etdiyi səfərlərdən sonra dost ölkə də proseslərə qoşulmağa başlayıb. Artıq Türkmənbaşı limanında yükaşırmanı müasir dövrün tələblərinə uyğunlaşdırmaq üçün nəhəng yenidənqurma işləri görülür. Bununla yanaşı, Türkmənistan Orta dəhlizdə önəmli ölkə olmaq üçün avtomobil yollarının çəkilməsinə də xüsusi əhəmiyyət verir.

Azərbaycanla Türkmənistan həmçinin "Şimal-Cənub" dəhlizində tərəfdaş ölkələrdir. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Xəzər dənizinin sahilində yerləşən Türkmənbaşı şəhərindən Qazaxıstan sərhədinə qədər uzanan yeni yolun açılışını edib. Bu yolun Azərbaycan üçün də əhəmiyyəti var. Belə ki, Rusiyanın şərq ərazisindən yüklərin Türkmənbaşı limanı üzərindən Azərbaycana, buradan da Avropaya göndərmək mümkündür.

Mərkəzi Asiyada avtomobil yollarının şaxələnməsi eyni zamanda Orta dəhlizin imkanlarını genişləndirir. Bu isə dəhliz üzərindən yüklərin avtomobillə daşınmasına yeni imkanlar açacaq.

Rüstəm KAMAL,
"Azərbaycan"

Sənaye zonaları iqtisadi inkişafın lokomotivinə çevrilir

Dövlətin dəstəyini əsirgəmədiyi sənaye parkları və məhəllələrindən gözləntisi çoxdur

İqtisadi inkişaf istehsalın təşkili, investisiyaların cəlb edilməsi, innovasiyaların tətbiqi və davamlı iqtisadi dəyərin formalaşdırılmasıdır. Sənaye parkları məhz həmin məqsədlərə xidmət edən iqtisadi platformalardır. Bu platformaların əsas iştirakçıları olan rezidentlər isə ölkənin sənaye potensialının güclənməsində, idxaldan asılılığın azaldılmasında və ixrac imkanlarının genişləndirilməsində mühüm rol oynayırlar.

Belə bir qurumun yaradılması iqtisadiyyatda yeni istehsal ənənələrinin formalaşdırılması, sahibkarlığın təşviqi və sənaye sahələrinin inkişafı baxımından strateji əhəmiyyət kəsb edir. Parklar sahibkarlara istehsal fəaliyyətini qurmaq və genişləndirmək üçün zəruri infrastruktur təqdim etməklə yanaşı, investisiya risklərinin azaldılmasına və biznes xərclərinin optimallaşdırılmasına da şərait yaradır. Əsas üstünlük vahid sənaye ekosisteminin formalaşmasıdır. Belə ki, müxtəlif istiqamətlərdə fəaliyyət göstərən müəssisələrin eyni ərazidə cəmləşməsi istehsal əlaqələrinin genişlənməsinə, təchizat zəncirinin inkişafına, texnologiya və təcrübə mübadiləsinə imkan verir.

Burada iqtisadi səmərəliliyi müəyyən edən əsas amillərdən biri rezidentlərin fəaliyyəti və həyata keçirdikləri investisiya layihələridir. Çünki parkın yaradılması hələ son nəticə demək deyil. Əsas göstərici burada fəaliyyət göstərən müəssisələrin istehsal etdiyi məhsulların həcmi, çeşidi, satışı və ixrac imkanlarıdır. Rezident statusu əldə edən sahibkarlar dövlətin yaratdığı əlverişli şəraitdən istifadə etməklə yeni müəssisələr qurur, istehsal proseslərini müasir texnologiyalar əsasında təşkil edir, yerli xammal və resurslardan istifadəyə üstünlük verir, eyni zamanda xarici bazarlara çıxış imkanlarını genişləndirirlər.

Azərbaycanın sənaye parklarında rezidentlər üçün yaradılmış stimullaşdırıcı mexanizmlər sahibkarlıq fəaliyyətinin genişlənməsinə əlverişli zəmin yaradır. Belə ki, rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq və mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnika və texnoloji avadanlıqlara görə isə ƏDV və gömrük rüsumlarından azad edilirlər. Bundan başqa, dövlət hesabına yaradılan müasir infrastruktur sahibkarlara maliyyə resurslarını birbaşa istehsal layihələrinə yönəltmək imkanı verir.

Sənaye parklarında əldə olunan uğurların, istehsal potensialının genişlənməsinin və ixrac göstəricilərinin yüksəlməsinin əsasında ilk növbədə rezidentlərin həyata keçirdikləri investisiya layihələri və istehsal fəaliyyəti dayanır. Onların təşəbbüsləri, yatırdıqları sərmayələr və yaratdıqları yeni müəssisələr sənaye parklarının inkişafını sürətləndirir, ölkə iqtisadiyyatındakı mövqeyini bir qədər də gücləndirir. Həmin inkişafı konkret rəqəmlər də təsdiqləyir. İqtisadi Zonaların İnkişafı Agentliyinin 2025-ci ilin yekunlarına dair açıqladığı məlumatlara əsasən, bu qurumun idarəçiliyində olan sənaye zonalarında 138 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən bu zonalara 7 milyard manat investisiya yatırılıb, 82 müəssisə fəaliyyətə başlayıb və 9700-dən artıq daimi iş yeri yaradılıb.

Daha diqqətçəkən məqam isə istehsal və ixrac göstəriciləridir. 2015-2025-ci illərdə sənaye zonalarında ümumilikdə 19 milyard manatdan artıq məhsul satılıb, bunun 6 milyard manatdan çoxu ixracın payına düşüb. Təkcə 2025-ci ildə satış həcmi 4 milyard manata yaxın, ixrac isə 1,2 milyard manat təşkil edib. Ötən illə müqayisədə istehsal 21,1 faiz, ixrac isə 13,4 faiz artıb. Bu göstəricilər sənaye parklarının artıq iqtisadi siyasətin perspektiv istiqaməti olmaqla kifayətlənmədiyini, real istehsal və ixrac nəticələri yaradan iqtisadi mexanizmə çevrildiyini göstərir.



Qeyd edək ki, sənaye parkları regionların iqtisadi inkişafında da mühüm rol oynayır. Müxtəlif bölgələrdə belə parkların yaradılması yeni müəssisələrin fəaliyyətə başlamasına, iş yerlərinin artmasına və sahibkarlığın genişlənməsinə şərait yaradır. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da bu istiqamətdə həyata keçirilən mühüm layihələrdəndir. Həmin sənaye zonaları azad edilmiş ərazilərin iqtisadi dirçəlişini sürətləndirir, yerli əhalinin məşğulluğunun təmin olunmasına, sahibkarlıq fəaliyyətinin canlanmasına və yeni iqtisadi əlaqələrin qurulmasına imkan yaradır. Məsələn, Ağdam Sənaye Parkında indiyədək sahibkarlar tərəfindən 145,8 milyon manat investisiya yatırılıb, 1000-ə yaxın daimi iş yeri yaradılıb. Parkda fəaliyyət göstərən müəssisələrin istehsal etdiyi məhsullar həm daxili bazara, həm də xarici ölkələrə yönəldilir. Burada yeni investisiya layihələrinin həyata keçirilməsi davam edir. Belə ki, parkın ən son rezidenti olan "Ağdam Agro Yem" MMC tərəfindən 11 milyon manat investisiya dəyərinə malik heyvan yemləri istehsalı müəssisəsinin yaradılması nəzərdə tutulur. Müəssisədə heyvandarlıq təsərrüfatlarının tələbatına uyğun yem məhsulları istehsal ediləcək. Layihənin reallaşdırılması yerli heyvandarlıq təsərrüfatlarının yemlə təminatının yaxşılaşdırılmasına, idxaldan asılılığın azaldılmasına, eləcə də yerli istehsalın və ixrac imkanlarının genişləndirilməsinə şərait yaradacaq.

Sənaye parklarının gələcək inkişafında əsas məsələlərdən biri yalnız istehsal həcmini artırmaq deyil, həm də istehsalın keyfiyyətini, texnoloji səviyyəsini və rəqabətqabiliyyətli olmasını yüksəltməkdir. Müasir sənaye artıq ənənəvi istehsal üsulları ilə kifayətlənmir. Rəqəmsallaşma, avtomatlaşdırma, enerji səmərəliliyi, ekoloji standartlar və innovativ texnologiyalar sənayenin inkişafında əsas meyarlara çevrilir.

Bu baxımdan sənaye parklarının rezidentləri qarşısında yeni imkanlarla yanaşı, yeni vəzifələr də dayanır. İstehsalda müasir texnologiyaların tətbiqi, məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması, yeni ixrac bazarlarının mənimsənilməsi və yerli istehsalın əlavə dəyərinin artırılması gələcək inkişafın əsas istiqamətləri olmalıdır.

Bütün bunlar göstərir ki, sənaye parkları və onların rezidentləri Azərbaycanın iqtisadi inkişaf strategiyasında bir-birini tamamlayan iki mühüm qüvvədir. Dövlətin yaratdığı infrastruktur və stimullaşdırıcı mexanizmlər sahibkarlar üçün əlverişli imkanlar formalaşdırır, rezidentlərin investisiya və istehsal fəaliyyəti isə bu imkanları konkret iqtisadi nəticələrə çevirir.

Əslində, sənaye parklarının uğuru ölkə iqtisadiyyatına nə qədər əlavə dəyər qazandırması, nə qədər yeni iş yeri yaratması, ixrac potensialını hansı səviyyədə artırması və sənayenin texnoloji inkişafına nə dərəcədə töhfə verməsi ilə ölçülür.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"





Mədəniyyət





● "Şəhərsalma və Memarlıq İli" - 2026

Qədim tikililər şəhərlərimizin daş tarixi və mədəni kimliyidir

Küçələri ilə addımladığımız hər bir qədim şəhərin özünəməxsus ruhu, səsi və siması var. Bu simanı yaradan ən mühüm amil isə şübhəsiz ki, zamanın sınağından çıxmış köhnə klassik binalardır. XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakının mərkəzini bəzəyən neoklassik, barokko və milli üslublu möhtəşəm imarətlərdən tutmuş Şuşanın, Ordubadın, Gəncənin və Şəkinin qədim memarlıq incilərinə qədər hər bir tikili Azərbaycan memarlıq məktəbinin canlı salnaməsidir.






Müasir dövrdə sürətli urbanizasiya və yeni yaşayış massivlərinin salınması fonunda bu tarixi irsin qorunması, bərpası və müasir şəhərsalma standartları ilə uzlaşdırılması xüsusi aktuallıq kəsb edir. Məhz bu baxımdan 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizin memarlıq həyatında yeni bir mərhələnin başlanğıcı oldu. Dövlət səviyyəsində atılan bu addım həm şəhərlərimizin müasirləşməsinə, həm də klassik memarlıq nümunələrinin gələcək nəsillərə sağlam şəkildə ötürülməsinə xidmət edir. Bəs bu əlamətdar il çərçivəsində köhnə klassik binalarla bağlı hansı işlər görülür, tarixi irsimiz necə qorunur?

"Şəhərsalma və Memarlıq İli"nin Tədbirlər Planında Azərbaycanın klassik və milli memarlıq irsinin qorunması ən prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Orta əsr Şərq memarlığının təkrarsız nümunələrindən başlayaraq, XX əsrdə milli memarlıq məktəbinin əsasını qoyan Mikayıl Hüseynov və Sadıq Dadaşovun yaratdığı klassik üslublu binaların mühafizəsi dövlət nəzarətinə götürülüb. Xüsusilə böyük memar Əcəmi Naxçıvaninin 900 illik yubileyi çərçivəsində bu irsimizin elmi araşdırılması və beynəlxalq aləmdə təbliği istiqamətində mühüm layihələr həyata keçirilir. Sözügedən sənəddə İçərişəhər, Şirvanşahlar sarayı, Şəki Xan sarayı və Mömünə xatun türbəsi kimi dünya əhəmiyyətli abidələrlə yanaşı, şəhərlərimizin tarixi mərkəzlərində yerləşən klassik yaşayış və ictimai binaların da memarlıq görkəminin qorunması əsas şərt kimi qoyulub.

Regionlardakı tarixi-klassik tikililər bərpa olunur

Klassik memarlıq irsinin dirçəldilməsi təkcə paytaxtla məhdudlaşmır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində tarixi-klassik binaların bərpası böyük vüsət alıb. Mədəniyyət paytaxtımız Şuşada yerləşən tarixi yaşayış evlərinin, məscidlərin və köhnə üslublu ictimai binaların orijinal memarlıq elementləri qorunmaqla bərpası davam edir. Eyni zamanda Ağdamdakı İmarət kompleksi, Şuşa, Naxçıvan və Ordubad tarixi qoruqlarının ICESCO-nun İslam Dünyası İrsi Siyahısına daxil edilməsi bu klassik tikililərin beynəlxalq səviyyədə qorunmasına hüquqi zəmin yaradıb. Ordubaddakı tarixi "Mədrəsə" abidəsinin əsaslı bərpası və konservasiyası da regionlardakı klassik memarlıq nümunələrinə göstərilən diqqətin bariz nümunəsidir.

Cəmiyyətdə ən çox müzakirə olunan məsələlərdən biri də Bakıdakı köhnə binaların sökülməsi ilə bağlıdır. Baş plana və şəhərsalma qaydalarına əsasən, paytaxtın tarixi mərkəzində yerləşən XIX-XX əsrin əvvəllərinə aid klassik binalar memarlıq abidəsi kimi qorunur. Bu binaların fasadlarının tarixi görkəminə qaytarılması və mühəndis-kommunikasiya sistemlərinin yenilənməsi nəzərdə tutulur. Söküntü və yenidənqurma işləri isə klassik arxitektura nümunələrinə deyil, sovet dövründə kütləvi şəkildə inşa edilmiş və artıq istismar müddətini (50-60 il) başa vurmuş, qəzalı vəziyyətdə olan "Xruşşovka", gecəqondular və digər yararsız binalara şamil edilir. Yeni binalar layihələndirilərkən isə ətrafdakı klassik tikililərin hündürlüyü, üslubu və şəhərin tarixi silueti ilə harmoniyanın pozulmaması əsas tələb kimi irəli sürülür.

Bakının klassik binaları və İstiqlaliyyət küçəsi

Bakı təkcə Xəzərin sahilində ucalan müasir göydələnlər və işıqlı bulvarlar şəhəri deyil, o həm də daş üzərində həkk olunmuş zəngin bir tarix kitabıdır. Paytaxtımızın mərkəzi küçələri ilə - İstiqlaliyyət, Nizami, Rəşid Behbudov və ya İçərişəhərin dar döngələrində gəzdikcə insan özünü açıq səma altında yerləşən nəhəng bir memarlıq muzeyində hiss edir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində neft bumu dövründə ucaldılan neoklassik, barokko, qotika və Şərq memarlıq elementlərini özündə birləşdirən möhtəşəm binalar, eləcə də XX əsrin ortalarında milli memarlıq məktəbinin korifeyləri M.Hüseynov və S.Dadaşovun imzasını daşıyan klassik tikililər Bakının bənzərsiz simasını formalaşdırıb. Lakin sürətlə böyüyən meqapolisin müasir tələbləri ilə bu tarixi irsin qorunması arasında tarazlıq yaratmaq hər zaman həssas yanaşma tələb edir.

Uzun illərdir Bakının memarlıq xəritəsində elə bir ünvan var ki, paytaxtın son ikiəsrlik tarixini, mədəni yüksəlişini və şəhərsalma mədəniyyətini özündə tam şəkildə birləşdirir. Bu, şəhərin qəlbində yerləşən, hər daşı bir salnamə danışan İstiqlaliyyət küçəsidir. Vaxtilə Nikolayevskaya, sonra Kommunist küçəsi adlandırılan, bu gün isə müstəqillik rəmzimizə çevrilən bu küçə Bakının açıq səma altında yerləşən ən möhtəşəm memarlıq qalereyasıdır. Burada Şərq zərifliyi ilə Avropa klassikası elə ustalıqla uzlaşıb ki, küçə boyunca atılan hər addım insanı müxtəlif memarlıq dövrlərinə səyahətə aparır.

Sürətli urbanizasiya və müasir şəhər mühitinin formalaşdığı bir dövrdə bu cür unikal küçələrin orijinal simasını qorumaq xüsusi məsuliyyət tələb edir. İstiqlaliyyət küçəsində Qərb memarlığının şah əsərləri cəmlənib. Bu küçənin bənzərsizliyi onun bir-birindən fərqli, lakin ümumi ahəngi pozmayan klassik üslublu binalarında gizlənir. Küçənin memarlıq tacını Venesiya qotikası üslubunda inşa edilmiş zərif "İsmailiyyə" binası (indiki AMEA-nın Rəyasət Heyəti) bəzəyir. Memar İosif Ploşkonun yaradıcılıq incisi olan bu bina incə daş oymaları və möhtəşəm fasadı ilə onun əsas estetik dominantıdır.

Tikilinin yaxınlığında ucalan, barokko elementləri və möhtəşəm saat qülləsi ilə seçilən Bakı Şəhər İcra Hakimiyyətinin binası (memar İosif Qoslavski), neoklassik üslubun zərif nümunəsi olan Azərbaycan Dövlət Akademik Filarmoniyası, Şərq və Qərb memarlığının sintezini əks etdirən Azərbaycan Dövlət İqtisad Universitetinin əsas binası küçəyə əsl Avropa şəhərlərinin simasını verir. Eyni zamanda küçənin digər cinahında yerləşən əzəmətli "Monolit" yaşayış binası və Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin arxa fasadı klassik üslubun XX əsrdəki möhtəşəm davamını nümayiş etdirir.

Bu gün İstiqlaliyyət küçəsi bütövlükdə tarixi-memarlıq qoruğu statusunda mühafizə olunur. "Şəhərsalma və Memarlıq İli"nin Tədbirlər Planı çərçivəsində bu küçədəki klassik binaların qorunması bir neçə əsas istiqamətdə həyata keçirilir. İlkin istiqamət fasadların bərpası və konservasiyası ilə bağlıdır. Xəzərin duzlu küləklərinin və zamanın təsiri ilə aşınmaya məruz qalmış əhəngdaşı oymaları xüsusi texnologiyalarla bərpa olunur, tarixi memarlıq detalları ilkin görkəminə qaytarılır. Bu zaman memarlıq səliqəsinə xüsusi nəzarət edilir. Küçənin tarixi ruhuna xələl gətirən müdaxilələrin - yöndəmsiz reklam lövhələrinin, fasadlara bərkidilmiş kondisioner bloklarının və qanunsuz artırmaların təmizlənməsi ilə binaların orijinal estetikası tam şəkildə üzə çıxarılır. Axşam saatlarında klassik binaların memarlıq elementlərini (sütunları, tağları, heykəlləri) ön plana çıxaran bədii işıqlandırma sistemlərinin yenilənməsi və küçənin piyadalar üçün daha rahat, yaşıl bir məkana çevrilməsi də diqqət mərkəzində saxlanılır.

İstiqlaliyyət küçəsinin həm də İçərişəhərin qala divarları ilə birbaşa təmasda olması bu ərazinin şəhərsalma baxımından əhəmiyyətini ikiqat artırır. Qəbul edilmiş qaydalara görə, bu küçənin ətrafındakı məhəllələrdə hər hansı yeni hündürmərtəbəli tikintiyə icazə verilmir. Məqsəd birdir: "İsmailiyyə"nin, filarmoniyanın və "Monolit"in yaratdığı tarixi silueti və səma xəttini toxunulmaz saxlamaq.

"Şəhərsalma və Memarlıq İli" bir daha sübut edir ki, Bakının müasirləşməsi onun tarixi köklərindən uzaqlaşması demək deyil. İstiqlaliyyət küçəsi isə bu fəlsəfənin ən canlı sübutudur. Burada yerləşən hər bir klassik bina Bakının zəngin keçmişinin daşlaşmış rəmzi olmaqla yanaşı, həm də paytaxtımızdan gələcək nəsillərə qalacaq ən qiymətli mədəni sərvətdir.

İradə ƏLİYEVA,
"Azərbaycan"

● Ədəbi simalar

Ömrün hər anında yaratmaq eşqi

Jurnalist, yazıçı, dramaturq, şair, tərcüməçi, alim və pedaqoq kimi müxtəlif sahələrdə çalışıb. Bu sahələrin hər biri onun həyatında özünəməxsus yer tutub, biri digərini tamamlayıb. Bəlkə də Aqşin Babayevin yaradıcılıq yolunu mənalandıran, maraqlı edən əsas cəhət elə budur.



Aqşin Babayev 1936-cı il noyabrın 23-də Bakıda dünyaya gəlib. 1959-cu ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. Jurnalistikaya hələ tələbəlik illərində başlayıb. Sonralar bu sahə onun uzun illər davam edən peşə fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilib.

1959-cu ildən 1991-ci ilədək Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışıb. Türkiyə, ərəb ölkələri, İran və Cənubi Azərbaycana verilişlər hazırlayan redaksiyalarda fəaliyyət göstərib, sonralar həmin redaksiyalara rəhbərlik edib. 1972-1975-ci illərdə Türkiyədə işləyib. 1976-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində radioda xarici verilişlər üzrə sədr müavini vəzifəsini tutub.

Radio onun fəaliyyətində xüsusi yer tutub. Sədr müavini işləyərkən onun təməlini qoyduğu verilişlərdən biri də Cənubi Azərbaycana yayımlanan proqramlarda səslənən "Körpü"dür. Onun radioya rəhbərliyi dövründə "Araz" radiostansiyasının verilişləri səhər saatlarında yayımlanmağa başlayıb, "Səhər" proqramı efirə çıxıb.

Aqşin Babayevin jurnalist kimi fəaliyyəti respublika mətbuatı ilə məhdudlaşmayıb. O, 1969-1979-cu illərdə ingilis, fransız, alman və ispan dillərində nəşr olunan "Moskou nyus" qəzetinin Azərbaycan üzrə xüsusi müxbiri işləyib, Azərbaycanın ictimai həyatı, mədəniyyəti və incəsənəti haqqında yazılar hazırlayıb, Üzeyir bəy Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Niyazi, Tahir Salahov kimi sənətkarların yaradıcılığını tanıdıb.

1991-ci il martın 1-də Milli Məclisdə yaradılan mətbuat xidmətinin ilk rəhbəri Aqşin Babayev olub. 1991-2006-cı illərdə Azərbaycan Respublikası Milli Məclisinin mətbuat katibi vəzifəsində çalışan Aqşin müəllim kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulmasına, parlamentin fəaliyyətinin ictimaiyyətə çatdırılmasına diqqət yetirib. O, həmçinin "Qurtuluş", "Tariximizin faciəli səhifələri: soyqırımı", "Heydər Əliyev və Azərbaycan parlamenti", "Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar", "Müstəqil dövlətimiz və parlamentimiz" kimi nəşrlərin hazırlanmasında iştirak edib. Parlament nümayəndə heyətlərinin tərkibində Fransa və Səudiyyə Ərəbistanına səfərlərindən hazırladığı reportajlar, Türkiyə və İsveçrədən yazdığı publisistik qeydlər də onun jurnalist yaradıcılığının parlaq nümunələridir.

Jurnalistika Aqşin Babayevin həyatında mühüm yer tutsa da, onun ədəbiyyata marağı daha erkən yaşlardan başlayıb. Özü bu barədə deyib: "Ədəbiyyata marağım bəlkə də atamın incəsənət və mədəniyyət sahəsinin adamı olmağından irəli gəlib. Atam həm rəssam, həm rejissor, həm yaxşı tarzən idi. Onun gözəl səsi də vardı. Atam - Əlisəttar Babayev rejissor kimi Leyla Bədirbəyli, Şövkət Ələkbərova, Gülağa Məmmədov, Töhfə Əliyeva və Məmmədəli Əliyevi ilk dəfə səhnəyə çıxarıb… Gözümü açmışam, bu sənətkarları evimizdə görmüşəm".

Aqşin Babayev hələ orta məktəbin yeddinci sinfində oxuyarkən "Bahar" adlı ilk şeirini qələmə alıb. İlk hekayəsi 1958-ci ildə "Oktyabr işıqları" almanaxında dərc olunub. 1964-cü ildə isə "Cazibəli üfüqlər" adlı ilk hekayələr kitabı işıq üzü görüb. Sonralar "Həmişəbahar", "Bir parça həyat", "Ağ ulduzlar", "Bir ürəyin hərarəti", "Ayrılıq", "Söz gülləsi", "Dünyanın axırı" kimi kitabları nəşr olunub. "Kişilər az yaşadı" kitabı Moskvanın "Sovetski pisatel" nəşriyyatında çap edilib.

O, sonralar daha çox hekayə, povest qələmə alsa da, poeziya ilə vidalaşmayıb. Şeirlərinə mahnılar bəstələnib. Amma Aqşin Babayev özünü şair adlandırmayıb. Müsahibələrinin birində deyib: "O ki qaldı şeir yazmağıma, mən özümü şair hesab eləmirəm. Şairliyi özüm üçün bir hobbi hesab etmişəm".

A.Babayev dramaturgiyaya hələ tələbəlik illərində üz tutub. İlk pyesi 1955-ci ildə tamaşaya qoyulub. Sonrakı illərdə əsərləri Musiqili Komediya, Rus Dram, Gənc Tamaşaçılar, Bələdiyyə və Sumqayıt Dövlət Dram teatrlarında səhnələşdirilib. 8 pyesi dövlət teatrlarında tamaşaya qoyulub, ssenariləri əsasında telefilmlər çəkilib. Aqşin Babayev səhnə əsərlərinin taleyindən razılığını müsahibəsində belə dilə gətirib: "Bəxtim hər zaman rejissor cəhətdən gətirib. Nazim Hikmətə həsr etdiyim "Ceviz ağacı" pyesim rejissor Firudin Məhərrəmli tərəfindən İrəvan Azərbaycan Dövlət Dram Teatrında səhnəyə qoyulacaq. Ulu Öndərə həsr etdiyim "Xilaskar" pyesim Sumqayıt Dövlət Dram Teatrında və İrəvan Dövlət Azərbaycan Dram Teatrında səhnələşdirilib. İrəvan Teatrının quruluşunda bu əsər Dağıstanda, Gürcüstanda və Türkiyənin 7 şəhərində səhnəyə qoyulub və rəğbətlə qarşılanıb. Deyə bilərəm ki, "Xilaskar" pyesimin səhnə həyatı tam ürəyimcə olub".

A.Babayev elmi araşdırmalar və tərcümə ilə də məşğul olub. Onun elmi əsərləri Moskva, Ankara və Tbilisidə nəşr edilib. "Nazim Hikmətin yaşamı" kitabı 1989-cu ildə Almaniyada işıq üzü görüb. "Türk ədəbiyyatı müntəxəbatı", "Türk dramaturgiyası", "Cümhuriyyət dövrü türk ədəbiyyatında sosial motivlər", "Azərbaycan və türk dünyası" əsərləri onun türk ədəbiyyatına və ədəbi əlaqələrə marağından yaranıb.

Aqşin Babayev 30-dan artıq xarici filmi Azərbaycan dilinə tərcümə edib. İtalyan dramaturqu Terensinin "Qardaşlar", türk dramaturqu Haldun Tanerin "Kemanlı Əli dastanı" pyeslərini, Əziz Nesinin hekayələrini dilimizə çevirib. Aydın Kazımzadə ilə birlikdə "Azərbaycan kino sənətində ədəbi əsərlərin təcəssümü" kitabını hazırlayıb. "Kino...kino" və "Kino sənətinin təməl daşı" əsərləri də onun kino sənətinə olan marağını əks etdirir.

Aqşin Babayev 35-dən çox bədii və elmi kitabın müəllifi kimi tanınır. Əsərləri müxtəlif ölkələrdə nəşr olunub. "Kişilər az yaşadı" (1986) Moskvada, "Nazim Hikmətin yaşamı" (1989) və "Əyri gözlük" (2016) Berlində, "Nazim və Azərbaycan" (2012) isə İzmirdə çap edilib. Hekayələri ABŞ, Türkiyə, İraq, Moldova və Gürcüstanda oxuculara təqdim olunub.

O, 1961-ci ildən Azərbaycan Jurnalistlər İttifaqının, 1978-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü idi. 1970-ci ildə "Əmək rəşadətinə görə" medalı ilə təltif edilib, 1987-ci ildə Əməkdar jurnalist fəxri adına layiq görülüb. 2004-cü ildə II dərəcəli Dövlət müşaviri rütbəsi alıb.

1967-ci ildən pedaqoji fəaliyyətlə məşğul olan Aqşin Babayev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyib, universitetin Ədəbi yaradıcılıq və ekran dramaturgiyası kafedrasına rəhbərlik edib. Təhsil ocağındakı fəaliyyəti zamanı gənclərin ədəbi və yaradıcı bacarıqlarının inkişafına diqqət yetirib.

Yazıçı-dramaturq, şair, tərcüməçi, pedaqoq, ictimai xadim, filologiya elmləri doktoru, professor Aqşin Babayev uzun sürən xəstəlikdən sonra 2020-ci il iyunun 10-da dünyasını dəyişib. Ömrünün son illərində "Ən böyük arzunuz nədir?" sualına cavabı belə olmuşdu: "Yaşamaq! Ömür çox qısadır. Keçmişə baxanda hər bir hadisə mənə dünən olubmuş kimi gəlir. Nazim Hikmət demişkən, "Yaşamaq gözəl şeydir, qardaşım". Sonra öz şeirini xatırlamışdı:

Buruq saçlı bir oğlandım, dünəndi,
Birdən-birə saçıma qar ələndi.
Ömrüm-günüm ağ dumana bələndi,
Hardan gəldi, hara getdi bu illər?!...

Bu cavabın arxasında ömrün sürətlə keçdiyinə, geridə qalmış illərə təəssüflə bərabər, çətinliklər qarşısında heç zaman sınmamış, aciz qalmamış, ruhdan düşməmiş bir insanın məğrurluğu və həyat sevgisi vardı...

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Zəfər Günü münasibətilə "İki əsgər" tamaşası növbəti dəfə səhnədə

Zəfər Günü münasibətilə Şuşa Dövlət Musiqili Dram Teatrı və Şuşa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə tədbir keçirilib.



Teatrdan AZƏRTAC-a bildirilib ki, tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Daha sonra Xaqani Əliyevin "İki əsgər" tamaşası nümayiş olunub.

Tamaşanın quruluşçu rejissoru, mərhum Əməkdar artist Yadigar Muradov, rejissoru Lalə Şirinova, rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı isə Asyaxanım Heydərovadır.

Səhnə əsərində teatrın aktyorları Emin Sevdiməliyev, Vüsal Məmmədov, Ayşən Mirzəyeva, Cavid Cavadzadə və Təranə Əliyeva çıxış ediblər.

Tamaşada düşmən əsgəri ilə müqayisədə cəsur, vətənsevər, qəhrəman, humanist, torpağının azadlığı uğrunda həyatını hər an qurban verməyə hazır olan qalib Azərbaycan əsgərinin ümumiləşdirilmiş obrazı yaradılıb.

Məktublar: problemlər, rəylər, təkliflər...

● QƏHRƏMANLAR UNUDULMUR

Övladları ataları ilə fəxr edirlər



2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsində şəhid olanlar arasında mənim həyat yoldaşım Emin Əmrahov da var. Bu Zəfər Günü ərəfəsində bütün şəhidlər kimi, Emin Əmrahov da xatırlanır, xatirəsi yad olunur.

Belə əlamətdar günlərdə qızlarımız Zərda və Dərya, oğlanlarımız Ruzi və Toğrul da fəxr edirlər, hər dəfə sinəsini medallar bəzəyən atalarının şəklinə baxanda qürur hissi keçirirlər. Fəxr edirlər, qürur hissi keçirirlər ki, ataları Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüş əməliyyatlarında qəhrəmanlıq göstərmişdir.

Qeyd edim ki, həyat yoldaşım ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Qubadlının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Gülnar ƏHMƏDOVA,
Ağstafanın Qırılı kənd sakini,
şəhid Emin Əmrahovun həyat yoldaşı

"Şəhidlər Vətənin əbədi yaşayan qəhrəmanlarıdır!"



Astara Pedaqoji Kollecinin həyətində torpağı Vətən edən şəhidlərimizin xatirəsinə abidə ucaldılıb. Bu günlər təhsil ocağında abidənin önündə "Şəhidlər ölmür, onlar Vətənin əbədi yaşayan qəhrəmanlarıdır!" adlı tədbir keçirilib.

Astara Pedaqoji Kollecinin Həmkarlar Təşkilatının sədri, metodist, tarix müəllimi Elçin Mahmudov, "Humanitar fənlər" fənn birləşməsinin sədri Ülfət Həşimli və kitabxana müdiri Nigar Əlizadə çıxış edərək şəhidlərimizin Vətən qarşısındakı xidmətlərindən, onların qəhrəmanlıq yolunun gənc nəsil üçün örnək olduğundan danışıblar. Çıxış edən şəhid mayor Kamran Fərəcovun həyat yoldaşı, kollecin şöbə müdiri Nuranə Fərəcova şəhidlərin daim ehtiramla yad edilməsinin böyük mənəvi dəyər daşıdığını bildirib. O, kollecdə şəhidlərin xatirəsinə yaradılmış abidənin xüsusi əhəmiyyətini vurğulayaraq bu təşəbbüsə və şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə kollecin direktoru, professor, şəhid atası Kamran Kazımova minnətdarlığını ifadə edib.

Tədbirin bədii hissəsində tələbələrin ifasında Vətənə, şəhidlərimizə həsr olunmuş şeirlər səsləndirilib.

Zəfər ORUCOĞLU,
Astara

AZƏRBAYCAN-a cavab verirlər

Samux rayon Əhmədbəyli kəndinin qazlaşdırılmasına növbəti mərhələlərdə baxılacaq

Sizin Samux rayonu, Əhmədbəyli kəndində yerləşən təbii qazla təmin olunmayan yeni yaşayış sahəsinin qazlaşdırılması ilə bağlı "Azəriqaz" İstehsalat Birliyinə ünvanladığınız müraciətinizə aidiyyəti üzrə baxılmışdır.

Bununla əlaqədar olaraq bildiririk ki, ölkə üzrə kəndlərin və yaşayış massivlərinin qazlaşdırılması SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin (Birlik) gündəliyində olan əsas məsələlərdəndir. Qazlaşdırma proqramı birliyin daxili maliyyə imkanlarına uyğun olaraq mərhələli şəkildə həyata keçirilir və sözügedən yeni yaşayış sahəsinin paylayıcı qaz kəmərlərinin çəkilməsi məsələsinə növbəti mərhələlərdə baxılacaqdır.

Nail ABDULLAYEV,
"Azəriqaz" İstehsalat Birliyi
baş direktorunun birinci müavini
(əməliyyat üzrə)

● QAYĞI

Müraciətim həll olundu



Qarabağ müharibəsində iki oğlum - Yaşar Birinci Qarabağ müharibəsində, digər oğlum Nahid isə Vətən savaşında qəhrəmancasına şəhid olublar. Amma iki şəhidin doğulduğu evə gedən yol bərbad vəziyyətdə idi.

Bu barədə rayon icra hakimiyyətinə müraciət etdim. Sağ olsunlar, nümayəndə göndərib vəziyyəti öyrəndilər və qısa vaxt ərzində 600 metrlik küçəyə asfalt salındı.

Bu günlər rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri ailəmizi ziyarət etdilər, ailəmizin qayğı və problemləri ilə maraqlandılar, müraciətlərimizi dinlədilər. RİH-in başçısı şəhid övladlarımın Vətən qarşısında göstərdikləri misilsiz qəhrəmanlıqlardan danışdı, onların xalqımızın yaddaşında əbədi yaşayacaqlarını bildirdi. Azərbaycanda şəhid ailələrinə və müharibə iştirakçılarına hər zaman xüsusi diqqət və qayğı göstərildiyini, onların sosial-məişət məsələlərinin diqqətdə saxlanıldığını və problemlərin həlli istiqamətində zəruri tədbirlərin görüldüyünü qeyd etdi. Minnətdarlıqdan savayı başqa nə deyə bilərəm?!

Musa AĞALAROV,
Goranboyun Xanqərvənd kənd sakini,
şəhid Nahid və Yaşar Ağalarov qardaşlarının atası

● GÜNDƏM

Qonşu qonşu olsa...

Böyük qaydalara ehtiyac yoxdur, sadəcə, diqqətli olmaq kifayətdir

Binada yaşamaq yalnız mənzilin qapısını bağlayıb öz dünyana çəkilmək demək deyil. Eyni pilləkəndən istifadə etdiyimiz, eyni liftə mindiyimiz, eyni həyətə düşdüyümüz, bəzən eyni parkinq yerini bölüşdüyümüz qonşular var. Mənzil bizim şəxsi məkanımızdır, amma binanın girişindən başlayaraq, bir çox yerlər artıq hamımıza aiddir. Elə buna görə də çoxmənzilli binada yaşayışın rahatlığı təkcə mənzilin içindəki şəraitdən yox, qonşuların ortaq məkanlara münasibətindən də asılıdır.





Binaya daxil olanda ilk diqqət çəkən yerlərdən biri giriş (blok) və lift olur. Təmiz, səliqəli və baxımlı giriş insanda xoş təəssürat yaradır. Əksinə, pilləkənlərdə atılmış zibil, divarlardakı yazılar, zədələnmiş lift düymələri, divarlardakı təpik izləri və ya mərtəbələrdə yığılan lazımsız əşyalar binanı gözdən salır. Halbuki bunların heç biri "kiminsə işi" deyil. Bu işdə qonşuların hamısının məsuliyyəti var.

Bəzən insanlar öz mənzillərindəki səliqəni mənzillərindən kənarda göstərmirlər. Evdə zibili yerə atmaq ağlımıza belə gəlmir, amma liftdə və ya pilləkəndə bunu rahatca edirik. Halbuki həmin pilləkənlə bizim uşağımız da keçir, yaşlı qonşumuz da, işdən yorğun gələn başqa bir sakin də. "Birdəfəlikdir" düşüncəsi çoxaldıqca ortaq məkanlarda ümumi bir səliqəsizlik yaranır.

Xüsusilə lift mədəniyyəti binada yaşayan insanların bir-birinə münasibətini göstərən xırda, amma əhəmiyyətli nümunələrdəndir. Liftə minərkən qapını başqasının üzünə bağlamamaq, içəridə uca səslə danışmamaq, uşaqların düymələrlə oynamasına imkan verməmək, bütün liftləri eyni mərtəbəyə çağırmamaq, yaşlı və hərəkəti məhdud insanlar üçün bir neçə saniyə gözləmək böyük fədakarlıq tələb etmir. Sadəcə qarşımızdakı insanı özümüzün yerinə qoymaq kifayətdir.

Ortaq məkan məsələsində ən çox mübahisə doğuran problemlərdən biri də dəhlizlər və mərtəbə meydançasıdır. Kimsə ayaqqabısını, kimsə uşaq arabasını, kimsə müxtəlif əşyalarını qapısının qarşısına qoyur. Bir mənzil üçün kiçik görünən bu əşyalar keçid yolunu daraldır, təmizlik işinə mane olur və başqa sakinlər üçün narahatlıq yaradır. Qapımızın önü bizə yaxın olsa da, dəhliz şəxsi anbar deyil. Oradan hamı istifadə edir. Uşaq arabası, velosiped, skuter kimi əşyaların saxlanması da eyni məsələyə aiddir. Binada bunun üçün xüsusi yer varsa, həmin yerdən istifadə etmək həm əşyanı qoruyur, həm də keçidləri açıq saxlayır. Belə imkan yoxdursa, ən azı qonşuların rahatlığını nəzərə almaq lazımdır. Çünki bir ailənin rahatlığı digər ailənin rahatsızlığına səbəb olmamalıdır.

Paralel olaraq, bina həyətində davranış da ümumi yaşayış mədəniyyətinin bir hissəsidir. Uşaqların oynaması təbiidir, amma oyun meydançası ilə avtomobillərin hərəkət etdiyi sahə bir-birindən fərqlənir. Valideynlərin uşaqları nəzarətsiz buraxmaması, sürücülərin isə həyətdə ehtiyatlı olması vacibdir. Həyətdə yaşayan insanların hamısının eyni məkanı paylaşdığını unutmamaq bir çox problemin qarşısını ala bilər.

Zibil məsələsi isə amma ən çox diqqət tələb edən məsələlərdəndir. Zibili konteynerin yanına qoymaqla içinə atmaq eyni deyil. Böyük karton qutuların, köhnə mebellərin və digər əşyaların ümumi zibil yerində günlərlə saxlanılması həm ətrafı natəmiz göstərir, həm də sanitariya problemi yaradır.

Binada parklanma da qonşular arasında münasibətlərin sınağa çəkildiyi məsələlərdəndir. "Mən həmişə burada saxlayıram" fikri başqasının da eyni hüquqa malik olduğunu dəyişmir. Xüsusi parklanma yeri olmayan binalarda bir avtomobilin giriş-çıxışı bağlamaması, yanğın və təcili yardım üçün nəzərdə tutulan sahələrdə maşın saxlanılmaması xüsusilə vacibdir.

Səs məsələsi də bina evində yaşayanların əsas problemlərindən biridir. Mənzildə təmir aparmaq, qonaq qəbul etmək, uşağın oynaması həyatın normal hissəsidir. Amma binada yaşamaq müəyyən saatlarda başqalarının istirahət hüququnu nəzərə almağı tələb edir. Gecə saatlarında yüksək səslə musiqi dinləmək, mebel sürümək, axşamlar təmir işi aparmaq qonşuların rahatlığını poza bilər.

Əslində, binada yaşamaq bizə gündəlik həyatın kiçik qaydalarını öyrədir. Burada hər kəsin şəxsi sərhədi var, amma heç kimin ümumi məkan üzərində mütləq üstünlüyü yoxdur. Lift, pilləkən, həyət, giriş hamınındır. Bu məkanlara münasibət bir qədər də özümüzə və bir-birimizə münasibətimizin göstəricisidir.


Yaxşı qonşuluq həmişə dostluq etmək demək deyil. Hər kəsin şəxsi həyatı, öz işi və öz çevrəsi var. Qonşumuzla yaxın münasibət qurmasaq belə, onun rahatlığını və hüququnu nəzərə ala bilərik. Salam vermək, lazım gəldikdə qapını saxlamaq, liftə tələsən qonşunu gözləmək, ümumi yeri çirkləndirməmək kimi sadə davranışlar sosial mədəniyyətdir. Hər kəsin həyat ritmi fərqlidir. Ortaq məkan mədəniyyəti də məhz bu fərqləri nəzərə almaqdan başlayır.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

● ŞİKAYƏT

Küçəmizi yaman günə qoyub gediblər

İki il əvvələ qədər Qasım bəy Zakir küçəsi Bərdə şəhərinin ən abad məkanlarından biri sayılırdı. Hər şey Heydər Əliyev prospektindən bizim küçəyə dönən yolun kənarında tikilən çoxmərtəbəli yaşayış binası istifadəyə veriləndən sonra başladı.



Binanın kanalizasiya xəttini çəkib xeyli aralıdakı əraziyə aparmaq üçün küçəni yol boyu qazdılar. Beləcə rahat asfalt yolumuz bərbad günə düşdü. Qazılmış dərin xəndək torpaqla örtüldü. İndi yağışlı günlərdə palçıqdan, quraqlıq günlərdə maşınların qaldırdığı tozdan küçədən keçib getmək olmur. Küçədə isə 4 nömrəli yeni məktəb, çox sayda idarə-müəssisə, ticarət və iaşə obyektləri var. Şəhərə bitişik olan Türkmən kəndinə də yol buradan keçir.

Əlaqədar qurumlara etdiyimiz çoxsaylı müraciətlərimizə baxan yoxdur. Dövlətin vəsaiti ilə salınan asfalt yolu qazıb dağıdan şirkətdən niyə tələb olunmur ki, bərbad günə qoyduğu yolu təmir etsin.

Hörmətli redaksiya, küçə sakinləri, eləcə də Türkmən kənd camaatı adından xahiş edirik ki, bizim haqlı etirazımızı əlaqədar qurumlara çatdırasınız.

Faiq QARAŞOV,
Bərdə şəhər sakini

● RAZILIQ

Su nasosu yenisi ilə əvəz edildi

Yerlərdə vətəndaş müraciətlərinə obyektiv baxılması və vətəndaş məmnunluğunun təmin edilməsinə Qazax rayonunda həssas yanaşılır. Xüsusilə də şəhid ailələri və müharibə iştirakçılarının sosial qayğılarının öyrənilməsi və həlli daim diqqətdə saxlanılır.



Məlum məsələdir ki, əkin sahələrində ən vacib iş suvarmanın təşkil edilməsidir. Bizim kənddə isə son illər bu sahədə bir sıra problemlər yaranmışdı. Belə ki, son 5-6 ayda artezian normal işləmirdi. Nəticədə suvarmada çətinlik çəkirdik. Rayon icra hakimiyyətinin başçısı kənddə sakinlərlə görüş keçirərkən həmin məsələni qaldırdıq. Məsələ qısa vaxt ərzində öz həllini tapdı. Subartezian quyusunun su nasosu yenisi ilə əvəz olundu.

Hörmətli redaksiya! Sakinlər buna görə rayon rəhbərliyinə, Qazax Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin əməkdaşlarına, əziyyəti keçən hər kəsə minnətdarlıqlarını bildirirlər.

Əlövsət MƏMMƏDOV,
Qazax rayonunun Bala Cəfərli kənd sakini

● MEMARLIQ

Rustov məscidi

Qubanın cənub-qərbində, dağlar qoynunda yerləşən Rustov kəndi təkcə zəngin təbiəti ilə deyil, həm də əsrlərin yadigarı olan tarixi abidələri ilə tanınır. Bu kəndin ən dəyərli memarlıq nümayəndələrindən biri 1903-cü ildə ucaldılmış Rustov kənd məscididir. Abidə 2 avqust 2001-ci ildən yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilib.

Məscidin cənub fasadındakı dairəvi pəncərənin altında yerləşən yonulmuş əhəng daşı üzərindəki epiqrafik yazı ilk tikintinin Hacı Yusif tərəfindən aparıldığını göstərir. Lakin günümüzə çatmış əzəmətli bina 1903-cü ildə yerli sakinlərin təşəbbüsü və məşhur azərbaycanlı milyonçu-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin böyük maddi dəstəyi ilə inşa olunmuşdur. Məscidin inşasında istifadə edilən keyfiyyətli materiallar və dulusçuluq sənətinin incəlikləri onun əsrlər boyu öz möhkəmliyini saxlamasına zəmin yaratmışdır.

Bişmiş qırmızı kərpicdən və yonulmuş yerli daşlardan tikilən məscid Şimal-Şərq Azərbaycan memarlıq məktəbinə aiddir. Binanın daxilində hündürlüyü 5 metrə çatan zərif bəzədilmiş mehrab, tağvari sütunlar, pəncərələrin xüsusi quruluşu və ağac üzərindəki incə oyma işləmələri Şərq sənətkarlığının yüksək zövqünü nümayiş etdirir. Tikilinin daxili fəzası geniş ibadət zalından ibarətdir və sütunlu tağlar dam örtüyünün dayanıqlığını təmin edir.

Sovet işğalı dövründə ibadət evi kimi fəaliyyətini dayandırmağa məcbur olan məscid binası uzun illər taxıl anbarı və mədəniyyət ocağı kimi istifadə edilsə də, kənd sakinlərinin qayğısı sayəsində öz strukturu və memarlıq bütövlüyünü qoruyub saxlaya bilmişdir. Məscidin kirəmit örtüklü damı və ümumi tikili ilə harmonik sintez təşkil edən memarlıq elementləri sovet dövrünün dağıdıcı təsirlərindən zərər görmədən bu günümüzə qədər gəlib çatmışdır.



Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscid yenidən dindarların istifadəsinə qaytarılmış və 2008-ci ildə dövlət tərəfindən ilkin görünüşü tam saxlanılmaqla əsaslı şəkildə bərpa olunmuşdur. Bərpa zamanı abidənin orijinal fasadı, kərpic bəzəkləri və daxili taxta şəbəkələri olduğu kimi qorunmuş, həyətində ibadət edənlər üçün əlavə köməkçi bina inşa edilmişdir. Hazırda məsciddə rəsmi qeydiyyatdan keçmiş dini icma fəaliyyət göstərir və abidə Quba bölgəsinə gələn turistlərin tez-tez baş çəkdiyi mühüm mədəniyyət ünvanlarından biri hesab olunur.

Səriyyə ABİDOVA,
Quba rayon sakini

Mənəviyyat mövzusunda

Bu sevginin adı nədir?

Sevgi elə hissdir ki, hamının ürəyində yeri var. Bir olan Allaha, Vətənə, valideynlərə, övlada və s. Bu siyahını uzatmaq da olar. Lakin məqsədimiz başqadır. Doğrusu, adını qoymağa gücüm çatmır. Odur ki, sizinlə bölüşməyi qərara aldım.



İnsan övladı böyüdükcə onun dünyaya baxışı da dəyişir. Artıq özünə münasib bildiyi çərçivəyə sığışmır. Daha çox öyrənməyə can atır. Bu çırpınış cəlbedici olar. Lakin əzizlədiyimiz, müqəddəs bildiyimiz sevginin də saxtası çıxıb. Necə ki, qida məhsullarının saxtası çıxan kimi. Fərqi biri sağlamlığımızı, digəri kimliyimizi, milli-mənəvi dəyərlərimizi zədələməsindədir. Məsələn, özünü mədəni göstərmək üçün öz dilində danışmağı ayıb saymaq. Özlərini feminist adlandıranların ölçüyəgəlməz davranışları, utancverici sözləri böyük lövhələrə yazıb onu ayıb bilmədən şəhərdə gəzdirmək, genderi açıq-saçıq paltar kimi tərs üzünə geyinmək. Dizi cırıq şalvarla adam içində dolaşmaqdan zövq almaq, qucağındakı iti öpə-öpə şəhərdə dolaşmaq və s. Mən bunu söyləməklə heç də heyvanlara qarşı olduğumu bəyan etmək istəmirəm. Lakin sevgi o zaman gözəldir ki, o, başqalarına narahatlıq gətirməsin. Ərzaq məhsulları satılan mağazaya qucağında itlə daxil olmaq, onu sığalladığın əlin ilə müxtəlif qidalara toxunmaq başqaları üçün heç də xoş deyil.

Hər bir canlının qayğısına qalmaq gözəl bir işdir. Bir şərtlə ki, işin şorunu çıxarmayasan. Bu it sevgisi haradan yaranıb, deyə bilmərəm. Müşahidələrimdən bu qənaətə gəlmişəm ki, həmin şəxslər çətin vəziyyətdə olan, qocalıb əldən düşmüş qonşusuna bir içim su verməyə istəmir. Bir həmkarım danışdı ki, vay-şivən səsini eşidib oraya yaxınlaşdım. İtin ölüsünü taxtanın üzərinə uzadan iki qadın elə dil deyirdi ki, vallah, deməyə söz tapmadım. Kiminsə "adam ölməyib ki, nə haray salmısınız?" sözünə qadınlardan biri: "Kaş ki, adam ölərdi, it yox", - dedi.

Küçədə gedib-gələnin hürərək üstünə şığıyan, uşaqların gününü qara edən bu heyvana olan məhəbbət məndə təəccüb doğurdu. Doğrudur, canlıya qıymaq günah sayılır. Amma o, insanların hərəkətini məhdudlaşdırır, qorxu yaradır, hətta quduzluq deyilən dəhşətli bir xəstəliyə səbəb olursa, onda necə?

Əgər insan buna bənzər hərəkət edirsə, cəzalandırılır. Yəni itlər insandan o qədərmi dəyərlidir? Onları baranaklara yığmaq daha məqsədə müvafiq deyilmi? Artıq insanlar itlərin qorxusundan gedəcəkləri səmtləri dəyişmək məcburiyyətində qalıblar. 34 yaşlı bir xanımın it sürüsünün qurbanı olduğu yadımızdadır. Bunu sosial şəbəkələr paylaşmışdı.

Saxta sevgi, kimisə təqlid etmək onsuz da bizə az ziyan vurmayıb. Amma hər şeyin əvvəlində insan amili dayanmalıdır. Sizin fikriniz necədir? Mənimlə razısınız?

Rəfiqə SADIQOVA,
yazıçı-jurnalist

Gəncədə şəhid Rəşad Ələkbərovun xatirəsi anılıb

Gəncə şəhərində Vətən müharibəsi şəhidi Rəşad Ələkbərovun xatirəsi anılıb.

AZƏRTAC xəbər verir ki, anım mərasimində şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Şəhidin məzarı önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad edilib, ruhuna dualar oxunub.

Rəşad İlqar oğlu Ələkbərov 1997-ci il sentyabrın 15-də Gəncə şəhərində anadan olub. Orta təhsilini 44 nömrəli məktəb-liseydə aldıqdan sonra 3 saylı peşə məktəbində mühasibatlıq ixtisası üzrə təhsilini davam etdirib. Hərbi xidmətini başa vurduqdan sonra videooperator kimi çalışıb.

2020-ci ilin sentyabrında Vətən müharibəsinin başlanması ilə əlaqədar yenidən hərbi xidmətə çağırılan Rəşad Ələkbərov Xocavənd rayonunun Ağoğlan qəsəbəsi, Füzuli rayonu, Şuşa şəhərinin Daşaltı kəndi və Xankəndi istiqamətində gedən döyüşlərdə iştirak edib.



Rəşad Ələkbərov 2020-ci il noyabrın 9-da Laçın dəhlizi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Noyabrın 12-də Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına göre" medalları ilə təltif edilib.

Qeyd edək ki, şəhidin anası Nailə Ələkbərova da Birinci Qarabağ müharibəsinin iştirakçısı olub.

Ad günün mübarək, nur şəhəri

Mingəçevirlilər şəhərin 78 yaşını qeyd etdilər







Hər il olduğu kimi, bu il də Mingəçevir şəhərinin ildönümü böyük coşqu ilə qeyd olundu. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək ehtiramlarını ifadə etdilər.

Mingəçevir Dövlət Dram Teatrında təşkil olunan tədbirdə şəhərin dünənini və bugününü əks etdirən sərgi ilə tanışlıqdan sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi, şəhərin keçdiyi inkişaf yolu ilə bağlı videoçarx nümayiş olundu.

Çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov 1948-ci il noyabrın 11-də şəhər statusu almış Mingəçevirin 78 yaşının tamam olması münasibətilə bütün sakinləri təbrik etdi. Bildirdi ki, ötən illər ərzində şəhər geniş inkişaf yolu keçmişdir: "Şəhərin tikinti-quruculuq işlərində iştirak edən yüzlərlə şəhər sakini Mingəçevirə şan-şöhrət gətirmiş, yüksəlişində, inkişafında töhfələr vermişlər. Onların bir qismi bu gün sıralarımızda yoxdur". İ.İsmayılov sonra Mingəçevirin formalaşmasında və inkişafında müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndərin xidmətlərindən danışdı, məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan İES-in Mingəçevirdə tikintisinin həyata keçirildiyini xatırlatdı, şəhər iqtisadiyyatının güclənməsindən bəhs etdi. Vurğuladı ki, Ümummilli Liderin başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan İES ərazisində inşa olunan 1880 MVT-lıq 8 Noyabr Elektrik Stansiyasının açılışı olmuşdur. Hazırda stansiya tam gücü ilə işləyir. Bu il isə sentyabrın 26-da Prezident tərəfindən Bakı Konqres Mərkəzində onlayn formatda Mingəçevir Sənaye Parkında "TEXILE Horizon" MMC-nin (Tekstil Krasteri) layihəsi üzrə istehsal müəssisəsinin təməli qoyulmuşdur".



ŞİH-in başçısı onu da bildirdi ki, ötən illər ərzində Prezidentin imzaladığı dövlət proqramlarına uyğun olaraq Mingəçevirdə həyata keçirilən geniş abadlıq-quruculuq işləri sürətlə davam etmişdir: "Sənaye müəssisələrinin istehsal gücü artmış, yeni parklar və xiyabanlar salınaraq əhalinin istifadəsinə verilmişdir. Dövlət başçısının diqqət və qayğısı sayəsində Mingəçevir günbəgün abadlaşır. Ötən illər ərzində 336 yaşayış binasının əsaslı və cari təmir işləri həyata keçirilmişdir. 26 nümunəvi məhəllə yaradılmışdır. Bu il isə 4 nümunəvi məhəllədə işlər aparılır. Nümunəvi məhəllələrdə 15 idman, 16 idman trenajor və 27 uşaq əyləncə meydançaları, 220 söhbətgah, 1094 oturacaq quraşdırılmışdır. Sözünə davam edən natiq söylədi ki, bu il "Şəhərsalma və Memarlıq İli" ilə bağlı Mingəçevirdə "Bakı Abadlıq" MMC tərəfindən 98 binanın fasad hissəsi, 5 yaşayış binasının dam örtüyü təmir edilmiş, park və xiyabanlarda, yaşıllıq zolaqlarında abadlaşma işləri aparılmış, 9000-ə yaxın gül-çiçək, 61 min dekorativ kollar əkilmişdir. Heydər Əliyev prospektində yeraltı keçidin, Gənclər-idman İdarəsinin qarşısının, Dram Teatr meydanının yenidən qurulması nəzərdə tutulmuş, bir neçə məhəllədə yenidənqurma işlərinin aparılması, uşaqlar üçün əyləncə və idman qurğularının quraşdırılması planlaşdırılmışdır".

Prezidentin tapşırığı ilə şəhid ailələrinə, Qarabağ əlilləri-nə diqqət və qayğının günügündən artdığını bildirən İ.İsmayılov bu ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına, qarşılaşdıqları problemlərin həllinə dəstək göstərildiyini də dedi. Dövlət başçısının "Mingəçevir çox müasir, gözəl şəhərə çevrilibdir. Artıq Mingəçevir təkcə energetiklər şəhəri deyil, sənaye şəhəridir, mədəniyyət mərkəzidir… Şəhər tamamilə müasirləşib, gözəlləşib, böyük abadlıq-quruculuq işləri aparılır, xiyabanlar, parklar salınır, binalar təmir olunur", fikirlərini yada salan şəhər rəhbəri Mingəçevirin ölkə xaricində də tanındığını vurğuladı: "Mingəçevir Türkiyənin Qars və Gölbaşı bələdiyyələri ilə, Belarusun Polosk, İsrailin Afula, Qazaxıstanın Uralsk, Özbəkistanın Namanqan şəhərləri ilə qardaşlaşıb".

Ölkəmizin energetika paytaxtı olan Mingəçevirdə həyat öz axarı ilə davam edir, insanların güzəranı daha da yaxşılaşır, gənclər, məktəblilər, tələbələr vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimizə uyğun böyüyürlər. Əhalinin məşğulluğunun təminatı diqqət məkəzində saxlanılır. Şəhərin inkişafına verilən dəstəkdən danışarkən Heydər Əliyev Fondunun Prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi qeyd edilməlidir. Mehriban xanımın "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində şəhərdə inşa olunan müasir məktəblərdə təhsilin keyfiyyəti yüksək səviyyədədir.

Tədbirin sonunda Mingəçevirin inkişafında xidmətlərinə, ictimai həyatında fəal iştiraklarına görə və şəhərin 78 illiyi münasibətilə bir qrup şəxsə şəhər icra hakimiyyətinin fəxri fərmanları təqdim olundu, incəsənət ustaları konsert proqramı ilə çıxış etdilər.

Lazım QULİYEV,
"Azərbaycan"

Hörmüz boğazındakı böhranın qlobal inkişafa mənfi təsirləri dərinləşir

Dünya ticarət yollarında yaranan gərginliyin qlobal iqtisadiyyata mənfi təsirləri getdikcə artır. Qitələri və okeanları birləşdirən strateji dəniz yollarında, xüsusilə də dünya ticarətinin və enerji tədarükünün əsas keçidlərindən olan Hörmüz boğazındakı ən kiçik ləngimə belə bu gün ardıcıl fəsadlar yaradır.



Bu mühüm boğazdakı fasilələr qlobal enerji təhlükəsizliyini, ərzaq təminatını və sosial rifahı birbaşa təhdid edir. Hörmüz boğazından keçən daşımaların və xüsusilə yanacağın bahalaşması kənd təsərrüfatı üçün əhəmiyyət daşıyan gübrənin, gündəlik tələbat mallarının və ərzağın qiymətini sürətlə artırır. Bununla da boğazda başlayan gərginlik dalğası qlobal inflyasiya fırtınasına çevrilərək dünyanın hər bir yerində ailə büdcələrini sarsıdır.

Beynəlxalq maliyyə qurumlarının, o cümlədən Beynəlxalq Valyuta Fondunun proqnozları da mənzərənin nə qədər ciddi olduğunu ortaya qoyur. İnkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın ötənilki 4,5 faiz səviyyəsindən bu il 3,7 faizə enəcəyi, qlobal inflyasiyanın isə 4,7 faizə yüksələcəyi gözlənilir. Bu statistikanın arxasında milyonlarla insanın taleyi və hökumətlərin üzləşdiyi ağır sınaqlar dayanır. Bir tərəfdə, artan yaşayış xərcləri qarşısında çətinlik çəkən ailələr, digər tərəfdə isə xarici maliyyə öhdəlikləri ilə təhsil, səhiyyə kimi əsas ictimai xidmətlərin maliyyələşdirilməsi arasında balans tapmağa çalışan dövlətlər var. Ən təhlükəli məqam isə odur ki, Hörmüz boğazındakı böhranın yaratdığı və müvəqqəti görünən bu iqtisadi çətinliklər illər boyu böyük zəhmətlə əldə edilmiş nailiyyətləri sıradan çıxara və uzunmüddətli geriləməyə yol açа bilər.

Məhz buna görə də böhrandan ən çox zərərçəkən və maliyyə imkanları məhdud olan ölkələrin borc yükünü artırmadan dəstəklənməsi istiqamətində konkret addımlar atılır. Ötən il ərzaq təhlükəsizliyinin gücləndirilməsini və ən az inkişaf etmiş ölkələrin dayanıqlılığının artırılmasını hədəfləyən Doha Fəaliyyət Proqramı çərçivəsində ümumi dəyəri 21 milyon dollar olan iki saziş imzalanıb. Birincisi (10 milyon dollar), ən az inkişaf etmiş ölkələrdə ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatı dayanıqlılığının gücləndirilməsini, ikincisi (11 milyon dollar) isə BMT-nin müvafiq Ali Nümayəndəliyi vasitəsilə Doha Fəaliyyət Proqramının əsas prioritetlərinin icrasını və bu ölkələrin iqtisadi böhranlara qarşı müqavimətinin artırılmasını əhatə edir. Beynəlxalq gündəlikdə duran əsas prioritetlərin icrasını sürətləndirmək məqsədilə bu ilin dekabrında keçiriləcək Doha Forumunda qlobal müzakirələrin davam etdirilməsi, 2027-ci il martın 25-27-də isə Dohada Ən Az İnkişaf Etmiş Ölkələr üzrə Doha Fəaliyyət Proqramının yüksəksəviyyəli qiymətləndirmə toplantısının təşkili planlaşdırılır. Bütün bu təşəbbüslər qlobal ticarət yollarının təhlükəsizliyini qorumaqla yanaşı, iqtisadi böhranların inkişaf proseslərinə vurduğu zərəri minimuma endirməyə xidmət edir.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Mülayim cənub-qərb küləyi gündüz arabir güclənəcək

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi gündüz arabir güclənəcək.



Havanın temperaturu gecə 8-11° isti, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 762 mm civə sütununa enəcək. Nisbi rütubət 50-60 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, gündüz 14-19° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 7-12° isti olacaq.

Ceyranlar və Bezoar keçiləri tarixi areallarına qaytarılır

Azərbaycanın xüsusi mühafizə olunan təbiət ərazilərində vəhşi heyvanların tarixi areallarına qaytarılması və populyasiyalarının bərpası istiqamətində reintroduksiya tədbirləri həyata keçirilib.



Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Xaliq Mirzəyev AZƏRTAC-a bildirib ki, "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsi çərçivəsində Şirvan Milli Parkından götürülmüş 10 baş ceyran Arazboyu Dövlət Təbiət Yasaqlığının ərazisinə buraxılması üçün Naxçıvan Muxtar Respublikasına göndərilərək aidiyyəti üzrə təhvil verilib.

Xidmət rəisinin sözlərinə görə, akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkından götürülmüş 4 baş Bezoar keçisi isə İlisu Milli Parkına gətirilərək təbiətə buraxılıb.

Qeyd edək ki, heyvanların daşınması "Silk Way Airlines" şirkətinin dəstəyi ilə həyata keçirilib.

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Ceyran Qəmbərovaya anası
ANTONİNA KAZIMOVANIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Rasim Mehbalıyevə anası
RƏNA MEHBALIYEVANIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3312
Sifariş 1498
Qiyməti 60 qəpik